AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ

SUMQAYIT DÖVLƏT TEXNİKİ KOLLECİ

FİRMANIN (MÜƏSSİSƏNİN) İQTİSADİYYATI fənni üzrə

MÜHAZİRƏLƏR

Müəllim: Rəhimova Gülsabah Vahid qızı

“Firmanın iqtisadiyyatı” kursunun tədqiqat obyekti, predmeti və məzmunu

1. Müəssisə və firma:oxşar cəhətləri və fərqləri
2. “Firmanın iqtisadiyyatı” kursunun tədqiqat obyekti, predmeti
3. Kursun tədqiqat metodları və iqtisad kursları sistemində yeri

1. Hər hansı kursun tədrisi onun tədqiqat obyekti və predmetinin tələbələrə aydınlaşdırılmasından başlayır. Buna nail olmağa yardımçı bir məqam kimi “müəssisə” və”firma” məhfumlarının vəhdəti, başqa sözlə bunların analoji (oxşar) tərəfləri və onların bir-birinə bənzəməyən cəhətlərinin izahı da az əhəmiyyət kəsb etmir. Hər şeydən öncə “firma” italyan sözü olub, Azərbaycan dilində “imza”, “nişan” sözlərinə uyğun gəlir.

Firma məhfumunun məzmununu açıqlayan iqtisadçıları iki qrupa bölmək olar.

a) firma kommersiya fəaliyyəti ilə məşğul müəssisədir, təşkilatdır;

b) firmanın tərkibi bir deyil, bir neçə müəssisədən ibarətdir.

Firma-sənaye, ticarət, tikinti, nəqliyyatda hüquqi şəxs kimi kommersiya məqsədi güdən, sahibkarlıq fəaliyyətini həyata keçirən hər hansı təşkilati-təsərrüfat vahididir.

Bəs firma ilə müəssisə arasında nə kimi oxşarlıq və fərqlər vardır. İlk öncə göstərmək lazımdır ki, müəssisə-əmək bölgüsünə əsaslanan, kooperasiya vasitəsilə təşkil olunan, daxili texnoloji əlaqələri koordinasiya edilən mürəkkəb bir təsərrüfatçılıq subyektidir. “Firma” məhfumunun mahiyyətini açıqlayan bir sıra iqtisadçılar onun (firmanın) müəssisə olduğunu göstərməklə yanaşı, artıq qeyd edildiyi kimi, onun müəssisədən fərqli iki cəhətini də göstərirlər: a) firma 2 və daha çox müəssisədən ibarət olur. b) firma istehsalla yanaşı, həm də kommersiya fəaliyyəti ilə də məşğul olur. Müəssisəyə aid qalan nə əlamətlər vardırsa, onların hamısı firma üçün də səciyyəvidir.

2. İnsan fəaliyyətinin sferalarından biri kimi, elmin funksiyası həqiqətlər haqqında obyektiv nəzəri biliklərin işlənməsi və onların sistemləşdirilməsindən ibarətdir. İqtisad elminin müstəqilləşmiş sahələrindən biri də-təbii ki özünün tədqiqat obyekti və predmeti olan – “Firmanın iqtisadiyyatı” elmidir. İki yunan sözünün – “oykos” (ev təsərrüfatı) və “nomos”un (qanun, qayda) birləşməsindən əmələ gələn “Oykonomiya”nın Azərbaycan dilinə tərcüməsi “təsərrüfata rəhbərlik” mənasını verir. Lakin bununla yanaşı “Oykonomiya” sözü rus dilinə “Ekonomika”, Azərbaycan dilinin lüğət fonduna isə mənşəyinə görə ərəb sözü olan “İqtisadiyyat” kimi qəbul olunmuşdur. Əgər iqtisadiyyat bir tərəfdən insanların çox geniş miqyaslı fəaliyyət və onların maddi və sosial ehtiyaclarını təmin edən yeganə təsərrüfat sferasıdırsa, digər tərədən o, həm də, elm sahələrindən biridir. Əgər

iqtisadiyyatın nəzəri əsaslarını "İqtisadi nəzəriyyə" elmi tədqiq edirsə, praktiki və ya tətbiqi cəhətlərini isə konkret iqtisad elmləri öyrənir. İqtisadiyyatın həm tədqiqi və həm də idarə olunması baxımından o ("İqtisadi nəzəriyyə"), özünün 4 tərkib hissəsinə bölünür: "Makro" və "Mikro"iqtisadiyyat, "Mezoiqtisadiyyat" və "Meqoiqtisadiyyat".

Makroiqtisadiyyat elminin predmeti ölkə iqtisadiyyatının müəyyən müddət intervalında inkişafı və ya tənəzzülünün, milli pulun əcnəbi ölkələrin pulları ilə müqayisədə məzənnəsinin, işsizliyin, ticarət balansının və s. dəyişməsi səbəblərini öyrənməkdir.

Mikroiqtisadiyyat elmi isə iqtisadiyyatın istehsal sahələri, müxtəlif müəssisə və ya istehsal firmaları, əmtəə və maliyyə bazarları, bankları, ev təsərrüfatı kimi iqtisadi strukturları və onların ünsürlərinin fəaliyyətini tədqiq edir.

Mezoiqtisadiyyat-bir-birilə təsərrüfat əlaqələri üzrə bağlı olan sahə komplekslərinin iqtisadiyyatıdır, makroiqtisadiyyatın yarımsistemləridir.

Mezoiqtisadiyyat bütünlükdə dünya iqtisadiyyatı, başqa sözlə, beynəlxalq iqtisadiyyat deməkdir.

"Firmanın iqtisadiyyatı" elmi müstəqil və habelə konkret elm sahəsi olsa da, bütövlükdə sənaye, onun müvafiq sahələri və habelə, ümumiyyətlə, iqtisad elmi ilə sıx bağlılığı və qarşılıqlı əlaqələri mövcuddur. Firmalar iqtisadiyyatın ilkin həlqələri olmaqla, həm də onlar, iqtisadiyyatın təməlində dayanan, inkişaf və səmərəliliyinin yüksəlməsində müstəsna rolu olan təsərrüfat subyektləridir. Firmanın iqtisadiyyatı məsələlərini dərindən və hərtərəfli mənimsəyən iqtisadiyyat sahələrindən hansında işləməsindən asılı olmayaraq-maliyyəçi, marketoloq, menecer, mühasib, statistik və s. öz ixtisaslarını lazımınca dərk edə bilməzlər.

"Firmanın iqtisadiyyatı" kursunun tədqiqat obyekti, əlbəttə firmalardır, onların təsərrüfat fəaliyyətidir. Mövcud istehsal münasibətlərinin doğurduğu obyektiv iqtisadi qanunların firmanın təsərrüfat-kommersiya fəaliyyətindəki təzahür formaları, mövcud olan ümumi qanunauyğunluqlar, istehsal və qeyri-istehsal amilləri, məhsul istehsalı və xidmətlər göstərilməsinin iqtisadiyyatı və idarə edilməsi məsələləri **"Firmanın iqtisadiyyatı" kursunun predmetidir.**

3. Elm özünün inkişaf tarixində həqiqətləri dərk etmək məqsədilə metodologiya, bir çox üsul, metod, qayda və fəndləri işləyib hazırlamış və elmi araşdırmalarda müvəffəqiyyətlə istifadə etmişdir. Bu metodlara sistemli yanaşma, analiz və sintez, ümumidən xüsusiyə (deduksiya) və xüsusi ümumiyə (induksiya) məntiqi keçid, iqtisadi-riyazi metodları və s. aid etmək olar. İqtisadi proses və hadisələrin də düzgün və ətraflı dərk olunması üçün konkret iqtisad elmləri üçün əsas elmi metod olan dialektik metod vasitəsilə mümkündür, çünki bu metod hadisə və proseslərin fasiləsiz, mütəhərrik vəziyyətdə, ətraflı sıx və qırılmaz ümumi əlaqə, qarşılıqlı asılılıq və qarşılıqlı təsir vəziyyətində öyrənir. Dialektik

metodun köməyilə iqtisadi hadisə və proseslərin real inkişafını-kəmiyyət və keyfiyyət dəyişikliklərini və buna səbəb olan daxili ziddiyyətlərin mahiyyətini dərk etmək və yeni inkişaf səviyyəsinə qalxmaq naminə onların həlledilmə qaydalarını müəyyənləşdirmək olur.

Firmanın iqtisadi məsələlərinin öyrənilməsində statistik müşahidə və müqayisəli təhlil metodları böyük əhəmiyyət kəsb edir. Onlar xüsusi və ümumiləşdirici iqtisadi göstəriciləri toplamağa, firmanın iqtisadi və sosial inkişaf dinamikasını təhlil və onun fəaliyyətinin nəticələrini digər təsərrüfat subyektləri ilə müqayisə etməyə imkan verir. Müəssisə iqtisadiyyatının nəzəri və tətbiqi məsələlərinin təhlilində riyazi modellər, təsviri qrafika metodlarından da geniş istifadə olunur. Bu metodlar-konkret iqtisadi situasiyadan asılı olaraq ayrı-ayrı iqtisadi göstəricilərin təsir və əks təsir əlaqələrinin düzgün və obyektiv qiymətləndirilməsinə imkan yaradır.

"Firmanın iqtisadiyyatı" kursunun ən ümumi şəkildə vəzifəsi tələb və təklif arasındakı ziddiyyətlərdən törənən və bilavasitə firmanın iqtisadiyyatına aid olan məsələləri öyrənmək və həmin ziddiyyətlərin həlli yollarını tapmaqdır. Məlumdur ki, konkret iqtisadi elmləri sahə və mövzu nişanələri üzrə ixtisaslaşmışlar. Sahə nişanəsi üzrə ixtisaslaşmış konkret iqtisad elmlərinin xarakterik cəhəti onlar üçün bu və ya digər sahənin bütövlükdə tədqiqat obyekti kimi seçilməsidir.

"Firmanın iqtisadiyyatı" kursu həm sahə, həm də mövzu nişanəsi üzrə ixtisaslaşmış konkret iqtisad kurslarının hamısı ilə qarşılıqlı əlaqə və asılılıqda inkişaf etmiş, özü zənginləşmiş və onları zənginləşdirmişdir. "Firmanın iqtisadiyyatı" kursunun iqtisad elmləri arasında yeri və əhəmiyyəti firma və müəssisələrin ölkə iqtisadiyyatının özülünü təşkil etməsi ilə müəyyən olunur.

"Firmanın iqtisadiyyatı" kursunun vəzifələrindən biri istehsalın idarə olunması, iqtisadi və hüquqi islahatlardan irəli gələn vəzifələrlə əlaqədar olaraq idarəetmə sisteminin təkmilləşdirilməsi, dövlətin müəssisə iqtisadiyyatına dair tənzimlənmə tədbirləri və s. bu kimi məsələləri öyrənməkdir.

. İstehsal firmalarının təsnifatı, quruluşu və formaları

1. İstehsal firmalarının təsnifatı

2. İstehsal firmalarının quruluşu və onu müəyyən edən amillər

3. Sahibkarlıq və firmanın təşkilati-hüquqi formaları

4. Sahibkarlğın təşkilati-iqtisadi formaları, firmanın xarici və daxili mühiti

5. Firmanın yaradılması və ləğvi qaydaları

1. İstehsal firmaları və ya sənaye müəssisələri aşağıdakı əlamətlərə görə təsnifləşdirilir.

Buraxılan məhsulun iqtisadi təyinatına görə bütün sənaye müəssisələri iki əsas qrupa: istehsal vasitələri və istehlak şeyləri istehsal edən sənaye müəssisələrinə bölünür. İstehsal vasitələri istehsal edən sənaye sahələrinə- metallurgiya, energetika, maşənqayırma, kimya sənaye müəssisələri və s. aiddirlər.

İstehsal etdikləri xammal və materialların xarakterinə görə hasiledici və emaledici sənaye sahələri fərqləndirilir. Hasiledici müəssisələr təbiətin vermiş olduğu sərvətlər-təbii sərvətləri əldə edirlər. Bu növ müəssisələrə missal olaraq neft, qaz, dəmir filizi və s. hasil edən müəssisələri misal göstərmək olar. Emaledici sənaye sahələri isə hasiledici sənayenin və kənd təsərrüfatının verdiyi xammalı emal edirlər.

İl əraində işləmə müddətlərinə görə müəssisələr üç qrupa bölünürlər: bütün il boyu fasiləsiz işləyən sənaye müəssisələri (məsələn, domna sobaları, marten peçləri, neftayırma zavodları və s.), bütün il boyu fasiləli işləyən sənaye müəssisələri (məsələn, maşınqayırma zavodları) və mövsümi işləyən sənaye müəssisələri 9məsələn, şəkər, konserv, pambıqtəmizləmə vəs. zavodlar).

Fəaliyyət miqyasına görə müəssisələr kiçik, orta və iri müəssisələrə bölünürlər. Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın inkişaf səviyyəsindən asılı olmayaraq müəssisələrin kiçik, orta və iri sahibkarlığa aid edilməsi demək olar ki, bütün bazaar iqtisadiyyatı ölkələrində həyata keçirilir. Həm də bu zaman əsas meyar kimi işçilərin sayı qəbul edilir.

Azərbaycan Respublikası Nazirlər Kabineti özünün "İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri" haqqında 20.04.2004-cü il tarixli 57 saylı qərarı ilə kiçik müəssisələrə işçilərinin sayı və illik dövriyyəsinin həcminə yenidən baxmış və qruplaşmanı aşağıdakı kimi müəyyən etmişdir: sənaye-işçilərin sayı 40 nəfər, illik dövriyyənin həcmi 200 min manat; kənd təsərrüfatı-işçilərin sayı 15 nəfər, illik dövriyyənin həcmi 100 min manat; tikinti-işçilərin sayı 40 nəfər, illik dövriyyənin həcmi 200 min manat; topdansatış ticarət-işçilərin sayı 10 nəfər, illik dövriyyənin həcmi 300 min manat; sair müəssisələr-işçilərin sayı 5 nəfər, illik dövriyyənin həcmi 100 min manata qədər.

İstehsalın təşkili tipinə görə sənaye müəssisələrinin üç tipi: kütləvi, seriyalı və fərdi tipləri olur:

- kütləvi istehsal tipli müəssisələrdə həcmcə böyük, lakin həmcins və istehsalı daima təkrarlanan məhsullar istehsal edilir;

- seriyalı istehsal tipli müəssisələrdə məhsullar seriyalarla buraxılır və onlar müəyyən dövrlərdən bir təkrarlanır;

- fərdi istehsal tipli sənaye müəssisələrdə geniş nomenklaturada və çox hallarda istehsalı təkrarlanmayan məhsullar istehsal edilir.

İstehsal firması ölkə iqtisadiyyatının əsası və bazarın subyekti olub, ictimai tələbatı ödəmək və mənfəət əldə etmək məqsədilə məhsul istehsal edən və satan , hüquqi şəxs statuslu istehsal-təsərrüfat vahididir.

İstehsal firması və müəssisəsələrin tərkibinə daxil olan struktur bölmələrinin istehsal texniki vəhdətliyi ya buraxılan məhsulların iqtisadi təyinatının ümumiliyi, ya da onların konstruktiv quruluşları və hazırlanması texnologiyalarının oxşarlığı ilə şərtlənir.

Təşkilati vəhdətlik idarəetmənin, perspektiv, cari və operativ planların, uçot və hesabatın vahid sisteminin, vahid nizamnamənin mövcudluğu ilə müəyyən olunur və bütün müəssisələr özlərinin nizamnamələri əsasında fəaliyyət göstərirlər. Müəssisənin nizamnaməsi, təsisçi bir fiziki və ya hüquqi şəxs olduqda onların özləri tərəfindən, təsisçiləri iki və daha çox fiziki və hüquqi şəxs olduqda isə onların ümumi yığıncağı tərəfindən təsdiq edilir.

İqtisadi vəhdətlik isə öz əksini firmanın qarşısında duran iqtisadi və social vəzifələr, onların həlli üçün cəlb olunmuş istehsal resursları, həmçinin istehsal-təsərrüfat fəaliyyətinin nəticələrinin ümumiliyində tapır. İqtisadi vəhdətlik material-enerji resurslarının və maliyyə vəsaitlərinin bütün növlərinin vahid dövriyyədə birləşdirilməsi ilə əldə olunur.

2. Firmanın istehsal quruluşu bir-birilə qarşılıqlı surətdə bağlı və asılılıqda olan müxtəlif vasilələrdən: sexlərdən, istehsal sahələrindən və ayrı-ayrı iş yerlərindən ibarət olur. İstehsal quruluşu onun tərkibinə daxil olan vəsilələr arasındakı kəmiyyət nisbətini ifadə edir. Firma və müəssisənin iqtisadiyyatına aid ədəbiyyatda onun iki növünü: ümumi və istehsal quruluşlarını fərqləndirirlər. Müəssisənin (firmanın) ümumi quruluşu dedikdə, onun tərkibini təşkil edən həm istehsal, həm də qeyri-istehsal sahələrinin məşğul etdikləri meydançaların, onların işçilərinin sayının, məhsul buraxmaq və xidmət göstərə bilmək qabiliyyətlərinin kəmiyyət nisbətləri nəzərdə tutulur. İstehsal firmasının istehsal quruluşu dedikdə isə, yalnız istehsal bölmələri-sexlərin, istehsal vasitələrinin, xidmət bölmələrinin (məhsul istehsalında birbaşa və dolayı yolla iştirak edən bölmələr) arasındakı məcmu qarşılıqlı əlaqələri başa düşülür. Firmanın quruluşu onun təsisçiləri tərəfindən, müəssisədaxili bölmələrin (məsələn, sexlərin) quruluşu isə müəssisənin rəhbərliyi tərəfindən müəyyən edilir. Firmanın istehsal quruluşu istehsal bölmələri arasındakı nisbətləri və qarşılıqlı əlaqələri, sexlər və istehsal sahələri arasında əmək bölgüsünü (kooperasiyanı), məhsul buraxılışında onların rolunu və əhəmiyyətini müəyyən etməyə imkan verir.

Müəssisə və firmanın istehsal quruluşu müxtəlif iqtisadi, təşkilati və texniki amillərin təsiri altında formalaşır ki, bu amilləri də bir neçə qrupa-makroiqtisadi,

sahə və regional amillər qrupuna bölmək olar. **Makroiqtisadi amillər** müəssisənin istehsal strukturunun kompleksliyini və tamlığını müəyyən edir. Bu amillərə ölkə iqtisadiyyatındakı sahələrin tərkibi, onların diferensasiya dərəcəsi, xarici ticarət əlaqələri və s. aiddirlər. Firmanın istehsal quruluşuna onun mənsub olduğu sahənin ixtisaslaşma səviyyəsi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin yerinə yetirilməsi imkanları, sahədə təchizat və satışın təşkili xüsusiyyətləri, başqa digər sahələrin xidmətləri ilə təmin olunma səviyyəsi kimi **sahə amilləri** də təsir göstərir. Müəssisənin quruluşuna (ümumi və istehsal) təsir göstərən **regional amillər** onun (müəssisənin) müxtəlif kommunikasiyalarla: qaz və su kəmərlərilə, nəqliyyatla, rabitə vasitələri ilə və s. təmin olunması səviyyəsi ilə əlaqədardır. Qeyd olunan **makroiqtisadi, sahə və regional amillərin** məcmusu müəssisənin fəaliyyət göstərdiyi xarici mühiti əmələ gətirirlər.

Müəssisənin əsas struktur vahidi sexdir. Sex müəssisənin inzibati baxımdan xüsusiləşmiş həlqəsi olmaqla, texnoloji baxımdan istehsal prosesinin-məhsul istehsalının müəyyən mərhələsi məhz burada yerinə yetirilir. Bir qayda olaraq sexlər texnoloji proseslərin vəhdətliyi, ərazi bütövlüyü və ixtisaslaşdırılması ilə xarakterizə olunurlar. İstehsal firmasının tərkibinə daxil olan sexlər məhsulun hazırlanmasındakı rollarına görə aşağıdakı 4 qrupa bölünürlər: 1) əsas sexlər-xammal və materialların hazır məhsula çevrilməsi üzrə texnoloji prosesin hansısa mərhələsinin bilavasitə yerinə yetirilməsi ilə məşğul olurlar. Əsas sexlərin istehsal imkanları müəssisənin məhsulburaxma qabiliyyətini müəyyən edir. 2) köməkçi sexlər-bilavasitə məhsul istehsalı ilə məşğul olmurlar, lakin əsas sexlərin normal fəaliyyət göstərmələri üçün bütün zəruri şəraiti yaradırlar. Köməkçi sexlərə misal olaraq alət, təmir, model və s. sexləri göstərmək olar. 3) xidmətedici sexlər-köməkçi sexlər kimi bilavasitə məhsulun hazırlanması ilə məşğul olmurlar, lakin onlar həm əsas, həm də köməkçi sexlərin normal fəaliyyət göstərmələri üçün şərait yaradırlar. Xidmətedici sexlərə misal olaraq nəqliyyat və enerji sexlərini, kompressor stansiyalarını, eksperimental sexləri, su təchizatını, anbar təsərrüfatını və s. göstərmək olar. 4) yardımçı sexlər-əsas sexlərin istehsal tullantılarından təkrar istifadə edilməsi (təkrar istehsalı) məqsədilə yaradılır və onlar müəssisədə hazırlanan məhsulların maya dəyərinin aşağı salınmasında mühüm rol oynayırlar. Belə sex və təsərrüfatlara missal olaraq tara hazırlayan sexləri, işlənmiş yağların regenerasiyası ilə məşğul olan sexləri göstərmək olar.

İstehsal sahəsi-texnoloji cəhətdən həmcins əməliyyatlar yerinə yetirən və ya məhsulun hər hansı bir hissəsini hazırlayan və eyni məkanda təmərküzləşmiş iş yerlərinin məcmusundan ibarətdir.

Fəhlənin əmək fəaliyyəti üçün zəruri olan texniki vasitələrlə (dəzgah, maşın, alət vəs.) təchiz olunmuş və istehsal meydançasının hüdudlanmış hissəsinə-fəhlənin əmək fəaliyyəti zonasına –**iş yeri deyilir.** Sənaye müəssisələrinin istehsal

strukturunun texnoloji, predmet (əşya) və qarışıq tipləri mövcuddur. **İstehsalın strukturunun texnoloji tipində** sexlər həmcins texnoloji əməliyyatların yerinə yetirilməsi üzrə ixtisaslaşır, müstəqilləşirlər. Məsələn, maşınqayırma müəssisəsində tökmə, dəmirçi, mexaniki emal, yığma və s. sexlər. **İstehsalın strukturunun əşya (predmet) tipində** sexlər müəyyən məmulatların və ya onların hissələrinin hazırlanması üzrə ixtisaslaşırlar. Məsələn, avtomobil zavodunda mühərrik, neftmaşınqayırma zavodunda reduktor, nasos ştanqları və s. hazırlanması üzrə ixtisaslaşmış sexlər. **İstehsalın strukturunun qarışıq tipində** qeyd edilən tiplərin hər ikisinin-texnoloji və predmet-elementləri mövcud olurlar.

3. Sahibkarlıq- iqtisadi azadlığa söykənən, lakin qanunvericilik aktlarına və təsərrüfat riskinə əsaslanmaqla, cəmiyyətin məhsul və xidmətlərə ehtiyaclarını ödəmək üçün, məqsədi gəlir əldə etmək və əmlakını çoxaltmaq olan fəaliyyət növüdür. Başqa sözlə, sahibkarlıq fəaliyyətinin motivi və məqsədi mürəkkəb bazar situasiyalarında, güclü rəqabət mübarizəsi şəraitində heç də xeyriyyəçilik etmək deyil, maddi marağı, sahibkarlıq gəliri əldə etmək istəyi ilə əlaqədardır. Sahibkarlğın təməlində duran əmək bölgüsü, əmək kooperasiyası və əmtəə istehsalı və onun mübadiləsinin baş tutması üçün 4 amilin (resursun) mövcudluğu həlledici şərtdir. Bunlar əmək (iş qüvvəsi), kapital (əsas və dövriyyə), təbii resurslar və bir də sahibkarlıq fəaliyyətinin özüdür.

Əmək-istehsalın "baş agenti" olan iş qüvvəsi-insanların bilik (intellectual), təcrübə, vərdiş və fiziki enerjisini sərf etmək bacarığıdır ki, məhsul (əmtəə) istehsalında onların hamısından məcmu şəkildə istifadə edir. **Kapital**-insanların özləri tərəfindən yaradılmış istehsal vasitələridir-investisiya resurslarıdır. Bunlara əmək vasitələri (bina, maşın, avadanlıq və s.) və ilkin emaldan keçmiş xammal, daha doğrusu, materiallar, yarımfabrikatlar və s. aid edilir.

Təbii resurslar-təbiətin insanlara bəxşişidir, tövhəsidir; bunlara meşə, hava, su, tikinti üçün meydançalar, mineral xammallar, əkin yerləri və biçənəklər və s. aiddirlər. İnsanların bu resursların yaranmasında heç bir rolları olmayıb. İnsanlar həmin resursları təbiətdən hazır şəkildə götürüb onlarda müəyyən dəyişikliklər (fiziki, kimyəvi və s.) aparmaqla öz ehtiyacları üçün istifadə edirlər. İstehsal amillərindən biri də insanın sahibkarlıq bacarığıdır. Bu amil istehsalın xüsusi, qeyri-maddi, maddi olmayan amilidir. Fiziki şəxsin (şəxslərin) sahibkarlıq bacarığı bütün digər amilləri müəyyən kəmiyyət nisbətində istehsalın vahid sisteminə çevrilə bilir, onların hər birindən ayrılıqda və habelə kompleks şəkildə istifadə səmərəliliyinin yüksəldilməsinə təminat verir.

Sahibkarlığın özünə məxsus əlamətləri vardır və onlar aşağıdakılardır:

a) **Təşəbbüskarlıq.** Sahibkarlıq insanların durğunluqla, mühafizəkarlıq və ədalətlə ziddiyyət təşkil edən növüdür. Təşəbbüskarlıq sahibkarlığı daimi "müşayiət" edən, yardımçı olan, ona yeni məhsul istehsalı və yeni bazaar

tapmaqla fayda gətirən imkanların aşkarlanmasında köməklik göstərən sahibkara məxsus vəziyyətdir.

b) **Kommersiya riski və təsərrüfatçılıq məsuliyyəti.** Sahibkar müəyyən təsərrüfat qərarı qəbul edərkən özünün bilik və təcrübəsi ilə yanaşı qorxu və cəsarətinə, riskinə əsaslanır.

c) **İstehsal amillərinin kombinələşdirilməsi.** İstehsal amillərinin hər birindən qənaətlə istifadə etməklə istehsalın sinergetik səmərəliliyinə nail olmaq məqsədilə onların sahibkar tərəfindən bir-birilə əvəzlənməsinin optimal kombinələşmə variantının seçilməsidir.

d) **Yenilikçilik.** Sahibkarlığa xas olan bu xüsusiyyət sahibkar üçün, onun fəaliyyətinin nəticələri üçün çox böyük əhəmiyyət kəsb edir. Bazar konyunkturasının mütəhərrik olması-vaxtaşırı dəyişməsi, bazarın qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərən sahibkardan yenilikçilik, ixtiraçılıq, əldən çevik olmaq, hadisələrə qarşı həssaslıq, manevr edə bilmək, davranışına inam kimi xüsusiyyətlər tələb edir; o, hər konkret situasiyanı tez, yubatmadan öyrənməli, təhlil etməli, qərar qəbulu zamanı isə bu işə yaradıcılıqla yanaşmalıdır; o, öz davranışı ilə bazar qeyri-müəyyənliyinin "girov"una çevrilməməli, innovative məzmunlu tədbirlər görməklə vəziyyətdən çıxmağı bacarmalı, öz istehsalının səmərəlilik səviyyəsinin azalmasına imkan verməməlidir.

Mövcud qanunvericiliyə görə Azərbaycan Respublikasında firmalar (müəssisələr) təsərrüfat ortaqlıqları və cəmiyyətləri şəklində yaradıla bilər. **Təsərrüfat ortaqlıqları** tam ortaqlıq və kommandit ortaqlığı (inama əsaslanan ortaqlıq), təsərrüfat cəmiyyətləri isə məhdud məsuliyyətli müəssisə, əlavə məsuliyyətli müəssisə və səhmdar cəmiyyəti formalarında olur. Beləliklə, təsərrüfat subyektləri fərdi, şərikli, payçı və şərikli (komandit ortaqlı), məhdud məsuliyyətli, əlavə məsuliyyətli müəssisə (firma) və səhmdar cəmiyyəti kimi təşkilati-hüquqi formalarda yaradıla bilər. Əgər tam ortaqlığın iştirakçısı bir nəfərdirsə, o, fərdi firma adlanır. Fərdi firma-sahibkarlıq fəaliyyətinin ən klassik formalarından biridir. Bunlar, adətən, bir şəxsin mülkiyyəti əsasında təşkil olunur. Bununla yanaşı, belə firmalar başqa mülkiyyətlərə məxsus olan müəssisələrin satın alınması yolu ilə də yaradıla bilər. Bu tip firmaların idarə olunması, bir qayda olaraq, sahibkarın özü tərəfindən həyata keçirilir.

Tam ortaqlığın iştirakçılarının sayı iki və daha çox saydadırsa, onda bu **şərikli firma adlanır. Şərikli istehsal firması** ən azı iki fiziki və ya hüquqi şəxslər tərəfindən-müqavilə əsasında –təsis edilir. Həmin şəxslər firmanın öhdəliklərinin yerinə yetirilməsinə görə bütün əmlakları ilə məsuliyyət daşıyırlar. Şərikli (tam ortaqlı) firmada olan çatışmamazlıqlar onun daha təkmilləşmiş forması olan **payçı və şərikli (kommandit ortaqlıqlar) müəssisə** formasında aradan qaldırılır. Bu qəbildən olan firma və ya müəssisə həm şərikin (şəriklərin), həm də payçının

9payçıların) vəsaiti əsasında formalaşır. Bir qayda olaraq, şəriklərdən hər biri müəssisənin öhdəliklərinə və borclarına görə özünün bütün əmlakı ilə, hər bir payçı isə yalnız müəssisəyə verdiyi payın həcmi müqabilində məsuliyyət daşıyır.

Məhdud məsuliyyətli firma bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxs tərəfindən yaradılan, nizamnamə fondu təsis müqaviləsi ilə müəyyən edilən həcmdə paylara bölünən müəssisədir.

Əlavə məsuliyyətli müəssisənin (firmanın) məhdud məsuliyyətli müəssisədən fərqi ondan ibarətdir ki, onun iştirakçıları müəssisənin öhdəliklərinə görə nizamnamə fonduna qoyduqları paylarının nizamnamə ilə müəyyənləşdirilən və hamısı üçün eyni olan misli miqdarında subsidiar məsuliyyət daşıyırlar. İştirakçılardan biri öz payını ödəmək imkanına malik deyildirsə, bu pay digər iştirakçılar arasında onların paylarına uyğun olaraq bölünür.

Müəssisənin geniş yayılmış təşkilati-hüquqi formalarından biri də **səhmdar cəmiyyətləridir.** Kollektiv mülkiyyətə əsaslanan **səhmdar cəmiyyəti** özünün təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və (və ya) hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəssisədir. **Səhm**-onun sahibinin (səhmdarın) səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini dividend şəklində almaq, səhmdar cəmiyyətin idarə olunmasında iştirak etmək və o, ləğv edildikdən sonra qalan əmlakın bir hissəsini əldə etmək hüququnu özündə təsbit edən qiymətli kağızdır. Səhmdar cəmiyyətin Nizamnamə kapitalı **adi (sadə) və imtiyazlı səhmlərin** yerləşdirilməsi nəticəsində formalaşdırılır. **Sadə (adi) səhmlər** səhmdar cəmiyyətin Nizamnamə kapitalının 75faizindən az, **imtiyazlı səhmlər** isə 25 faizindən çox ola bilməz.

4. Sahibkarlıq fəaliyyəti təyinatına və ya növünə görə 4 qrupa bölünür-istehsal, kommersiya, maliyyə və məsləhət (konsaltinq).

Sahibkarlığın istehsal təyinatlı növü əsasdır; kommersiya, maliyyə və məsləhət növləri isə onun törəmələridir və ona xidmət edirlər. Elmi mücərrədçiliyə yol verməklə göstərmək olar ki, sahibkarlığın istehsal təyinatlı növü olmasaydı, digərləri də olmazdı.

Kommersiya sahibkarlığı. Bu növ sahibkarlıqdanməqsəd əmək məhsullarının istehsalı və istehlakı ilə məşğul olan firmalar arasındakı ticarət vasitəsilə mənfəət əldə etməkdir. Kommersiya sahibkarlığı əmtəə birjaları və ticarət təşkilatları vasitəsilə həyata keçirilir. Firmaların istehsal vasitələri əldə etmələri üçün əlaqəyə girdikləri vasitəçilərdən biri olan əmtəə birjası bazar iqtisadiyyatı sisteminə xas olan infrastrukturun tərkib hissələrindən biridir. O, alıcı və satıcının müvafiq razılaşmaları əsasında formalaşan əmtəələrin real qiymətləri ilə realizə olunan bazarıdır-kommersiya firmasıdır, hüquqi şəxsdir.

Maliyyə sahibkarlığı. Maliyyə sahibkarlığının əsas qurumları kommersiya bankları və fond birjalarıdır. Maliyyə (maliyyə-kredit) sahibkarlığının fəaliyyət

sferası tədavüldür, dəyərlərin mübadiləsidir. **Kommersiya bankı** səhmdar cəmiyyəti tipli maliyyə-kredit təşkilatıdır. O, ödənişli əsasla kommersiya təşkilatlarını kreditləşdirməklə müştərilərin tapşırığı ilə pul əmanətləri (depozitlər) qəbul etmək və başqa hesablaşma əməliyyatları həyata keçirməklə məşğul olurlar. **Fond birjaları** isə yeni təsərrüfatçılıq şəraitində, mütəmadi fəaliyyət göstərən qiymətli kağızların alqı-satqı bazarıdır. Bu birjanın əsas fəaliyyət istiqamətləri qiymətli kağızların məzənnəsini müəyyən etmək və kapitalın səfərbərlik səviyyəsinin yüksəlməsinə şərait yaratmaqdır.

Məsləhət (konsaltinq) sahibkarlığı. Konsaltinq-əmək məhsulunun istehsalçısı, istehlakçısı və onların vasitəçilərinə iqtisadi və idarəetmə məsələləri üzrə müxtəlif məsləhətlər, tövsiyyələr vermək və onların reallaşdırılması yollarını göstərməyə yönəldilmiş sahibkarlıq fəaliyyətidir.

İstehsal sahibkarlığı. Sahibkar fəaliyyəti növləri içərisində istehsal sahibkarlığı aparıcı rola malikdir. Bu sahibkarlıqdan məqsəd mənfəət əldə etmək üçün-məhsul hazırlamaq, istehsal xarakterli işlər görmək və xidmətlər göstərməkdir.

Sahibkarlığın inkişaf etmiş bazaar iqtisadiyyatı ölkələrində təşkilati-iqtisadi formaları da olur. Bunkar konsern, assosiasiya, konsorsium, kartel, sindikat və maliyyə-sənaye qruplarıdır (MSQ).

Konsern-kapitalın və istehsalın yüksək səviyyədə təmərküzləşməsi və mərkəzləşməsi əsasında yaradılan səhmdar cəmiyyətidir. Konsern özünün müxtəlif törəmə şirkətlərin səhmlərə nəzarət paketini əldə edir. Eyni zamanda onun (konsernin) törəmə müəssisələri digər, bəzi hallarda hətta əcnəbi ölkələrin səhmdar cəmiyyətlərinin səhmlərinə nəzarət paketini ala bilərlər.

Assosiasiya-müəyyən məqsədə çatmaq üçün iqtisadi cəhətdən müstəqil müəssisə, təşkilat və fiziki şəxslərin birliyi, ittifaqıdır. Assosiasiya konsernlə müqayisədə "demokratik" birlikdir. Belə ki, assosiasiyaya daxil olan hər bir müəssisə digər, başqa analoji qurumun da üzvü ola bilər. Bir qayda olaraq assosiasiya öz hərəkətinə görə, eyni ərazidə yerləşən ixtisaslaşmış müəssisələrdən ibarət olur. Bu qəbildən olan birliklər birgə səy əsasında elmi-texniki, istehsal, iqtisadi, sosial və digər məsələlərin həlli ilə məşğul olurlar.

Kartel-iqtisadi-təyinati, konstruksiyası və hazırlanma texnologiyasına görə həmcins məhsul istehsal edən müəssisələrin ittifaqıdır. Kartelin müəssisələri istehsal və kommersiya müstəqilliklərini və hüquqi şəxs statuslarını saxlayır, tərəfdaş sahibkarlar isə istehsal və satışda öz payları, satışın şərtləri, qiyməti və bazar barədə razılığa gəlirlər. Hazırda kartelə daxil olan iri trestlər bazarda inhisar yaratmaq əsasında maksimum mənfəət əldə etmək uğrunda mübarizə aparırlar.

Sindikat- kartel tipli inhisar birliyinin formalarından olub məqsədi iştirakçılar arasında satış və xammal tədarükü sahələrindəki rəqabəti azaltmaq və bazarlara

nəzarət yolu ilə inhisar mənfəəti əldə etməkdir. Karteldən fərqli olaraq sindikatın xüsusiyyəti məhsul satışının təmərküzləşdirilməsidir. Əgər karteldə onun iştirakçılarının hər biri öz məhsullarını müstəqil satırlarsa və xammalı özləri sərbəst tədarük edirlərsə sindikatda bu işi vahid orqan-kontor həyata keçirir.Sonuncu sifarişləri təmərküzləşdirməklə, onları iştirakçılar arasında-əvvəlcədən razılaşdırılmış kvota əsasında-bölüşdürür.

Müasir dövr üçün yeni olan sahibkarlığın təşkilati-iqtisadi formalarından biri maliyyə-sənaye qruplarıdır. MQS-lər sənaye, bank, sığorta və ticarət kapitalı və habelə, müəssisə və təşkilatların intellektual imkanlarının birliyidir.

Cəmiyyətin, o cümlədən, sahibkarın özünün ehtiyaclarının təminatı sahibkarlıq üçün yaranmış mühitin, şəraitin necəliyindən bilavasitə asılı olur. Sahibkarlıq mühitinə aşağıdakı ünsürlər aid edilir:

1. **İqtisadi azadlıq.** Bu azad sahibkarlığın həlledici şərtləri, bazar iqtisadiyyatının təməl prinsipidir. Bunsuz heç bir sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qeyri-mümkündür, onsuz bazara çıxmaq, istehsal resursları əldə etmək, müəyyən mülkiyyətə sahib olmaq imkanı qeyri-real bir istəkdir.

2. **Şəxs maraq.** Bu-sahibkarlıq üçün "lokomotiv", sahibkarın isə varlanmağa, öz mülkiyyətini çoxaltmağa sövqedici qüvvədir.

3. **Bazarın miqyası.** Bu sahibkarlıq fəaliyyətinin nəticələrinin realizə olunma imkanlarının ölçüsüdür. Bazar nə qədər geniş və sivil olarsa, sahibkarlığın inkişafı üçün o qədər şərait yaranmış olar.

4. **Rəqabət mübarizəsi.** Bu –bazarın birbaşa, sahibkarlığın dolayısı ilə nizamlanması, iqtisadi azadlıqla şəxsi marağın sərhədlərinin müəyyən edilməsidir.

5. **Dövlətin məhdudlaşdırılmış rolu.** Bu –dövlətin sahibkarlığa müdaxiləsinin optimal, yol verilməsi mümkün olan maksimum həddidir. Bu həddin düzgün müəyyən edilməməsi - həm çoxluğu və həm də azlığı sahibkarlığa ziyan gətirə bilər.

Sahibkarlığın **xarici və daxili mühiti** onun özünə təsir edən bir sira amillər döğurur. Firmanın fəaliyyətinə təsir edən **xarici mühitin** doğurduğu amillər aşağıdakılardır:

a) **təbii-demoqrafik amillər.** Firmanın yerləşdiyi regionun iqlim şəraiti, əmək qabiliyyətli əhalinin sayı, onların cins-yaş tərkibi və s.;

b) **sosial-mədəni amillər.** Əhalinin əxlaqi-mənəvi səviyyəsi, dinə münasibəti, təhsil senzi (səviyyəsi);

c) **texnoloji amillər.** Ölkə sənayesinin, elm və texnikasının inkişaf səviyyəsi, tətbiq olunan texnoloji istehsal üsulunun mükəmməllik dərəcəsi;

d) **iqtisadi amillər.** Bazarların inkişaf səviyyəsi, ölkənin maliyyə, pul-kredit və vergi siyasəti, rəqabətin dərəcəsi, gəlirlərin bölgüsünün xarakteri və s.;

e) **hüquqi amillər.** Təsərrüfat hüququnun inkişaf səviyyəsi, dövlətin sahibkarlığa münasibəti, sahibkarlığın müdafiəsi üçün qanunvericilik aktlarının mövcudluğu və s.;

f) **siyasi amillər.** Ölkənin siyasi sabitlik, dövlətlə cəmiyyətin qarşılıqlı münasibətləri.

Yuxarıda sadalanan amillərin əksəriyyətini dövlətin tənzimləmə tədbirləri və müəyyən qanunvericilik aktları vasitəsilə dəyişmək, təkmilləşdirmək və hətta ləğv etmək olar. Burada istisnalıq təşkil edən təbiətlə bağlı amillərin bir qismidir-məsələn, iqlim şəraitidir, regionun seysmiklik dərəcəsidir.

Firmanın **daxili mühitini**, hər şeydən əvvəl, onun istehsal potensialı (gücü) müəyyən edir. İstehsal potensialı yaradıcı xüsusiyyətə malik fəaliyyətlə məşğul olmaq üçün – məhsul istehsal etmək, istehsal xarakterli işlər görmək və xidmətlər göstərmək-müəssisənin sərəncamında olan istehsal resurslarının məcmusudur.

5. Müəssisə (firma) əmlak mülkiyyətçisinin, yaxud onun vəkil etdiyi orqanın, müəssisənin, təşkilatın qərarı ilə yaradıla bilər. Firmanın təsisçisi aşağıdakılar ola bilər:

1. Dövlət əmlakını idarəetməyə vəkil edilmiş dövlət orqanları;
2. Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri;
3. Xarici dövlətlər;
4. Əcnəbi ölkələrin vətəndaşları;
5. Beynəlxalq təşkilatlar.

Fərdi və dövlət müəssisələri təsis edilərkən təsis müqaviləsi tərtib edilmir. Təşkilati-iqtisadi və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr nizamnamə əsasında fəaliyyət göstərirlər. Müəssisənin nizamnaməsi təsisçisi bir fiziki və ya hüquqi şəxs olduqda onun özü tərəfindən, müəssisənin təsisçiləri iki və daha çox olduqda isə təsisçilərin ümumi yığıncağı tərəfindən qəbul edilir.

Ölkə prezidenti İlham Əliyevin "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi haqqında" sərəncamına qədər Azərbaycan Respublikasında müəssisələrin yaradılması aşağıdakı qaydalar əsasında həyata keçirilirdi:

Ədliyyə Nazirliyində qeydiyyatdan keçdikdən sonra firma və ya müəssisə yaradılmış hesab olunurdu. Sahibkarlıq fəaliyyətinin inkişafını sürətləndirmək üçün 2008-ci ilin yanvarından "bir pəncərə" prinsipi tətbiq olunmağa başladı. "Bir pəncərə"-vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən olunmuşdur. Müəssisənin dövlət qeydiyyatına alınması barədə ərizə onun təsisçisi (bir neçə təsisçi olduqda isə bütün təsisçilər) tərəfindən və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydasında təsdiq olunduqdan sonra onun (onların) və yaxud vəkil edilmiş şəxs

tərəfindən müvafiq vergi orqanına təqdim olunur. Ərizə ilə birlikdə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd (qəbz) təqdim edilməlidir. Rüsum məbləğləri "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilir. Müəssisənin dövlət qeydiyyatına alınması "Kommersiya hüquqi şəxsin dövlət qeydiyyatı haqqında ərizə" əsasında aparılır. Ərizəyə aşağıdakılar əlavə edilir:

- firmanın təsisçisi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş 2 nüsxədə nizamnaməsi;
- firmanın yaradılması və nizamnaməsinin təsdiq edilməsi haqqında təsisçi tərəfindən imzalanmış qərar;
- "Kommersiya hüquqi şəxsin dövlət qeydiyyatı haqqında ərizə"nin təsisçilər barədə əlavəsi;
- dövlət qeydiyyatı ərizəsi vergi orqanına təqdim edilən tarixə cəmiyyətin müşahidə şurası seçilmişdirsə, onun üzvləri barədə məlumatlar "Kommersiya hüquqi şəxsin dövlət qeydiyyatı haqqında ərizə"sinin müvafiq əlavəsi ilə təqdim olunur.
- təsisçilər tərəfindən icraedici və sərəncamverici səlahiyyətlərə malik olan qanuni təmsiçinin və ya rəhbərin təyin edilməsi barədə qərarın surəti;
- hüquqi şəxs status almaq istəyən qurumun hüquqi ünvanını təsdiq edən sənəd;
- məhdud məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti, bank və ya sığorta təşkilatı yaradıldıqda nizamnamə kapitalının ödənilməsini təsdiq edən sənəd (bank qəbzi, daşınmaz əmlakın ipotekası);
- firma xüsusi vergi rejimi ilə fəaliyyət göstərəcəksə, bu barədə məlumat "Kommersiya hüquqi şəxsin dövlət qeydiyyatı haqqında ərizə"sinin müvafiq əlavəsi ilə təqdim olunur;
- ərizə təsisçinin müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalandıqda vəkalətnamə ərizə ilə birlikdə təqdim edilir.

Müəssisə aşağıdakı hallarda ləğv edilə bilər:

- onun təsisçilərinin və ya müəssisənin nizamnamə ilə vəkil edilmiş orqanın qərarı ilə, o cümlədən müəssisənin mövcudluğu üçün nəzərdə tutulmuş müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq;
- müəssisənin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərərfindən etibarsız sayıldığı halda;
- lazimi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirdikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda məhkəmənin qərarı ilə.

Müəssisənin ləğvi qaydaları aşağıdakı kimidir:

1. Ləğvetmə kommisiyası müəssisənin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbuat orqanlarında onun ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında məlumat dərc etdirir. Bu müddət, ləğvetmə haqqında məlumatın dərc edildiyi gündən etibarən, iki aydan az ola bilməz.Ləğvetmə kommisiyası kreditorları aşkar etmək və debitor borcları almaq üçün tədbirlər görür, habelə müəssisənin ləğvi haqqında kreditorlara bildiriş göndərir.

2. Kreditorların tələblərinin irəli sürülməsi müddət qurtardıqdan sonra ləğvetmə komissiyası artıq ləğvetmə balansı tərtib edir. Balansa ləğv edilən müəssisənin əmlakının tərkibi, kreditorların irəli sürdükləri tələblərin siyahısı, habelə bu tələblərə baxılması nəticələri haqqında məlumatlar daxil edilir. Aralıq ləğvetmə balansını müəssisənin ləğvi haqqında qərar qəbul etmiş müəssisənin təsisçiləri və ya nizamnamə ilə buna vəkil olunmuş orqanı təsdiq edir.

3. Əgər ləğv edilən müəssisədə olan pul vəsaiti kreditorların tələblərini ödəmək üçün yetərli deyildirsə, ləğvetmə komissiyası müəssisənin əmlakını açıq hərracda satır.

4. Ləğv edilən müəssisənin kreditorlarına pul vəsaitini ləğvetmə kommisiyası aşağıda qeyd olunan növbəlik qaydasında, aralıq ləğvetmə balansına uyğun olaraq, onun təsdiq edildiyi gündən başlayaraq ödəyir.

Firmada istehsal prosesi və onun təşkili

1. İstehsal prosesinin mahiyyəti

2. İstehsal tsikli və onun təşkili

3. Firmada istehsal prosesinin təşkili prinsipləri

4. Firmada istehsalın təşkili formaları

1. İstehsal prosesinin elementlərindən-əmək vasitələri, əmək cisimləri və iş qüvvəsindən istifadə olunmasının təşkili vəziyyəti, nəticə etibarilə, müəssisə iqtisadiyyatının inkişaf imkanlarının səviyyəsini müəyyən edir.

İstehsal prosesi əsas, köməkçi və xidmətedici əmək və habelə təbii proseslərin məcmusu olub, onların qarşılıqlı təsiri və əlaqələri vasitəsilə xammal və materialın hazır məhsula çevrilməsi texnologiyasıdır. Başqa sözlə, müəssisənin istehsal prosesi əmək cisimlərinin (xammal, material və s.-nin hazır məhsula çevrilməsinə yönəldilmiş müxtəlif maşın və avadanlıqların vasitəsilə həyata

keçirilən texnoloji əməliyyatları özündə birləşdirir, onların məcmusudur. İstehsal prosesi məhsulun istehsalı ilə bağlı, insanların silahlandıqları texnika vasitəsilə əmək cisimlərinə yönəltdiyi məqsədyönlü, qarşılıqlı təsir və əlaqələri olan işlərin vəhdətidir. İstehsal prosesinin hər bir mərhələsi, məxsusi (yaxud xüsusi) proseslərdən ibarət olur. Xüsusi proseslər məhsul istehsalının müəyyən mərhələsinin bitkinliyi ilə xarakterizə olunur (məsələn, tökmə sexində-torpağın hazırlanması, formanın (qəlibin) qurulması, metalın əridilməsi, ərintinin qəliblərə tökülməsi vəs.). Xüsusi proseslər özü də texnoloji (əsas) və köməkçi əməliyyatlara bölünürlər.

Əməliyyat-istehsal prosesinin xüsusiləşdirilmiş tərkib hissəsi olmaqla-bir iş yerində bir və ya bir neçə işçi tərəfindən əmək predmeti (xammal, material, yarımfabrikat) üzərində ardıcıl yerinə yetirilən işlərin cəmindən ibarətdir.

Texnoloji baxımdan əməliyyatlar keçidlərə (fazalara) bölünürlər.

Keçidlər (fazalar)-istehsal prosesinin texnoloji baxımdan həmcins, təşkilati baxımdan ayrılmaz hissəsi olub, əmək predmetinin emalı üçün istifadə olunan istehsal komponentlərinin və avadanlıqların tərkibcə və habelə sonuncuların iş rejimlərinin sabitliyi ilə səciyyələnir.

Əməliyyatlar fəhlə əməyinin strukturu baxımından həm də fəndlərə və əməllərə bölünür.

Fənd, fəhlənin əməl fəndi-müəyyən məqsədli təyinatı olan və fəhlə tərəfindən yerinə yetirilən bitkin, tamamlanmış hərəkətlərin məcmusudur.

Əməl-fəndin bir hissəsi olmaqla fəhlənin özünün bir neçə fiziki hərəkətinin (bədən, əl, barmaq vəs.) və ya hərəkətlər kompleksinin hər hansı predmetingötürülməsi və ya onun yerinin dəyişdirilməsi ilə bağlı görülən işdir.

Məhsulun hazırlanması üzrə istehsal prosesi texnoloji (əsas) və köməkçi əməliyyatların və təbii proseslərin məcmusundan ibarətdir.

Əməliyyatların tempi və taktı istehsal prosesinin əsas parametrlərindəndir. Əməliyyatın tempi vaxt vahidi ərzində əməliyyata daxil olan (və ya əməliyyatdan çıxan) detalların sayını, takt isə materialın və ya materiallar partiyasının əməliyyatda qaldığı vaxtı özündə əks etdirir.

Məhsulun hazırlanmasındakı roluna görə də istehsal özü də əsas, köməkçi və xidmətedici istehsal proseslərinə ayrılır. Lakin xammal və materialın hazır məhsula çevrilməsi işində onların rolu eyni olmur.

Əsas (texnoloji) istehsal prosesi emal edilən məmulatın formasının, ölçülərinin və daxili strukturunun dəyişdirilməsi ilə bilavasitə əlaqədardır. Köməkçi və xidmətedici istehsal prosesləri məhsulun hazırlanmasında bilavasitə iştirak etmirlər, lakin əsas (texnoloji) prosesin yerinə yetirilməsinə şəraitin yaradılması onlar tərəfindən həyata keçirilir.

İstehsal prosesləri əmək predmetlərinə edilən təsirə görə mexaniki, fiziki, kimyəvi proseslərə bölünürlər. Mexaniki istehsal prosesləri zamanı əmək predmetinin forma və ölçüsünün dəyişməsi mexaniki güc vasitəsilə, fiziki və kimyəvi proseslər zamanı isə əmək predmetinin daxili quruluşundakı dəyişikliklər isə istiliyin, kimyəvi reaksiyaların və elektrik enerjisinin təsirləri altında baş verir.

Fəhlələrin istehsal prosesində iştirakı miqyasından asılı olaraq onlar sırf əl əməyinə əsaslanan, qismən və tam mexanikləşdirilmiş və avtomatlaşdırılmış proseslərə ayrılır. Əl əməyinə əsaslanan istehsalda işlər maşın və mexanizmlərin köməyi olmadan yerinə yetirilir; qismən mexanikləşdirilmiş istehsallarda ayrı-ayrı əməliyyatlar, xüsusilə əsas istehsal proseslərində əl əməyi maşın və mexanizmlərlə əvəz olunur; tam mexanikləşdirilmiş istehsallarda maşın və mexanizmlərin idarə edilməsi istisna olunmaqla-bütün istehsal əməliyyatları qarşılıqlı şəkildə əlaqələndirilmiş maşın və mexanizmlər vasitəsilə yerinə yetirilir; avtomatlaşdırılmış istehsallarda bütün istehsal prosesinin, o cümlədən maşın və mexanizmlərinin idarə edilməsi işçilərin bilavasitə iştirakı olmadan, lakin onların nəzarəti ilə maşınlar tərəfindən yerinə yetirilir. Burada maşınları maşınlar idarə edir.

İstehsalın təşkili tipinə görə istehsal prosesləri fərdi, seriyalı və kütləvi istehsal proseslərinə bölünürlər. İstehsal proseslərinin bu və ya digər tipə aid olunması məhsul buraxılışının kütləvilik dərəcəsi göstəricisi vasitəsilə müəyyən edilir. İstehsalın tipini xarakterizə edən əsas göstərici əməliyyatların təhkim olunma əmsalıdır. Bu göstərici müəyyən vaxt vahidi ərzində yerinə yetirilən və ya yetirilməli olan müxtəlif texnoloji əməliyyatların iş yerlərinin sayına nisbəti kimi müəyyən edilir.

Fərdi istehsal təkrar istehsalı, əsasən nəzərdə tutulmayan bircinsli məmulatların buraxılışının kiçik həcmi ilə xarakterizə olunur. Fərdi istehsalda təhkimetmə əmsalı adətən 40-dan yüksək olur, iş yerləri az əməliyyatlar isə çox olurlar. **Seriyalı istehsal** dövrü olaraq istehsalı vaxtaşırı təkrar edilən, fərdi deyil, müəyyən partiyalarla məhsul istehsalı ilə xarakterizə olunur. Partiyadakı, məmulatların sayından və təhkimetmə əmsalının qiymətindən asılı olaraq seriyalı istehsal özü də, kiçik, orta və iri seriyalı istehsallara bölünür. **Kütləvi istehsal** uzun müddət ərzində fasiləsiz istehsal edilən məmulat buraxılışının böyük həcmi ilə

xarakterizə olunur ki, bu zaman hər bir iş yerində yalnız bir əməliyyat yerinə yetirilir və elə buna görə də kütləvi istehsal üçün əməliyyatların təhkimetmə əmsalı 1-dən çox olmur.

2. İstehsal tsikli-xammal və materialların istehsal prosesinin ilk əməliyyatına daxil olduğu andan hazır məhsulun alınmasına qədər sərf olunan təqvim vaxtını əks etdirir. İstehsal tsiklinin əsasında müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin bir sıra vacib texniki-iqtisadi və iqtisadi göstəriciləri hesablanır. İstehsal tsiklinə məhsulun hazırlanması üzrə əməliyyatların yerinə yetirilməsi ilə bağlı və fasilələri əhatə edən vaxtlar aiddir.

İstehsal prosesindəki fasilələr müəssisədə müəyyən edilmiş iş rejimi ilə əlaqədar və təşkilati-texniki səbəblərlə şərtlənən boşdayanmalar nəticəsində yaranır. Müəssisədə müəyyən edilmiş iş rejimi ilə əlaqədar fasilələrə qeyri-iş günləri və növbələri, növbələrarası və nahar fasilələri, işçilərin istirahəti ilə əlaqədar növbədaxili reqlamentləşdirilmiş fasilələr və s. aiddirlər. Təşkilati-texniki səbəblərlə şərtlənən fasilələrə isə müxtəlif iş yerlərində iş ritmlərinin fərqli olması, xammal və materialların, enerjinin və s.-nin olmaması ilə əlaqədar boşdayanmalar daxil edilir. Qeyd etmək lazımdır ki, istehsal tsiklinə müxtəlif səbəbdən baş verən boşdayanmalar deyil, müəssisədə müəyyən edilmiş iş rejimi ilə əlaqədar fasilələr aid olunur.

Əvvəllər qeyd olunduğu kimi, istehsal tsikli xammal və materialların əsas istehsala buraxılmasından hazır məhsulun alınmasına qədər istehsalda qaldığı təqvim iş vaxtını ($T_{i.t}$) əhatə edir və aşağıdakı kimi hesablanır:

$$\mathbf{T_{i.t} = \sum T_{tex} + \sum T_{təb} + \sum T_{n} + \sum T_{nəq} + \sum T_{əa} + \sum T_{na}}$$

Burada, $\sum \mathbf{T_{tex}}$, $\sum \mathbf{T_{təb}}$, $\sum \mathbf{T_{n}}$, $\sum \mathbf{T_{nəq}}$-müvafiq olaraq texnoloji, təbii, nəzarət və nəqletmə əməliyyatlarının yerinə yetirilməsinə sərf olunan vaxtlardır;

$\sum \mathbf{T_{əa}}$-əməliyyatlararası fasilə vaxtı;

$\sum \mathbf{T_{na}}$-növbələrarası fasilə vaxtı.

İstehsal tsiklinin ayrı-ayrı vaxt ünsürlərinin onun ümumi uzunluğunda xüsusi çəkisi istehsal tsiklinin strukturunu əmələ gətirir.

İstehsal prosesləri nə qədər sürətlə baş verirsə, yəni istehsal tsikli nə qədər qısadırsa, dövriyyə fondlarının dövretmə sürəti bir o qədər yüksək olar. Nəticədə,

müəyyən həcmdə dövriyyə fondu təsərrüfat dövriyyəsindən azad olur ki, bu da müəssisədə istehsalın genişləndirilməsi üçün istifadə edilə və eyni zamanda bitməmiş istehsalın həcmi azala bilər.

3. Firmada istehsal prosesinin təşkili istehsal amilindən: iş qüvvəsi, əmək predmetləri və əmək vasitələrindən səmərəli istifadəni təmin etmək məqsədilə onların zaman və məkan baxımından düzgün əlaqələndirilməsinə yönəldilmiş texniki-təşkilati tədbirlər kompleksi nəzərdə tutulur.

İstehsal prosesinin təşkili müəyyən prinsiplərə söykənir və onlar aşağıdakılardır:

- **ixtisaslaşma prinsipi**-müəssisənin ayrı-ayrı bölmələri və iş yerləri arasında əməyin peşələrə görə düzgün bölgüsünü və onların kooperasiyasını əks etdirir;

- **paralellik prinsipi**-müəyyən məhsulun istehsalı ilə əlaqədar istehsal prosesinin ayrı-ayrı mərhələlərinin eyni zaman kəsiyində həyata keçirilməsini nəzərdə tutulur;

- **mütənasiblik prinsipi**-müəssisənin qarşılıqlı əlaqəli və biri-birindən asılı olan bölmələrinin vaxt vahidi ərzində mümkün olan bərabər məhsuldarlığını nəzərdə tutur;

- **düzxətlilik prinsipi**-xammal, material və ya yarımfabrikatın istehsala buraxılıb hazır məhsul alınana qədər onların ən qısa yolunun təmin edilməsinə əsaslanır;

- **fasiləsizlik prinsipi**-əməliyyatlararası fasilələrin maksimum ixtisar edilməsini nəzərdə tutur;

- **ahəngdarlıq prinsipi**- müəyyən miqdar məhsulun hazırlanması üzrə istehsal prosesi və onu təşkil edən ayrı-ayrı tərkib hissələrinin eyni vaxtdan bir təkrar olunmasına əsaslanır.

Müəssisədə istehsalın səmərəli təşkilini müəyyən edən amillər içərisində prioritet göstəricilərdən biri də iş yerinin təşkilinin necəliyidir. Fəhlənin iş yeri elə təşkil olunmalıdır ki, o, (fəhlə) özünün əqli və fiziki imkanlarını tam gerçəkləşdirə bilsin. Bunun üçün, ilk əvvəl, fəhlənin növbə ərzində istifadə edəcəyi texniki vasitələr onun “əlinin altında” olmalıdır; fəhlənin işlədiyi mühit komfort səviyyəsinə çatdırılmalıdır, onun ətrafında səs, toz, isti, buxar, işıq, rütubət, qaz və s. bu kimi orqanizm üçün ziyanlı olan xarici təsirlər normanı keçməməli, minimum səviyyədə olmalıdır.

4. Firmada istehsalın təşkili formaları istehsal prosesinin elementlərinin arasında zaman və məkan baxımından yaranan sabit əlaqələr sisteminin müxtəlifliyini ifadə edir. Müxtəlif zaman və məkan strukturuna malik sistemlər istehsalın müxtəlif təşkili formalarını əmələ gətirir. Bunlara texnoloji, predmet, düzxətli, fərdi və qarışıq formalar aiddir.

İstehsal prosesinin təşkilinin texnoloji forması predmetlərinin ardıcıl verilməsinə əsaslanan sex strukturları ilə xarakterizə olunur. Bu forma texnoloji prosesdə dəyişikliklərin baş verdiyi xırda seriyalı istehsallarda daha səmərəlidir.

İstehsalın təşkilinin predmet forması xammal və materialın istehsala verilməsinin paralel-ardıcıl ötürülməsi ilə qarışıq məkan strukturuna əsaslanır. Predmet strukturuna əsaslanan istehsal sahəsində texnoloji prosesin əvvəlindən axırına qədər detallar qrupunun emalı üçün zəruri olan bütün avadanlıqlar quraşdırılır.

İstehsalın təşkilinin düzxətli forması əmək predmetlərinin texnoloji prosesə ardıcıl verilməsi əsasında xətti strukturla xarakterizə olunur. İstehsalın təşkilinin bu forması ixtisaslaşma, düzxətlilik, fasiləsizlik, paralellik kimi prinsiplərə riayət olunmasını təmin etməyə imkan verir.

İstehsalın təşkilinin fərdi formasında əməliyyatlar bütövlükdə bir iş yerində yerinə yetirilir. Məmulat onun istehsalı ilə əlaqədar olan əməliyyatların əsas hissəsi toplandığı yerdə hazırlanır. Bu formaya misal olaraq, məmulatın fəhlələr tərəfindən onun ətrafında hərəkəti ilə qurqşdırılmasını göstərmək olar.

İstehsalın təşkilinin qarışıq forması materialların istehsala ardıcıl, paralel və ya qarışıq şəkildə verilməsi ilə qarışıq və ya xətti struktura əsaslanan əsas və köməkçi əməliyyatların vahid istehsal prosesində birləşməsinə əsaslanır. İstehsalın təşkilinin qarışıq (birləşdirilmiş) formasında sahələrdə emaletmə, nəqletmə, anbarlaşdırma və idarəetmə vahid istehsal prosesində birləşdirilir və bütün bu işlər koordinasiya edilir.

Fərdi istehsal şəraitində istehsalın təşkilinin özünəməxsus xüsusiyyətləri vardır. Bu istehsal tipində detallar, onların emalının üsulları müxtəlif olduğundan istehsal sahələri eyni təyinatdan olan avadanlıqların qruplar halında yerləşdirilməsinə əsaslanan texnoloji prinsip üzrə qurulur. İstehsalın bu cür təşkilində detallar hazırlanma prosesində müxtəlif istehsal sahələrindən keçirlər. Buna görə də, detalların istehsal sahəsinə (əməliyyatı həyata keçirmək üçün) verilməsi zamanı onların emalının keyfiyyətinə nəzarətin həyata keçirilməsi, nəqledilməsi , əməliyyatları yerinə yetirmək üçün iş yerlərinin müəyyən olunması məsələləri dəqiq müəyyənləşdirilməlidir.

Seriyalı istehsal şəraitində istehsalın təşkilinin bu və ya digər formasının tətbiqi istehsal sahəsinə təhkim edilmiş məmulatların əməktutumundan və buraxılış həcmindən asılı olur. Məsələn, böyük miqdarda hazırlanan və oxşar texnoloji prosesə malik iri, əməktutumlu detallar dəyişən axınlı istehsalın təşkili ilə bir istehsal sahəsinə təhkim edilir.

Kütləvi istehsal şəraitində işləyən müəssisələrdə sexlər istehsalı tam avtomatlaşdırmağa imkan verən daha mütərəqqi avadanlıqlarla təchiz edilir və belə müəssisələrdə avtomatlaşdırılmış axın xətlərinin tətbiqi geniş yayılmışdır. Kütləvi istehsal şəraitində mexaniki emalın texnoloji prosesləri üzrə keçidləri daha dəqiq hazırlanır.

İstehsal firmasında təmərküzləşdirilmə və müəssisənin optimal ölçüsü

1. İstehsalın təmərküzləşdirilməsinin mahiyyəti və formaları

2. İstehsalın təmərküzləşdirilmə səviyyəsinin göstəriciləri

3. Müəssisənin optimal ölçüsü və onu müəyyən edən amillər

1. İstehsalın ictimailəşməsi və əməyin bölgüsü öz əksini müəssisələrin iriləşməsində-istehsalın təmərküzləşməsində; əmək bölgüsünün dərinləşməsində-ixtisaslaşma və kooperativləşmədə; texnoloji cəhətdən müxtəlif istehsalların bir müəssisədə uzlaşdırılmasında-kombinələşmədə tapır.

İstehsalın təmərküzləşməsi-məhsul istehsalının-daha iri müəssisələrdə toplanması prosesidir. İstehsalın təmərküzləşməsi, ixtisaslaşması, kooperativləşməsi və kombinələşməsi arasında sıx əlaqələr vardır. İstehsalın təmərküzləşməsi istehsalın ictimai təşkili formaları içərisində ən mürəkkəbidir, onun inkişafı digər formalarda da dəyişikliklərə səbəb olur. O, istehsalın ixtisaslaşması üçün əsas yaradır, onun inkişaf tempini və səviyyəsini müəyyən edir. Təmərküzləşmə prosesinin mahiyyəti iqtisadiyyatın sahələrində məhsul istehsalı üzrə iri müəssisələrin xüsusi çəkilərinin mütəmadi artması ilə səciyyələnir.

Sahənin ümumi istehsalında iri müəssisələrin payının artmasına nisbi təmərküzləşmə deyilir. Təmərküzləşmə mütləq mənada da arta bilər. Belə halda sahəyə daxil olan müəssisələrin ölçüləri artır.

Təmərküzləşmə prosesinin birinci cəhəti (nisbi) müəssisələr arasında ümumi məhsul istehsalının bölüşdürülməsi ilə əlaqədardırsa, ikincisi-istehsal müəssisələrinin özlərinin ölçülərinin (mütləq) dəyişməsilə bağlıdır.

Təmərküzləşmənin aqreqat, istehsal-texniki və texnoloji formaları mövcuddur ki, bunlar da intensiv və ekstensiv yolla inkişaf etmiş və formalaşmışlar.

Aqreqat təmərküzləşməsi elmi-texniki tərəqqinin mövcud inkişaf səviyyəsi, aqreqat və avadanlıqların texnoloji strukturunda daha güclülərin, məhsuldarlığı yüksək olanların payının artması və onların daha böyük xüsusi çəkiyə malik olmaları ilə xarakterizə edilir. Bu təmərküzləşmə forması bilavasitə elmi-texniki tərəqqini əks etdirir və yalnız intensiv yolla inkişaf edir.

Təmərküzləşdirmənin istehsal-texniki forması qurulmuş avadanlıqların sayca çoxaldılması yolu ilə baş verir. Bu o deməkdir ki, təmərküzləşdirmənin bu forması yalnız ekstensiv yolla həyata keçirilir.

Texnoloji təmərküzləşdirmə aqreqat və istehsal-texniki təmərküzləşdirmə formalarını özündə əks etdirir. Başqa sözlə, təmərküzləşdirmənin bu formasında qurulmuş avadanlıqların sayca çoxaldılması onlardan hər birinin gücünün artırılması ilə eyni zamanda baş verir.

Müəssisədə istehsalın təmərküzləşdirilməsi aşağıdakı istiqamətdə həyata keçirilə bilər:

- ixtisaslaşdırılmış istehsalın təmərküzləşməsi;
- kombinələşmiş istehsalların təmərküzləşməsi;
- universal müəssisələrin ölçülərinin artması.

Bu istiqamətlər içərisində ən səmərəlisi birincisidir. Həmcins məhsullar istehsalının daha iri müəssisələrdə cəmləşməsi yüksək məhsuldar və ixtisaslaşmış avadanlıqlardan, avtomatlaşdırılmış axın xətlərindən, istehsalın təşkilinin mütərəqqi metodlarından istifadə etməyə imkan verir.

Təmərküzləşmənin ikinci istiqaməti də səmərəlidir. Bu istiqamət texnoloji prosesin yerinə yetirilməsinin ardıcıllığını, xammalın kompleks emalını, aralıq məhsul və tullantılardan istifadə etməyi, ətraf mühitin çirklənməsinin azalmasını təmin edir.

Ən səmərəsiz variant üçüncü istiqamətdir. Bu istiqamətdə istehsalın təmərküzləşməsi nə istehsal proseslərinin oxşarlığına və ardıcıllığına, nə də xammalın kompleks emalına əsaslanır. Universal tipli müəssisələr bir-birilə az əlaqəli istehsalları birləşdirir.

2. İstehsalın təmərküzləşməsinin inkişafı səviyyəsini və dinamikasını öyrənmək üçün 2 qrup göstəricilərdən istifadə olunur.

Birinci qrup göstəricilərin köməyilə təmərküzləşmə səviyyəsini sahəyə daxil olan müəssisələrin orta ölçüsü kimi öyrənir, təhlil edir və qiymətləndirirlər.

İkinci qrup göstəricilər təmərküzləşmə səviyyəsini sahənin ümumi məhsulunun müxtəlif ölçülü müəssisələr arasında bölgüsü və ölçü qrupu müəssisələrinin ümumi istehsaldakı payı vasitəsilə müəyyən olunur.

Birinci qrup göstəricilər əsasən mütləq təmərküzləşməni, ikinci qrup göstəricilər isə nisbi təmərküzləşməni səciyyələndirirlər. Mütləq təmərküzləşmənin səviyyəsi aqreqatların, istehsalların və müəssisələrin maksimal və orta ölçülərini,

nisbi təmərküzləşmənin səviyyəsi isə müxtəlif ölçülü aqreqat, istehsallar və müəssisə qrupları arasında sahənin ümumi həcminin bölgüsünü əks etdirir.

Təmərküzləşmənin vəziyyətini və dinamikasını öyrənmək üçün natural və dəyər ölçüsündə məhsul istehsalının həcmi, sənaye-istehsal heyətinin orta illik sayı, istehsal əsas fondlarının orta illik dəyəri, energetika avadanlıqlarının orta illik güçü və s. göstəricilərdən istifadə olunur.

Təmərküzləşmə səviyyəsini öyrənmək üçün istifadə edilən göstəricilərdən biri də "sənaye-istehsal heyətinin orta illik sayı" göstəricisidir. Lakin bu göstərici ilə təmərküzləşmənin səviyyəsini qiymətləndirmək əməyin texnika ilə silahlılığı səviyyəsindən asılıdır və həmin göstəricinin səviyyəsi də ayrı-ayrı müəssisələrdə müxtəlif olur. Buna görə də istehsal prosesinin mexanikləşdirmə və avtomatlaşdırılma dərəcəsi yüksək olan iri müəssisənin, əməyin texniki silahlılığı aşağı olan nisbətən kiçik müəssisə ilə müqayisədə təmərküzləşmə səviyyəsi aşağı qiymətləndirilə bilər. Təmərküzləşmə səviyyəsini müəyyən etmək üçün istehsal əsas fondlarının orta illik dəyərindən, maşın və avadanlıqların, əsas aqreqatların sayı və gücü göstəricilərindən istifadə etmək məqsədəuyğundur.

İstehsal əsas fondlarının orta illik dəyər göstəricisi təmərküzləşmə səviyyəsini və dinamikasını daha düzgün əks etdirir.

Bəzən təmərküzləşmə səviyyəsini xarakterizə etmək üçün texnoloji prosesə sərf edilən enerji gücünün kəmiyyətindən istifadə edirlər.

3. Firmanın böyüməsinin başlıca mənbəyini istehsalın miqyasca artımından əldə olunan qənaət təşkil edir. Lakin istehsal prosesinin xüsusiyyətlərindən, istehsal olunan məhsulun həcmindən, müasir elmi-texniki tərəqqinin tələblərindən və s. asılı olaraq, ayrı-ayrı sahələrin bu qənaəti reallaşdırmaq imkanı müxtəlif olur. Buna görə də müxtəlif sənaye sahələrində firma və müəssisələrin müxtəlif ölçü strukturları formalaşır.

Yeni iqtisadi sistemə keçidlə əlaqədar olaraq istehsal firmaları və müəssisələrin optimal ölçüsü problemi yenidən, həm də daha aktual məzmunda meydana çıxır. Başqa sözlə, bu problemin həlli əvvəlkindən fərqli, yeni yanaşma tərzi tələb edir. Məsələnin bir-birilə sıx qarşılıqlı əlaqəda olan iki tərəfi ön plana keçir:

a) firmanın daha yüksək son nəticə əldə etməyinə imkan verən ölçüsünün seçilməsi üçün əsas götürüləcək texniki, iqtisadi, sosial və s. amillərin müəyyənləşdirilməsi;

b) sənayedə, onun ayrı-ayrı sahələrində, hətta ayrı-ayrı bölgələrdə firma və müəssisələrin optimal təsərrüfat əlaqələrinin müəyyənləşdirilməsi. Bu cür optimallaşdırma meyli bütün inkişaf etmiş ölkələr, o cümlədən elmi-texniki tərəqqinin ən yüksək templərinə malik ölkələr üçün səciyyəvidir.

Təmərküzləşmənin iqtisadi baxımdan məqsədəuyğunluq sərhədini müəyyən etmək üçün firma və müəssisənin elmi-texniki cəhətdən əsaslandırılmış optimal ölçüsü tam dəqiqliklə müəyyən olunmalıdır. Ümumi nəzəri baxımdan firma və müəssisənin optimal ölçüsü az xərclə daha yüksək təsərrüfat nəticələrinə nail olunan həddir. Firmanın optimal ölçüsü müəyyən edilərkən həm onun daxili mühitinin və həm də onun xarici mühitinin yaratdığı amillərin təsiri nəzərə alınmalıdır.

Müəssisənin istər maksimum yol verilə bilən və istərsə də optimal ölçüsünə, başqa sözlə, təmərküzləşmə səviyyəsinə bir sıra xarici amillər də təsir göstərirlər. Bunlara xammal və nəqliyyat amillərini, demoqrafik vəziyyəti (əmək ehtiyatlarının mövcudluğu), iqtisadi-coğrafi amilləri (su təchizatı), regionun mənimsənilmə vəziyyəti, sosial infrastrukturun inkişaf səviyyəsi, ekoloji vəziyyət, vaxt amili, digər bu qəbildən olan amillər aiddir.

Hər bir konkret sahədə kiçik müəssisələrin yerinə yetirdikləri funksiyalardan asılı olaraq onların başqa müəssisələrlə əlaqələri formalaşır. Müxtəlif ölçülü müəssisələrin səmərəli uzlaşdırılması iki formada təşkil oluna bilər:

1. **Şaquli əlaqələr.** Bu xüsusilə, maşınqayırma sənayesi üçün daha xarakterikdir. Yəni burada kiçik müəssisələr iri müəssisələrin sifarişlərini yerinə yetirərək onlar üçün aralıq məhsulları, hissələr, tərtibatlar, alətlər və s. istehsal edirlər. İri müəssisələr isə son hazır məhsulun yığılması və buraxılışı əməliyyatlarını həyata keçirirlər. Bu halda kiçik müəssisələrin istehsal proqramı həmin iri müəssisələrin sufariş portfeli əsasında formalaşır. Belə kiçik müəssisələr həm sərbəst, həm də baş müəssisənin tərkibində fəaliyyət göstərə bilərlər.

2. **Üfiqi əlaqələr.** Bu, son hazır məhsulun istehsalı ilə məşğul olan müxtəlif ölçülü müstəqil müəssisələr arasında yaranır. Belə əlaqələrə daxil olmaqda hər bir müəssisə sərbəstdir və bu, həmin müəssisələrin təsərrüfat müstəqilliklərinə ciddi ziyan gətirmir. Belə əlaqələr, adətən, bu və ya digər istiqamətdə həmin qrup müəssisələr üçün daha əlverişli xarici iqtisadi münasibətlər mühiti yaratmaq üçün qurulur.

İstehsalın təmərküzləşdirilməsinin iqtisadi səmərəliliyi öz əksini firma və müəssisənin ölçülərinin artması nəticəsində istehsalın texniki-iqtisadi göstəricilərinin yaxşılaşmasında tapır.

İri müəssisələr səmərəlilik baxımından bir çox üstünlüklərə malik olur ki, bunları şərtləndirən amillər aşağıdakılardır:

1. İri müəssisələrdə daha güclü və məhsuldarlığı yüksək olan avadanlıqlar tətbiq etmək mümkündür. Avadanlığın fərdi gücünün artırılması həmişə texnoloji proseslərin intensivləşdirilməsi ilə müşayət olunur, çünki avadanlığın çəkisi və qabariti onun gücünə nisbətən az artır (“Gücdə tərəqqi-çəkidə tənəzzül”). Bu baxımdan, daha güclü avadanlığın güc vahidi nisbətən ucuz başa gəlir.

İri istehsallarda istehsalın və əməyin mütərəqqi təşkili formalarına keçmək daha asan olur. İri istehsallarda məhsul buraxılışının kütləvilik səviyyəsi yüksək olduğundan, burada ixtisaslaşmış (xüsusi) avadanlıqların, axın xətlərinin tətbiqinə, avtomatlaşdırma və kompleks mexanikləşdirmə işinin həyata keçirilməsinə şərait yaranır; müəssisənin bütün texniki-iqtisadi və iqtisadi göstəriciləri yaxşılaşır.

İstehsalın həcmcə artımına nisbətən qeyri-mütənasib artan xərclər-binaların qızdırılması və işıqlandırılmasına enerji sərfi, inzibati-idarə heyətinin əmək haqqı və s. azaldığından iri istehsalda hazırlanan məhsulun maya dəyəri kiçik istehsallara nisbətən aşağı səviyyədə olur.

Qeyd etmək lazımdır ki, təmərküzləşmənin iqtisadi üstünlükləri aqreqat təmərküzləşmə forması üçün daha səciyyəvidir.

İstehsal firmasında ixtisaslaşdırma, kooperasiyalaşdırma və kombinələşdirmə

1.İxtisaslaşdırmanın mahiyyəti, formaları və onun səviyyəsini müəyyən edən göstəricilər

2. Kooperasiyalaşmanın mahiyyəti, formaları və onun səviyyəsini müəyyən edən göstəricilər

3. İstehsal firmasında kombinələşdirmə

1. Əmək bölgüsü əmək fəaliyyətinin ixtisaslaşması ilə əlaqədar olub, onun növlərə ayrılması, lakin birgə, mövcud qarşılıqlı əlaqə və asılılıqda qalması ilə nəticələnən ictimai-iqtisadi prosesdir. Əmək bölgüsü texniki və ictimai əmək bölgüsü kimi iki qrupq bölünür.

Texniki əmək bölgüsü-müəssisə miqyasında istifadə olunan insane əməyinin, tətbiq edilən texnikanın xüsusiyyətləri əsasında bir sıra funksiya və əməliyyatlar üzrə öz tərkib hissələrinə parçalanmasıdır.

İctimai əmək bölgüsünün özünün 3 forması bir-birindən fərqləndirilir:

- **ümumi əmək bölgüsü** iqtisadiyyatın iri sahələrə-sənaye, kənd təsərrüfatı, nəqliyyat və s. bu kimi sahələrə bölünməsində təzahür edir;

- **xüsusi əmək bölgüsü** özünü sənayenin, kənd təsərrüfatının və başqa sahələrin daxilində müxtəlif müstəqil sahələrin (alt sahələrin) əmələ gəlməsində göstərir;

- **fərdi əmək bölgüsü** bilavasitə müəssisə miqyasında baş verdiyindən onu istehsal fəaliyyətinin müxtəlif növləri üzrə tərkib hissələrinə-sex və istehsal sahələrinə ayırmışdır.

Beləliklə, əmək bölgüsünün inkişafı və dərinləşməsi bir neçə səviyyədə-ölkə, sahə, müəssisə və müəssisə daxilində baş verə bilər.

Sahə üzrə ixtisaslaşma-ictimai və ya şəxsi tələbatı ödəmək üçün məhdud nomenklaturad məhsul istehsalının nisbətən uzun dövr üçün hazırlanmasını təmin

etmək məqsədilə bu işə hər hansı sahənin uyğunlaşdırılması, daha doğrusu, təhkim olunması deməkdir.

Müəssisə miqyasında ixtisaslaşma isə-özünün konstruktiv quruluşuna, hazırlanma texnologiyasına görə analoq təşkil edən, tətbiq sahəsi məhdud olan, istehsalı uzun dövr üçün təkrarlanan məhsul istehsalının bir müəssisədə təmərküzləşməsidir.

Müəssisədaxili ixtisaslaşdırma müəyyən texnoloji əməliyyatların yerinə yetirilməsi üçün onların sex, istehsal sahəsi və iş yerləri arasında bölüşdürülərək cəmləşdirilməsidir.

Müəssisələr üzrə istehsalın ixtisaslaşdırılmasının əşya, hissə və texnoloji ixtisaslaşma formaları vardır. İxtisaslaşdırmanın əşya forması bilavasitə istehlakçıya çatan hazır məhsul istehsalının bu və ya digər bir müəssisədə cəmləşdirilməsi deməkdir. Hissələr üzrə ixtisaslaşma forması sonradan istehsalda istifadə edilmək və hazır məhsulu dəstləşdirmək məqsədilə onun ayrı-ayrı hissələrinin buraxılışının bu və ya digər bir müəssisədə təmərküzləşdirilməsi ilə səciyyələnir. Texnologiya üzrə və ya mərhələlər üzrə ixtisaslaşdırma forması bu və ya digər müəssisənin əmək predmetinin emalı mərhələlərindən birinin yerinə yetirilməsinə cəlb edilməsini səciyyələndirir.

İstehsalın ixtisaslaşdırılmasının dərinləşməsi, bütöv bir istehsalın öz tərkib hissələrinə parçalanaraq müstəqilləşməsi, onlardan hər birinin ayrılıqda təsərrüfat nəticələrini yaxşılaşdırsa da, onları bir-birindən asılı edir, bunların, ayrılıqda olsa da ümumi məqsədə çatmaq üçün səylərinin birləşdirilməsinə obyektiv ehtiyac yaradır. İxtisaslaşdırmanın dərinləşməsi eyni bir məhsul istehsalının iştirakçıları arasında təsərrüfat əlaqələrinin yaranmasını tələb edir ki, buna da istehsalın kooperasiyalaşması deyilir.

2. Kooperasiyalaşma müəyyən bir məhsulun birgə istehsalı ilə məşğul olan müəssisələr arasındakı uzunmüddətli təsərrüfat əlaqələri formasıdır.

Kooperasiyalaşdırma prosesi aşağıdakıları özündə əks etdirir:

- müəyyən istehsalın tələbatları üçün dəstləşdirici məmulatların və yarımfabrikatların göndərilməsi (istehsalı) və xidmətlərin yerinə yetirilməsini;
- məlum məhsulun müəyyən alıcıları ilə təchizatçının əlaqələrini;
- təchizatçının məhsul istehsal edən və yarımfabrikatı formalaşdırmaqda davam edən müəyyən istehlakçılar üçün yerinə yetirdiyi işini.

İxtisaslaşdırma istiqamətlərinə müvafiq olaraq kooperasiyalaşdırmanın aşağıdakı formaları fərqləndirilir:

Aqreqat üzrə kooperativləşdirmə. Kooperativləşdirmənin aqreqat növündən texniki səviyyəsinə və konstruktiv quruluşuna görə mürəkkəb məhsul istehsalı ilə məşğul olan baş zavod kooperasiyaya daxil olan (əlaqədar) zavodlardan elektrik mühərrikləri, generatorlar, reduktorlar, nasoslar, kompressorlar və s. kimi

aqreqatlar almaqla hazır məhsulun istehsalını tamamlayırlar, onu bir növ dəstləşdirirlər.

Hissələr üzrə kooperativləşdirmə. Kooperativləşdirmənin bu növündə son hazır məhsulun istehsalı üzrə ixtisaslaşdırılmış baş müəssisə əlaqədar firmalardan hissə və qovşaqlar almaqla məhsulun istehsalı işini tamamlayır. Buna misal olaraq maşınqayırma sənayesində baş zavodların kooperasiyaya daxil olmuş müəssisələrdən porşen, radiator, diyircəkli yastıq, bolt, qayka almasını və yaxud ixtisaslaşdırılmış baş kimya sənaye müəssisələrinin digər əlaqədar müəssisələrdən plastik kütlə, texniki rezin, asbest və s. məmulatların almasını misal göstərmək olar.

Texnoloji mərhələlər üzrə kooperativləşdirmə. Kooperativləşdirmənin bu növündə bir müəssisə digərinə müəyyən yarımfabrikatlar göndərir və ya onun üçün məhsul istehsalı texnologiyasının müəyyən bir mərhələsinin icrasını həyata keçirir. Buna misal olaraq, bir müəssisənin dgərinə döymə, tökmə, ştamplama məmulatı, metal konstruksiyalar göndərilməsini göstərmək olar. Əyrilmiş yunun toxucu fabrikinə verilməsi texnoloji mərhələ üzrə kooperativləşmə üçün misal ola bilər.

İstehsalın ixtisaslaşma və kooperasiyalaşma səviyyəsini təhlil etmək və qiymətləndirmək üçün müəyyən göstəricilər sistemindən istifadə edilir. Göstəricilər sistemi ixtisaslaşdırm aprosesinin aşağıdakı başlıca cəhətlərini özündə əks etdirməli və ya qiymətləndirməlidir: əmək bölgüsünün səviyyəsini, yəni sitehsalın ixtisaslaşdırma formasını; məhsulun sahənin və ya müəssisənin istehsal prosesinə uyğun gəlməsi dərəcəsini; məhsulun nomenklaturası və ya çeşidinin genişliyini; məhsulun konstruktiv-texnoloji cəhətdən ümumiliyini; texnoloji cəhətdən yekcins məhsulların istehsalının təmərküzləşmə və optimallıq səviyyəsini və başqalarını.

İstehsalın ixtisaslaşma səviyyəsini qiymətləndirərkən aşağıdakı göstəricilər sistemi tətbiq edilir:

- müəyyən növ məhsulun ümumi buraxılışında ixtisaslaşdırılmış sahənin xüsusi çəkisi, “əhatəetmə əmsalı” adlanan əmsal. “Əhatəetmə əmsalı” göstəricisi bu və ya digər sahənin formalaşması prosesini və iqtisadi inkişaf səviyyəsini səciyyələndirir və ölkədəki ümumi istehsalın həcmində ixtisaslaşdırılmış müəssisələr tərəfindən buraxılan məhsulun həcminin xüsusi çəkisi kimi hesablanır;

- sahənin və ya müəssisənin ümumi məhsul buraxılışında əsas (profil) məhsulun xüsusi çəkisi, “sahə” və ya “müəssisə ixtisaslaşdırılması əmsalı” adlanan əmsal. Müəssisənin əsas (profil) məhsulu onun profilinə, yəni mövcud avadanlıqların, texnoloji prosesin və kadrların ixtisaslaşması xarakterinə uyğun olan konstruktiv və texnoloji cəhətdən yekcins məhsuldur.

Müəssisədaxili ixtisaslaşma səviyyəsi aşağıdakı göstəricilər vasitəsilə öyrənilir və təhlil edilir:

a) ixtisaslaşdırılmış sex və sahələrin xüsusi çəkisi;

b) bir iş yerinə düşən hissə-əməliyyatların sayı;

c) əməliyyatların təhkimolunma əmsalı.

n-birnövbəli iş rejimində işə çıxmış fəhlələrin və ya iş yerlərinin sayıdır.

Müəssisənin ixtisaslaşma səviyyəsini daha tam xarakterizə etmək üçün istehsalın texniki və təşkilati səviyyəsini əks etdirən əlavə göstəricilərdən də istifadə edilə bilər. Bu göstəricilərə aşağıdakılar aiddir: hazırlanan məhsulun seriyalılığı və kütləvilik səviyyəsi; buraxılan məhsulda standartlaşdırılmış, normallaşdırılmış və eyniləşdirilmiş hissə, qovşaq və ya aqreqatların xüsusi çəkisi; ümumi avadanlıqlar parkında avtomat və xüsusi avadanlıqların payı vəs. İstehsalın ixtisaslaşdırılmasının iqtisadi səmərəliliyinin əsas göstəricilərinə: məhsul istehsalına, cari məsrəflərə və onun istehlakçılara çatdırılmasına çəkilən nəqliyyat xərclərinə qənaət; əsaslı vəsait qoyuluşlarına qənaət və onların ödəmə mddəti; istehsalın ixtisaslaşdırılmasından əldə edilən illik iqtisadi səmərə və s. aiddir.

İstehsalın ixtisaslaşdırılmasına dair tədbirlərin həyata keçirilməsi ilə əlaqədar investisiya layihəsinin əlverişli variantının seçilməsində investisiyanın səmərəliliyinin qiymətləndirilməsinin standart metodlarından istiadə olunur. Bunlara, əsasən cari xalis dəyər və daxili rentabellik norması göstəriciləri aiddir.

Bir çox sənaye sahələri üçün səciyyəvi olan, istehsalın ictimai təşkili forması kimi kombinələşdirmə-texnoloji, iqtisadi, təşkilati baxımdan əlaqəli olan müxtəlif sahələrə məxsus ayrı-ayrı istehsalların, məhsul buraxmaq qbiliyyətlərinin proporsionallığını təmin etmək şərtilə, vahid istehsal kompleksində birləşdirilməsidir.

3. Əmək predmetlərinin emalının ayrı-ayrı mərhələlərinin birləşdirilməsi xarakterindən asılı olaraq kombinələşmənin 3 forması mövcuddur.

1. Xammalın-hazır məhsulun alınmasına qədər-ardıcıl emalına görə. Kombinələşmənin bu forması üçün qara metallurgiya kombinatları daha səciyyəvidir. Bu istehsalda, xammal kimi istehlak olunan dəmir filizinin hasil edilməsi və zənginləşdirilməsindən sonra, metallurgiya kombinatında ardıcıl olaraq çuqun, polad və prokat (yayma, vərəqə polad) alınır.

2. Xammalın kompleks emalına görə. Məlumdur ki, mineral (üzvi) və kənd təsərrüfatı xammalı bir sıra müxtəlif faydalı komponentlərin (maddələrin) birləşməsindən ibarətdir. Elmi-texniki tərəqqinin müasir vəziyyətində, xüsusilə kimyəvi və termiki proseslərin köməyilə, xammalın tərkibində olan bütün faydalı ünsürləri ayırmaq və istifadə etmək mümkün olur. Xammalın son faydalı maddənin alınmasına qədər emalı ondan kompleks istifadəni təmin edir. Xammalın kompleks emalı nəticəsində müxtəlif məhsullar istehsalına nail olmaq üçün onun ictimai təşkili vahid bir məkanda birləşdirilir, kombinatların yaradılması vasitəsilə həyata keçirilir.

3. Tullantılardan istifadəyə görə. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, təbiətdə monotərkibli mineral xammal yoxdur. Buna görə də, bu qəbildən olan hər hansı bir xammalın emalı zamanı həmin istehsal üçün həm əsas olan və həm də əsas olmayan məhsullar alınır və bir də texnoloji tullantılar yaranır. Buna misal olaraq misin alınması üçün kombinələşməni misal göstərmək olar.

Ümumiyyətlə, istehsal (texnoloji, təşkilati-texniki) tullantılarını onların fiziki hallarından asılı olaraq müxtəlif üsulların köməyilə emal edir və utilləşdirirlər:

1. Maye və qaz halında-absorbsiya (hopdurma, udma), çökdürmə, filtrləşdirmə və texniki emal;

2. Maye və bərk halında-kristallaşdırma və termiki emal;

3. Maye halında-buxarlandırma, distilləmə vərektifikasiya (ayırma);

4. Bərk halında-ekstraksiya (çıxarmaq) və kimyəvi emal.

İstehsallar arasında əlaqələrin xarakterindən asılı olaraq kombinələşmə üç tipə: şaquli, üfüqi və qarışıq tiplərə bölünür.

Şaquli kombinələşmə xammalın ardıcıl olaraq emal edilərək yarımfabrikat və hazır məhsula çevrilməsini nəzərdə tutur.

Üfüqi kombinələşmə xammalın kompleks emalı ilə əlaqədardır. Bu kombinələşmə növü ilkin xammalın emalının bie neçə axınının mövcudluğunu nəzərdə tutur ki, nəticədə bir neçə sahənin məhsulu alınır. Üfüqi kombinələşməyə misal neft-kimya kombinatlarını göstərmək olar.

Qarışıq kombinələşmə o halda olur ki, xammalın bir növünün ardıcıl emalından əsas yarımfabrikat və ya hazır məhsul, tullantılardan isə əlavə yarımfabrikat və ya əlavə hazır məhsullar alınır.

Qeyd etmək lazımdır ki, kombinələşmə istehsalın ictimai təşkilinin forması kimi müxtəlif istesal müəssisələri arasında daha sıx təsərrüfat əlaqələri arasında fəaliyyət göstərir. Bu onunla izah olunur ki, əgər təsərrüfat əlaqələri forması kimi maddi-texniki təminat və kooperativləşmə məkanca müxtəlif ərazilərdə yerləşdirilmiş müəssisələr arasında baş verirsə, kombinələşmədəki təsərrüfat əlaqələri eyni məkan daxilində olur.

Kombinələşmiş müəssisələrdə texnoloji prosesin bir mərhələsindən digərinə keçid fasiləsiz və ən qısa yolla, az vaxt intervalında baş verir; istehsallardan birinin nəticəsi digəri üçün başlanğıc olur-birinin məhsulu digəri üçün xammal, material və ya yarımfabrikat rolunda çıxış edir.

Bütövlükdə isə, kombinatlara 3 əsas cəhət səciyyəvidir:

a) müxtəlif istehsalların birliyi;

b) kombinata daxil olan istehsalların texniki-iqtisadi vəhdəti;

c) vahid enerji sistemi və nəqliyyat bazası.

Kombinələşmənin özünəməxsus xarakterik cəhətlərindən biri də ona daxil olan müəssisələrin texniki-iqtisadi vəhdətidir. Bu o deməkdir ki, kombinata daxil

olan müəssisələrin istehsal gücləri öz ölçülərinə görə uzlaşdırılmış olur, məhsulun nomenklaturası və keyfiyyətinə görə isə bir-birilə analoq təşkil edirlər; buraxılan məhsullar eyni mənşəli xammaldan istehsal olunduqlarından onların fiziki-kimyəvi xassələri də bir-birindən cidd surətdə fərqlənmir.

Kombinələşmənin əsas şərti, artıq qeyd edildiyi kimi, müxtəlif profilli istehsalların eyni bir məkanda təmərküzləşdirilməsi olsa da, həmin "müxtəlif istehsalların" özlərinin ixtisaslaşmış istehsallar olmaları şəraitində kombinələşmənin səmərəli təşkilinə və yüksək təsərrüfat nəticələrinə daha çox təminat verə bilərlər.

Elmi-texniki tərəqqinin kimyalaşdırma istiqaməti texnologiyasında kimyəvi və fiziki-kimyəvi emal əməliyyatlarının üstünlük təşkil etdiyi sənaye sahələrində, kombinələşmə üçün daha əlverişli imkanlar yaradır. Belə sahələrdən kimya, metallurgiya, neft emalı, neft-kimya, qaz, meşə, yüngül və yeyinti sənaye sahələrini göstərmək olar.

Xammalın kompleks emalına əsaslanan kombinələşdirilmiş istehsallar yalnız o vaxt mümkündür ki, texnoloji mərhələnin hər biri üçün mükəmməl texniki işləmələr mövcud olsun və onların tətbiqi texniki cəhətdən heç bir çətinlik törətməsin. İstehsala daxil olan xammal öz çəkisinə görə istehsaldan çıxan hazır məhsulun çəkisinə bərabər ola bilər.

Kombinələşmə və bunun əsasında kombinatların yaradılması sənayenin bir sıra səhələrində geniş vüsət almışdır. Belə sənaye sahələrindən, artıq qeyd olunduğu kimi, metallurgiya, kimya, yeyinti və ağac emalı sənaye sahələrini göstərmək olar.

Kombinələşdirmə sənayenin ən böyük sahələrindən olan hasiledici sənayedə, daha dəqiq desək, hasiledici sənayeyə daxil olan sahələr arasında mümkün deyildir. Çünki kombinələşmənin həlledici şərti olan müxtəlif sənaye sahələrinin birgə səyi ilə "xammalın ardıcıl emalı" şərti pozulur-"hasiledici" anlayışı ilə "xammalın ardıcıl emalı" anlayışları bir-birini inkar edir, "emaledici" və "hasiledici" sənayelər arasındakı prinsipial texniki-texnoloji fərqlər silinir; hasiledici sənaye firması eyni zamanda emaledici firma ola bilməz.

Hasiledici sənaye sahələri ilə emaledici sənaye sahələri arasındakı istehsal əlaqələrinin qurulması əmək predmetlərinin ardıcıl və kompleks emalına əsaslanan kombinatların yaradılması və fəaliyyəti üçün həlledici şərt olur.

Emaledici sənaye müəssisəsinin hasiledici sənaye müəssisəsinə yaxınlaşdırılmasına-kombinasiya olunmasına əsaslanan kombinatlar əmək predmetinin alınması xərclərini ciddi surətdə azaldır, başqa sözlə, ixtisara salır, daşınan əmək predmeti deyil, artıq bir dəfə emala məruz qalan əmək "predmeti"-məhsul olur.

Nəzəri və həm də praktiki baxımdan metallurgiya və maşınqayırma müəssisələrini xammalın ardıcıl emalına əsaslanan kombinatda birləşdirmək olar. Vaxtı ilə belə kombinatlar yaradılmış və indi də mövcuddur.

Kimyəvi üsulla emala əsaslanan istehsallarda kombinələşmənin hər üç şərti-xammalın ardıcıl və kompleks emalı, tullantılardan istifadə üçün obyektiv texniki-texnoloji və digər şərait yaranır.

Azərbaycan Respublikasının təbii sərvətlərindən neft və təbii qazın emalına əsaslanan kombinələşdirmə perspektiv inkişaf imkanları baxımından ən əhəmiyyətlisidir. Belə ki, neftayırma və neft-kimya sənayesində neftdən alınan məhsulların və təbii qazın emalı kombinələşmənin formalarından olan xammalın kompleks işlənməsi üsulu üçün gələcəkdə-neft kontraktları reallaşdıqca, neft hasilatı artdıqca-güclü amilə çevriləcəkdir.

Azərbaycan Respublikasında bir sıra başqa sənaye sahələrinə məxsus kombinatların (yüngül, yeyinti və s.) yaradılması və inkişaf etdirilməsi üçün perspektivdə daha böyük imkanlar yaranacaqdır. Təbii və texniki amillərdən əlavə həmin imkanlar bazar münasibətləri və xüsusilə, onun aparıcı qanunları olan tələb və təklif qanunlarının tələblərindən irəli gələcəkdir.

Kombinələşmə, istehsalın ictimai təşkilinin digər formaları kimi, sənaye istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsində müstəsna rola malikdir. Kombinələşdirilmiş istehsallarda, xüsusilə kimya, neftayırma, metallurgiya və yeyinti sənaye sahələrində prosesin fasiləsizliyi texnoloji əməliyyatları icra edən maşın, avadanlıq, aparat və s.-nin aramsız işləmələri ilə şərtləndiyindən istismarda olan əmək vasitələrindən səmərəli istifadəni təmin edir.

Kombinatın sahə məxsusluğundan asılı olaraq onların bir qismində istehsalın avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi, fərdi texniki gücü böyük olan avadanlıqların tətbiqi yüksək əmək məhsuldarlığına da təminat verir. Kombinələşdirmənin hər üç formasında eyni məkanda müxtəlif sənaye sahələrinə məxsus bir neçə məhsulun istehsalının təmərküzləşdirilməsi onların ayrı-ayrı müəssisələrdə istehsalının təşkilinə nisbətən köməkçi və xidmətedici sahələr, xüsusilə istehsal infrastrukturuna əsaslı vəsait qoyuluşunun xüsusi çəkisini azaldır.

İstehsalın ictimai təşkilinin digər formalarında olduğu kimi, kombinələşmənin də iqtisadi səmərəlilik, səviyyə və inkişafı dinamikasını öyrənmək, təhlil etmək və prosesə nəzarət etmək üçün göstəricilər sistemindən istifadə olunur və onlar aşağıdakılardır:

- kombinatlarda birləşdirilən texnoloji mərhələ və sahələrin sayı-müxtəlifliyin mürəkkəblik dərəcəsi;

- kombinatlarda istehsal olunan məhsulun, ümumiyyətlə, həmin təyinatdan olan məhsul istehsalında payı (natural və dəyər ölçüsündə);

- kombinələşmiş istehsallarda işləyən fəhlələrin sayı və bunların həmin təyinatdan məhsul istehsal edən fəhlələrin ümumi sayında xüsusi çəkisi;

- kombinələşmiş istehsalların əsas fondlarının dəyəri və bunun eyni məhsul istehsalında istismar olunan əsas fondların ümumi dəyərində xüsusi çəkisi;

-kombinələşmiş müəssisələrin istehsal həcmi;

- kombinələşmiş müəssisələrdə emal olunan xammalın növə görə sayı və s.

Kombinələşmənin bir proses kimi mürəkkəbliyi və bununla əlaqədar kombinatların fəaliyyətinin kəmiyyət və keyfiyyət tərəfini xarakterizə edən vahid bir göstəricinin tətbiqi mümükün deyildir. Elə buna görədir ki, kompleks göstəricilərdən istifadə etməklə kombinatların fəaliyyətlərinin texniki, texniki-iqtisadi, iqtisadi və sosial cəhətlərini öyrənmək və müəyyən nəticələr əldə etmək və habelə, onları ümumiləşdirmək mümkündür.

Sənayedə kombinələşmənin iqtisadi səmərəliliyinin ən ümdə istiqamətli göstəricisi xammaldan istifadə səviyyəsini yüksəltməklə eyni həcmdə əmək cismindən daha çox məhsul istehsalını təmin etməsindədir. Konkret olaraq kombinələşmə aşağıda göstərilən istiqamətlər üzrə ictimai əməyə qənaətlə nəticələnir və istehsalın səmərəliliyini yüksəldir:

a) kombinatın əsas istehsallarında əmək predmetləri və vasitələrinə, iş qüvvəsinə çəkilən xərclərə qənaət;

b) istehsalın təşkili ilə əlaqədar olan vəsaitə qənaət;

c) xammal bazasının genişləndirilməsi;

d) müəssisələrin cöğrafi baxımdan əlverişli yerləşdirilməsi;

e) xammal, hazır məhsul və yarımfabrikatların daşınma xərclərinə qənaət;

f) istehsal ehtiyatları həcminin ciddi surətdə azalması və s.

Firmada əmək resursları

1. Firmanın əmək resursları və onun tərkibi

2. Firmada kadrların idarə olunması

3. Əmək məhsuldarlığının mahiyyəti və onun ölçülmə metodları

4.Əməyin <u>ödənişinin forma və sistemləri</u>, əmək haqqının növləri

1. Firmanın istehsal-kommersiya fəaliyyətinin səmərəliliyi onun kadrlarından, orada çalışan işçilərin səriştələrindən, peşəkarlıq və ixtisas səviyyələrindən bilavasitə asılı olur. Hər hansı bir müəssisənin istehsal proqramını yerinə yetirmək (başqa sözlə, dolayı olsa da, onu əsaslandırmaq) üçün zəruri sayda işçilər tələb olunur. Müəssisənin kadrları funksional tərkibinə görə təsnifləşdirilir. Firmanın kadrları, ilk əvvəl, istehsal heyəti (başqa sözlə, əsas fəaliyyət heyəti) və qeyri-

istehsal heyəti (qeyri-əsas fəaliyyət heyəti) kimi (başqa sözlə, mənzil-kommunal təsərrüfatının, uşaq bağçalarının, səhiyyə və yardımçı təsərrüfatlarının işçiləri) qruplaşdırılır.

İstehsal heyəti icra etdikləri funksiyaların xarakterinə görə fəhlələr, mühəndis-texniki işçilər, qulluqçular, kiçik xidmətedici heyət, şagirdlər və mühafizə işçiləri kateqoriyalarına bölünürlər.

İstehsal heyətinin əsas tərkib hissəsi olan fəhlələr qrupuna bilavasitə məhsul yaradılmasında iştirak edən və habelə istehsal prosesinin normal gedişatını təmin edən işçilər aid olunurlar.

Mühəndis-texniki, mütəxəssis və rəhbər işçilər kateqoriyasına istehsala texniki rəhbərlik funksiyasını həyata keçirən kadrlar aid olunurlar.

Qulluqçular kateqoriyasına maliyyə, uçot, təchizat-satış, dəftərxana və bəzi inzibati-idarə işçiləri aid olunurlar.

Şagirdlər kateqoriyasına fərdi və briqada (qrup) şəklində həm bilavasitə müəssisənin özündə hamilik yolu ilə və həm də başqa məktəblərə ezamiyyə olunmaqla fəhlə peşəsinə yiyələnən gənclər aid olunurlar.

Kiçik xidmətedici heyətə inzibati-idarə binaların aqulluq edən xadimələr, süpürgəçilər, minik avtomobillərinin sürücüləri, kuryerlər, paltarsatanlar və s. işçilər aiddirlər.

Mühafizə işçilərinə isə müəssisənin gözətçiləri və yanğından mühafizə işçiləri aid edilirlər.

Firmanın qeyri-istehsal sahələrində çalışan işçilər istehsal heyətinə aid edilmir. Bu qəbildən olan işçilərə yaşayış binalarına, səhiyyə məntəqələrinə, uşaq bağçalarına, klublara , yardımçı təsərrüfatlara xidmət edən işçilər daxil olunurlar.

Fəhlələr ixtisas dərəcələrinə görə 4 qrupa bölünürlər: ixtisassız (ixtisas dərəcəsi olmayan), az ixtisaslı, ixtisaslı, yüksək ixtisas dərəcəli.

Öz-özlüyündə aydındır ki, xüsusi hazırlıq tələb etməyən işlərin icrası ixtisas dərəcəsi olmayan, başqa sözlə, ixtisassız fəhlələr tərəfindən yerinə yetirilməlidir.

Az ixtisas dərəcəli fəhlənin xüsusi hazırlıq keçmə müddəti cəmisi bir neçə həftə ərzində baş verə bilər. Bu qəbildən olan fəhlələrin icra etdikləri iş o qədər də mürəkkəb olmur.

İxtisas dərəcəli, başqa sözlə, ixtisaslı fəhlələrin hazırlanması 2-3 il müddətində vaxt tələb edir.

Yüksək ixtisas dərəcəli fəhlələrin hazırlanmasında, onlarda nəzəri biliklərlə yanaşı, müəyyən iş təcrübəsinin formalaşması da zəruri əhəmiyyət daşıyır.

2. Firmada kadrların idarə edilməsi-işə qəbul, fəhlələrə, xüsusilə, gənc fəhlələrə hamilik, ixtisas səviyyəsinin yüksəldilməsi və kadrların yenidən hazırlanması, heyətin davranışına nəzarətin təşkili və s. bu kimi məsələləri özündə

birləşdirir. Çünki yalnız bu halda sahibkar öz məqsədinə-mümkün qədər daha çox gəlir götürməyə-nail ola bilər.



2.Müəssisədə kadrların idarə olunması

Müəssisədə kadrların idarə olunması aşağıdakı mərhələləri özündə birləşdirir:

- Kadrlara tələbatın planlaşdırılması: kadrlara tələbatın hesablanması;
- Kadrların yığılması: bütün vəzifələr üzrə potensial namizədlər ehtiyatının yaradılması;

- kadrların seçilməsi: iş yerləri üçün namizədlərin qiymətləndirilməsi və onlardan müəssisənin işçi heyətini tamamlamaq üçün ən yaxşılarının seçilməsi.

Müəyyən ümumiləşdirməyə yol vermək şərtilə istehsal heyətinin idarə olunmasının nəticəsini səciyyələndirən göstərici kimi müəssisədən iş qüvvəsi axıcılığını qəbul etmək olar. Başqa sözlə, iş qüvvəsi axıcılığının vəziyyəti heyətin idarə edilməsinin keyfiyyətindən, əmək münasibətlərinin necəliyindən bilavasitə asılı olur.

İş qüvvəsi axıcılığı heyət üzvünün özü ilə bərabər tərk etdiyi müəssisənin iqtisadiyyatına da mənfi planda təsir göstərir. Göründüyü kimi, iş qüvvəsi axıcılığı üç tərəfin hamısına-müəssisələrdən hər ikisinə və fəhlənin özünə iqtisadi ziyan gətirir. İş qüvvəsi axıcılığının qarşısının alınması müəssisənin istehsal heyəti üzrə menecerinin ciddi və hərtərəfli düşünülmüş monitor fəaliyyətini tələb edir. Müəssisədə iş qüvvəsi axıcılığının təhlili üçün ilk əvvəl "xalis axıcılığın" həddini müəyyən edirlər. Bunun üçün il ərzində işdən gedənlərin (və ya fəhlələrin) sayı işçilərin (və ya fəhlələrin) orta illik sayı ilə müqayisə edilir, onların faiz hesabı ilə xüsusi çəkisi müəyyən olunur. Kadr axıcılığı başqa bir variantda da hesablanır. Bu

zaman obyektiv səbəbdən, öz təşəbbüsü ilə işi tərk edənlərin sayı, il ərzində ümumiyyətlə işdən gedənlərin sayından ayrılıqda müəyyən edilir və o, işçilərin (və ya fəhlələrin) orta illik sayı ilə müqayisə olunur.

İş qüvvəsi axıcılığı iki tərəfdən birinin-həm muzdlu fəhlənin və həm də işə götürənin iradəsi ilə baş verə bilər. İkinci halda iş qüvvəsi axını müəssisə rəhbərliyinin təşəbbüsü ilə həyata keçirilir.

Bütünlükdə idarəçilik üçün olduğu kimi, istehsal heyətinin də idarə edilməsi məlum üç metod əsasında həyata keçirilir: a) inzibati; b) iqtisadi; c) sosial-psixoloji. Öz-özlüyündə aydındır ki, əgər göstərilən üç metoddan hər hansı biri istehsal heyətinin idarə olunmasının öhdəsindən gələ bilsəydi, digər ikisinə ehtiyac qalmazdı. Deməli, ümumiyyətlə idarəçilikdə və xüsusilə, heyətin idarə olunmasında bu üç metodun hamısından-şəraitdən asılı olaraq-müəyyən hədlər çərçivəsində istifadə olunmalıdır.

3. Əmək məhsuldarlığının mahiyyəti və onun ölçülmə metodları

Əməyin məhsuldarlığı konkret əmək növünün vaxt vahidi ərzində az və ya çox məhsul istehsal etmək qabiliyyəti ilə səciyyələnir. Onun səviyyəsinin yüksəldilməsi vaxt vahidi ərzində istehsal edilən məhsulun kəmiyyətcə çoxaldılması və yaxud məhsul vahidinin istehsalına sərf olunmuş vaxtın miqdarının azaldılması ilə mümkündür. Əmək məhsuldarlığının artmasının əhəmiyyəti, hər şeydən əvvəl, onda təzahür edir ki, o, istehsalı genişləndirməyin, ictimai sərvəti artırmağın başlıca şərti kimi çıxış edir. Əmək məhsuldarlığının yüksəldilməsi milli gəlir kütləsinin artırılması və əhalinin maddi rifah halının yaxşılaşdırılmasının başlıca və həlledici amillərindən biri hesab edilir. Müəssisə və ya firma iqtisadiyyatı üçün əhəmiyyəti və rolu baxımından əmək məhsuldarlığının yüksəldilməsi, istehsal həcminin genişləndirilməsilə yanaşı, onun məhsulunun dəyərini ucuzlaşdırır və keyfiyyət göstəricilərini yüksəldir. Əmək məhsuldarlığının artım tempi orta əmək haqqının artım tempinə nisbətən daha yüksək olmalıdır. Bu, geniş təkrar istehsal prosesinin zəruri şərtidir. Əmək məhsuldarlığının yüksəldilməsi nəticəsində əmək haqqı məsrəflərinə qənaət olunması, istehsal həcminin artırılması və istehsal gücündən istifadənin yaxşılaşdırılması hesabına məhsul vahidinə düşən şərti sabit xərclərin azaldılması ilə məhsulun maya dəyərini aşağı salmağa imkan verir. Mütərəqqi texnikanın tətbiqi nəticəsində əmək məsrəflərinin azalması, adətən, maddi ehtiyatlara qənaətlə müşayiət olunur ki, bu da bütün xərc maddələri üzrə məhsulun maya dəyərinin aşağı düşməsi ilə nəticələnir. Fəhlənin iş vaxtından səmərəli istifadə, nəticə etibarilə, istehsalın səmərəliliyini, xüsusilə əmək məhsuldarlığının yüksəldilməsini təmin edən güclü amil kimi çıxış edir. İstehsalın həcmi genişləndikcə iş vaxtına qənaətin əhəmiyyəti daha da artır, çünki eyni vaxt vahidi ərzində daha çox məhsul istehsal etmək

mümkün olur. İstehsal firmasında əmək məhsuldarlığının səviyyəsini xarakterizə edən göstəricilərə aşağıdakılar daxildir:

Ət = T/N ; Əm = N /T

Burada, Ət – məhsulun əmək tutumu; Əm – əmək məhsuldarlığı(hasilat göstəricisi); N – istehsal edilmiş məhsulun həcmi; T – məhsul istehsalı üçün iş vaxtı məsrəfidir.

Əməktutumu – məhsul vahidinin hazırlanması üçün zəruri olan iş vaxtının miqdarıdır. Əmək məhsuldarlığının öyrənilməsində əməyin nəticəsini xarakterizə edən natural, şərti-natural, əmək və dəyər göstəricilərindən istifadə edilir. Natural ifadədə məhsul buraxılışı həcmi (məsələn, litr, metr, ton və s.) istehsal fəaliyyətinin nəticəsini daha dəqiq səciyyələndirir, lakin bu göstərici ilə əmək məhsuldarlığı müəyyən edildikdə bəzi qeyri-dəqiqliyə yol verilir. Natural göstəricilər həmcins məhsul buraxan (məsələn, kömür hasilatı, poladəritmə, kərpic istehsalı və s.) müəssisələrdə tətbiq oluna bilər. Şərti-natural göstərici kimi, adətən eyni iqtisadi təyinat alan məhsul növlərindən biri, bir qayda olaraq, digərlərini təmsil edən məhsul kimi seçilir. Bu metodda müəyyən məhsul növü – fiziki ölçüsündən asılı olmayaraq – vahid kimi qəbul edilir və başqa məmulatlar onların istehlak xassələrinə və ya əmək tutumuna görə həmin şərti ölçü vahidinə adekvat kimi qəbul edilir (şərti yanacaq, şərti banka və s.). İstehsal fəaliyyətinin nəticəsinin natural, şərti-natural və əmək tutumuna görə ölçülməsi – mötəbər məlumata malik olmaq nöqteyi-nəzərindən çox faydalıdır. Bununla belə, qeyd edilən göstəricilərdən istifadə imkanları məhduddur. Bu göstəricilər sahə üzrə istehsal fəaliyyətinin nəticələrini ümumiləşdirmək işini çətinləşdirir və həm də müxtəlif müəssisələrin istehsal nəticələrini müqayisə etməyə imkan vermir. Qeyd edilən qüsurları dəyər göstəricisindən istifadə etməklə aradan qaldırmaq mümkündür. Dəyər göstəricisindən istifadə müəssisələrin fəaliyyət göstəricilərini sahə üzrə ümumiləşdirməyə imkan verir. Məhsul buraxılışının dəyər ifadəsində müəyyən olunmasının əsas üstünlüyü həm onun asanlığında, həm müxtəlif növ məhsul buraxan müəssisələrin və həm də ümumən müəssisələr qrupu üzrə istehsal həcminin dinamikasını müəyyən etmək imkanı verməsindədir. Bu zaman planlaşdırma və təhlil imkanı genişlənir, müxtəlif dövrlərdə hər bir tədqiq olunan qrup müəssisələr üzrə göstəricilərin müqayisəsinə imkan yaranır. Artıq qeyd olunduğu kimi, əmək məhsuldarlığının yüksəldilməsi vaxt vahidi ərzində istehsal olunan məhsulun həcminin artırılması və yaxud məhsul vahidi istehsalına sərf olunan vaxtın, başqa sözlə, məhsulun əməktutumunun azaldılması yolu ilə mümkün olurƏmək məhsuldarlığının yüksəldilməsi bütün istehsal ehtiyatlarının səfərbərliyə alındığı təqdirdə müvəffəqiyyətlə həll edilə bilər. Bunun üçün elmi-

texniki tərəqqinin tətbiqi ilə yanaşı, maddi, əmək və maliyyə ehtiyatlarından daha qənaətlə və səmərəli istifadə etmək, artıq xərclərə yol verməmək və itkiləri ləğv etmək lazımdır. İstehsaldaxili ehtiyatlardan səmərəli və bacarıqla istifadə uğrunda mübarizə "mövsümi" xarakter daşımamalı, mütəmadi olaraq əmək kollektivinin, xüsusilə mühəndis-texniki işçilərin diqqət mərkəzində olmalıdır. Müəssisədə və ya istehsal firmasında əmək məhsuldarlığının artırılması ehtiyatları dedikdə, orta istehsal normasını artırmaq və ya məhsulun əmək tutumunu azaltmaq üçün mövcud və gerçəkləşməsi mümkün olan imkanlar nəzərdə tutulur. Firma və müəssisədə əmək məhsuldarlığının artırılması ehtiyatları elmi-texniki tərəqqi, müəssisənin düzgün yerləşdirilməsi, müəssisədə yeni texnika və texnologiyanın tətbiqi, mövcud avadanlıqların modernləşdirilməsi, istehsalın ictimai təşkili formalarının düzgün seçilməsi, rəqabətqabiliyyətli müvafiq sahələrin inkişaf etməsi və s. ilə əlaqədardır. Əmək məhsuldarlığının yüksəldilməsi üçün istehsaldaxili ehtiyatlarının aşkar edilməsi resurslardan səmərəli istifadə olunmasından birbaşa asılı olur. Bu ehtiyatlara: məhsulun əmək tutumunun aşağı salınması, iş vaxtından istifadənin yaxşılaşdırılması, istehsal heyətinin strukturunun təkmilləşdirilməsi, xammal və materiallara qənaət, istehsal əsas fondlarından istifadənin yaxşılaşdırılması və fondtutumunun aşağı salınması aiddirlər.Əmək məhsuldarlığının ehtiyatları onun konkret amillərinin təsiri ilə əlaqədardır. Bu amillərə aşağıdakılar daxildir.

1. Əmək məhsuldarlığını yüksəltməyin maddi-texniki amillərinə: elmi-texniki tərəqqinin əsasında istehsalın mexanikləşdirilməsi, avtomatlaşdırılması, robotlaşdırılması, yeni texnikanın tətbiqi və mövcud avadanlıqların modernləşdirilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi aiddir.

2. Təşkilati amillərə isə istehsalın təmərküzləşmə və ixtisaslaşma səviyyəsi, onun fasiləsizlik, ahəngdarlıq və proporsionallıq dərəcəsi, istehsalın idarə edilməsinin təkmilləşdirilməsi, iş yerlərinin səmərəli təşkili, istehsal sahəsində məşğul olan ayrı-ayrı kateqoriya işçilərin say nisbəti, sağlam, təhlükəsiz və estetik cəhətdən əlverişli əmək şəraitinin yaradılması daxildir.

3. İqtisadi amillərə kollektivin və ayrı-ayrılıqda hər bir işçinin əmək məhsuldarlığını yüksəltmək üçün ən əlverişli maliyyə və digər iqtisadi stimulların yaradılması aiddir.

4. Sosial amillərə gəlincə, bunlara kadrların mədəni-texniki və mənəvi səviyyəsi, ixtisası, əmək məhsuldarlığının artımının mənəvi cəhətdən stimullaşdırılması dərəcəsi və formaları aid edilir.

4.Əməyin ödənişinin forma və sistemləri, əmək haqqının növləri

Məlum olduğu kimi, inkişaf etmiş bazar iqtisadiyyatının ən mühüm tələblərindən biri təsərrüfatçılıqla məşğul olan müəssisə, idarə və təşkilatlar üçün eyni iqtisadi mühitin yaradılması, onlara öz fəaliyyətlərini daha səmərəli qurmaları üçün müstəqilliyin verilməsidir.

Müasir bazar münasibətləri şəraitində ölkəmizdə fəaliyyət göstərən müəssisə və təşkilatlar mövcud qanunvericiliyə riaəyət etməklə işçilərin əməyinin ödənilməsinin forma və sistemlərini fərdi qaydada müəyyən edirlər. Müəssisənin işçilərinin əməyi müəssisənin özü tərəfindən təsdiq edilən vəzifə maaşları və ya işəmuzd qiymətlərlə, mülki-hüquqi müqavilələr üzrə işə götürənlərin əməyi isə, bu müqavilələrdə nəzərdə tutulan şərtlərlə ödənilir. Hasilat normalarını və işlərin qiymətlərini müəssisə özü müəyyən edir. Zəruri hallarda bu normalara təsərrüfatçılığın konkret şərtləri nəzərə alınmaqla yenidən baxıla bilər. İşçilərin yüksək istehsal göstəriciləri əldə etmələrinə görə, səmərələşdirici təkliflərin verilməsinə görə, eləcə də onları həyata keçirmələrinə görə, həmçinin fasiləsiz iş stajının olmasına, vəsaitlərdən maksimum səmərəli istifadəyə nail olunması və s. bu kimi amillərə görə müəssisələr maddi həvəsləndirmənin müxtəlif növlərindən (pul mükafatları və s.) istifadə edə bilərlər.

Müəssisə və təşkialtlarda əməyinin ödənilməsi zamanı əmək haqqının vaxtamuzd və işəmüzd formasındaq istifadə olunur. Vaxtamuzd əmək haqqı forması o sahələrdə tətbiq edilir ki, orada yerinə yetirilən işçilərin həcmini ölçmək, şərf edilən əməyi normalaşdırmaq mümkün deyil.

İşəmuzd əmək haqqı forması isə o xalq təsərrüfatı sahələrində və müəssisəələrdə tətbiq olunur ki, orda istehsal olunan məhsulu, yerinə yetirilən iş və göstərilmiş xidmətin həcmini ölçmək və şərt edilən əməyi normalaşdırmaq mümkündür.

Vaxtamuzd əmək haqqı formasında işçilərə əmək haqqı faktiki işlənilmiş iş vaxtının miqdarına görə hesablanır. İşəmüzd əmək haqqı formasında isə, əhsul istehsalının miqdarından asılı olaraq verilir.

Azərbaycan Respublikasının əmək məcəlləsinin 160-cı maddəsində (müxtəlif işlər üzrə əmək funksiyası yerinə yetirilərkən əməyin ödənilməsi) əmək haqqı sistemlərinin növləri aşağıdakı kimi xarakterizə edilir:

1. Vaxtamuzd işçi eyni zamanda müxtəlif işlər, vəzifələr, peşələr və ya ixtisas dərəcələri üzrə əmək vəzifələrini yerinə yetirdikdə habelə müəyyən edilmiş normalardan artıq dəzgaha, maşına, aparata xidmət etdikdə, onun əməyi daha yüksək haqq verən ixtisas (peşə) dərəcələri, tarif (vəzifə) maaşları üzrə ödənilir və əmək haqqına əlavə müəyyən edilir.

Vaxtamuzd əmək haqqı forması işin miqdar cəhətini normallaşdırmanın mümkün olmadığı və məhsulun keyfiyyət cəhətinə görə bir qrup fəhlənin (nəzarətçi fəhlələr

kimi) işəmuzd əmək haqqı sisteminə keçirilməsinin məqsədəuyğun olmadığı hallarda tətbiq edilir.

Qeyd edildiyi kimi vaxtamuzd əmək haqqı formasının aşağıdakı sistemləri mövcuddur:

1. Sadə vaxtamuzd əmək haqqı sistemi;
2. Mükafatlı vaxtamuzd əmək haqqı sistemi.

Əməyin ödənilməsinin sadə vaxtamuzd sistemində fəhlələrin əmək haqqının miqdarı onun şərt etdiyi faktiki vaxtın miqdarından və tarif maaşından asılıdır. Bu sistem əmək haqqının hesablanmasına görə üç növə bölünür: saatliq, günlük və aylıq.

Mükafatlı faxtamuzd əmək haqqı sistemində mükafatlandırma göstəriciləri konkret, əsaslandırılmış halda və bir-biriylə qarşılıqlı əlaqə halında olmalıdır.Vaxtamuzd mükafatlı əmək haqqının tətbiqinin başlıca məsələlərindən biri də onun iqtisadi səmərəsinin artırılmasıdır. Ona görə də əməyin ödənilməsinin bu sistemin tətbiqi ilə əlaqədar olaraq yaranacaq, xammala, materiala olan qənaət, zay məhsulun azaldılması və s. sahədə olan səmərə konkret müəyyən edilir.

2**.** İşəmuzd ödəniş formasında işçilərin əməyi görülən işin işəmuzd qiymətləri üzrə ödənilir. Təsərrüfat subyektlərinin hər hansı sahəsində işçilərə verilmiş ixtisas (peşə) dərəələrindən aşağı tarif müəyyən edilmiş işlər istehsalat xarakterinə görə işəmuzd işçilərə tapşırılırsa, həmin işləri yerinə yetirən işçilərə dərəjələr arasındakı fərq ödənilir. Əgər işçi hasilat normasını yerinə yetirisə, lakin onun ixtisas dərəcəsi ilə yerinə yetirilən işin dərəcəsi arasında ən azı 2 dərəcə fərq olarsa, onda həmin dərəcələr arasındakı fərq işçiyə ödənilir.İşəmuzd əmək haqqının özünün aşağıdakı sistemləri mövcuddur:

1. Müstəqim işəmuzd əmək haqqı sistemi;
2. Mükafatlı işəmuzd əmək haqqı sistemi;
3. Mütərəqqi işəmuzd əmək haqqı sistemi;
4. Qeyri müstəqim işəmuzd əmək haqqı sistemi
5. Akkord əmək haqqı sistemi.

Firmanın əsas fondları və istehsal gücü

1. İstehsal əsas fondlarının iqtisadi əhəmiyyəti və təsnifatı
2. Əsas fondların qiymətləndirilməsi
3. Əsas fondların köhnəlməsi və amortizasiyası
4. Əsas fondlardan istifadə göstəriciləri
5. Firmanın istehsal gücü və onun hesablanması metodikası

6. İstehsal əsas fonlarından istifadənin yaxşılaşdırılması yolları

1. Cəmiyyətin sosial-iqtisadi inkişafının maddi əsasını təşkil edən ictimai istehsal iş qüvvəsinin, əmək predmetlərinin və əmək vasitələrinin müxtəlif kəmiyyət nisbətlərində və kombinasiyalarda birləşdirilərək insanların tələbatlarını ödəmək üçün maddi nemətlərin yaradılması prosesidir.

Əmək vasitələri dəyər ifadəsində istehsal əsas fondları adlanır. Başqa sözlə, əsas fondlar istehsal prosesində uzun müddət və bütövlükdə-bütün ünsürləri birlikdə-iştirak edən, öz natural formasını ömrü boyu saxlayan və dəyərini istehsal edilən məhsulun üzərinə-köhnəlmə dərəcəsindən asılı olaraq-hissə-hissə keçirən əmək vasitələrinin maddi-texniki deyil, dəyərlə ifadə olunmuş formasıdır.

İstehsal əsas fondlarının tərkibinə yalnız istehsal prosesinə cəlb edilmiş və müəyyən funksiyaları yerinə yetirən əmək vasitələri daxil edilir.

Firmanın əsas fondları istehsal əsas fondları və qeyri-istehsal əsas fondlarına bölünür. İstehsal əsas fondlarına bilavasitə istehsal prosesində iştirak edən, yaxud onun həyata keçirilməsinə yardım göstərən əmək vasitələri daxil edilir. Qeyri-istehsal əsas fondlarına isə müəssisənin ixtiyarında olan mənzil fondları, mədəni-məişət xidmətinin (klublar, uşaq bağçaları, səhiyyə məntəqələri, istirahət düşərgələri və s.) binaları, qurğuları və s. aid edilir.

Qüvvədə olan təsnifata görə firmanın və müəssisənin əsas fondları öz təyinatları, istehsaldakı funksiyaları və maddi məzmunlarına görə aşağıdakı kimi qruplaşdırılır.

“Binalar”. Bu qrupa istehsal prosesinin həyata keçirilməsi üçün zəruri şərait yaradan, müxtəlif maşın və mexanizmləri xarici mühitin təsirlərindən qoruyan, işçilər üçün istehsal meydançası verən və habelə yaşayış və sosial-mədəni xidmət təyinatlı memarlıq tikinti obyektləri aiddir.

“Qurğular”. Bu qrupa əmək predmetlərinin (xammal, material, yarımfabrikatlar və s.) emalı ilə bilavasitə əlaqəsi olmayan, lakin istehsal prosesindən müəyyən funksiyaları icra etmək üçün şərait yaradan mühəndis-tikinti obyektləri aiddirlər.

“Ötürücü qurğular”. Bu qrupa elektrik, istilik və mexaniki enerjinin, habelə maye və qaz halında olan maddələrin ötürülməsinə kömək edən qurğular aiddir.

İstehsal əsas fondlarının ayrı-ayrı ünsürlərinin ümumi dəyərindəki nisbətləri əsas fondların istehsal strukturunu müəyyənləşdirir. Əsas fondların istehsal strukturu və onun dinamikası istehsalın texniki səviyyəsini səciyyələndirən göstəricilərdəndir və əsas fondlara investisiya qoyuluşlarının səmərəliliyinə təsir göstərirlər. İstehsalın təmərküzləşmə, ixtisaslaşma və kooperativləşmə səviyyəsi də istehsal əsas fondlarının strukturuna əhəmiyyətli dərəcədə təsir göstərir: istehsalın təmərküzləşmə, ixtisaslaşma səviyyəsi nə qədər yüksək olarsa, onun mexanikləşmə

dərəcəsi bir o qədər yüksək və əsas fondların quruluşunda iş maşınları və avadanlıqların da xüsusi çəkisi böyük olar.

2. İstehsal əsas fondları həm natural, həm də dəyər ölçüsündə uçota alınır və planlaşdırılır. İstehsal əsas fondlarının natural göstəricilərlə qiymətləndirilməsi istehsal prosesininn texnoloji xüsusiyyətlərindən asılıdır və istehsal müəssisələrində əsas fondların texniki tərkibini, istehsal gücünü müəyyənləşdirmək, istehsal gücündən istifadəni yüksəltməyə dair tapşırıqlar və yollar müəyyən etmək, avadanlıq balansı tərtib etmək, habelə investisiyanın və yeni maşın və avadanlıqların tərtibi hesabına istehsalı inkişaf etdirmək üçün istifadə olunur.

Əsas fondların dəyər ifadəsində uçota alınması və planlaşdırılması müəssisənin istehsal əsas fondlarının köhnəlməsini müəyyən etmək və amortizasiyanı hesablamaq, dinamikasını uçota almaq və onların geniş təkrar istehsalını planlaşdırmaq, habelə məhsulun maya dəyərini və müəssisələrin rentabelliyini müəyyən etmək məqsədilə aparılır.

Əsas fondların uzun müddət işləməsi, tədricən köhnəlməsi və bu müddətdə təkrar istehsal şəraitinin dəyişməsi ilə əlaqədar olaraq əsas fondlar-onların hərəkətinə nəzarət məqsədilə-üç növ dəyərdə (ilkin, bərpa və qalıq dəyəri) qiymətləndirilir.

Əsas fondların ilkin dəyəri dedikdə, onların istehsalı (yaxud inşası), əldə edilməsi (alınması və gətirilməsi), habelə quraşdırılması ilə əlaqədar olan xərclərin məcmusu nəzərdə tutulur. Müəssisənin əsas fondlarının uçotu onların ilkin dəyəri ilə aparılır.

Bərpa dəyəri üzrə qiymətləndirmə yeni istehsal şəraitində (cari ildə) əsas fondların təkrar istehsal dəyərini (yəni müasir dəyərini) ifadə edir. İstehsal əsas fondlarının bərpa dəyəri ilkin dəyər ilə mənəvi aşınmanın dəyər formasında ifadə olunmuş kəmiyyəti arasındakı fərq kimi müəyyən edilir.

Əsas fondların qalıq dəyərinə görə qiymətləndirilməsində məqsəd onun istehsal prosesi zamanı hələ məhsul üzərinə keçirmədiyi dəyərin həcmini, başqa sözlə, həmin məqam üçün faktiki dəyərini müəyyən etməkdir.

Əsas fondların təkrar istehsal xarakteristikası onların artması, təzələnməsi və sıradan çıxması göstəriciləri vasitəsilə təhlil olunur və öyrənilir.

Artma əmsalı baxılan dövrdə əsas fondların artımını əks etdirir və yeni istifadəyə verilmiş əsas fondların dəyərinin ilin əvvəlinə olan əsas fondların dəyərinə nisbəti kimi müəyyən edilir.

İstehsal aparatının yeniləşməsi təzələnmə (yeniləşmə) əmsalı ilə müəyyən olunur və bu əmsal yeni istifadəyə verilmiş əsas fondların dəyərinin ilin axırına olan əsas fondların dəyərinə nisbətini əks etdirir.

Əsas fondların sıradan çıxma əmsalı baxılan dövrdə istifadədən çıxmış əsas fondların dəyərinin ilin əvvəlinə olan əsas fondların dəyərinə nisbəti kimi hesablanır.

3. Əsas fondlar özlərinin dəyər və istehlak dəyərini tədricən itirməklə köhnəlir: onlar fiziki aşınmaya və mənəvi köhnəlməyə məruz qalırlar.

İstehsal əsas fondları həm istifadə zamanı və habelə boşdayanmalar vaxtı özünün texniki-istismar xassələrini itirir-belə köhnəlmə (aşınma) fiziki köhnəlmə adlanır.

Göründüyü kimi, əsas fondlar həm işlədikləri və həm də istismar olunmadıqları halda fiziki cəhətdən köhnəlirlər. Lakin hər iki halda, qüvvədə olan qaydaya görə əsas fondların dəyəri amortizasiya normasına müvafiq olaraq yaradılan məhsulun üzərinə keçirilir. Buna görə də, əsas fonlardan məhsuldar istifadə (istismar) zamanı onların fiziki köhnəlməsi həm də iqtisadi köhnəlmədir. Başqa sözlə, əgər əsas fondların dəyərinin yaradılan məhsul üzərinə keçirilməsi onların istifadəsi ilə bir zamanda baş verirsə, bu, həm fiziki və həm, həm də iqtisadi köhnəlmədir.

İstehsal əsas fondları fiziki, mənəvi və iqtisadi köhnəlmə ilə yanaşı sosial cəhətdən də köhnəlirlər. Belə köhnəlmə, köhnə avadanlıqlara nisbətən istismarı fəhlə üçün daha rahat və cazibədar olan (səssiz, təhlükəsiz və s.) yeni avadanlıqların əmələ gəlməsində özünü göstərir.

Qeyri-maddi aktivlər əsas fondların bir növü kimi köhnəlmənin bütün növlərinə məruz qalmırlar. Qeyri-maddi aktivlərin fiziki əsasları olmadığından, onlar fiziki cəhətdən köhnələ bilməzlər; onlar yalnız mənəvi cəhətdən köhnəlirlər-mükəmməl və ucuz layihələr yarandığı hallarda əvvəlkilər mənəvi cəhətdən köhnəlirlər. Qeyri-maddi aktivlər-hesablamanın mürəkkəbliyi və çətinliyinə görə-bərpa dəyəri ilə qiymətləndirilmir. Onlar yalnız ilkin və qalıq dəyərinə görə planlaşdırılır və uçota alınırlar.

Əsas fondlar fiziki cəhətdən qismən və tam köhnəlirlər. Onların fiziki cəhətdən qismən köhnəlməsi cari, orta və əsaslı təmirlə aradan qaldırılır.

Cari təmir əsas fondları lazimi texniki istismar vəziyyətində saxlamaq üçün və həm də qısa vaxt ərzində aparılır.

Orta təmir zamanı maşın və avadanlıqlar qismən sökülür, onun işlənib korlanmış hissələri yenisi ilə əvəz olunur. Bu iş nisbətən əməktutumlu olduğundan, cari təmirə nisbətən çox vaxt tələb edir.

Əsaslı təmir-maşın və avadanlıqların tam sökülməsi, köhnəlmiş hissə və qovşaqların dəyişdirilməsi, detalların təmizlənməsi, yığılması və nizamlanması ilə əlaqədar işləri əhatə edir.

Fiziki cəhətdən köhnəlmiş, əsaslı təmir vasitəsilə bərpası iqtisadi cəhətdən sərfəli olmayan əsas fondlar istehsaldan çıxarılır və yenisi ilə əvəz olunur. Əsas

fondların yeniləşdirilməsi üçün maliyyə mənbəyi amortizasiya fondudur. Amortizasiya, köhnəlmə dərəcəsindən asılı olaraq, əsas fondun dəyərindən istehsal olunan məhsul üzərinə keçən hissəsidir ki, bu da istehsal olunmuş məhsul satıldıqca toplanır, müəssisənin maliyyə resursuna çevrilir.

Amortizasiya ayırmaları əsas fondların bütün xidmət müddətində onların balans dəyərindən (ilkin və bərpa) faizlə birqərarda (eyni vaxtda bir eyni məbləğdə) müəyyən edilə bilər. Amortizasiya ayırmaları əsas fondların istismarda, təmirdə olmasından və ya boş dayanmasından asılı olmayaraq onların dəyərinə görə faizlə hesablanır.

Müəssisə və firmalarda amortizasiya siyasəti amortizasiya normaları əsasında həyata keçirilir. Düzgün hesablanmış amortizasiya normaları əsas fondların hərəkətini (dövriyyəsini) sürətləndirir, onların təkrar istehsal prosesini intensivləşdirir. Əgər amortizasiya əsas fondun ilkin dəyəri əsasında hesablanarsa, aşağıdakı düsturun köməyilə hesablana bilər:

$$N = \frac{F-L}{T \times F} \times 100$$

Burada, N- amortizasiya norması, faizlə;

F-əsas fondun ilkin dəyəri, man.;

L-əsas fondun ləğv olunma dəyəri, man.;

T-əsas fondun faydalı istifadə müddəti, il.

Hazırda qruplar üzrə illik amortizasiya normaları aşağıdakı kimi müəyyən edilir:

- binalar, tikililər və qurğular-7%-dək;
- maşın, avadanlıq və hesablama texnikası-25%-dək;
- nəqliyyat vasitələri-25%-dək;
- iş heyvanları-20%-dək.

4. İstehsal firması və ya müəssisənin iqtisadi inkişafına və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə əsas fondların yalnız geniş təkrar istehsalı ilə deyil, həm də mövcud əsas fondlardan istifadə səmərəliliyini yüksəltməklə nail olmaq mümkündür. İstehsal əsas fondlarından istifadə edilməsinin səmərəliliyi bir sıra göstəricilərlə xarakterizə olunur. Bu göstəricilər ümumləşdirici (iqtisadi) və xüsusi (texniki və texniki-iqtisadi) göstəricilərə bölünür. Firmaların iqtisadi göstəriciləri bir çox texniki-təşkilati və iqtisadi amillərdən asılıdır və əsas fondlardan istifadənin son nəticəsini xarakterizə edir. Buraya **fondverimi və fondtutumu** göstəriciləri aid olunur.

Firma üzrə fondverimi həcm göstəricilərindən birinin-əmtəəlik, ümumi və ya xaluis məhsulun istehsal əsas fondlarının orta illik dəyərinə nisbəti kimi müəyyən edilir və bu, əsas fondların bir manatına düşən məhsul buraxılışını özündə əks etdirir. Fondverimi nə qədər yüksək olarsa, əsas fonlardan bir o qədər yaxşı istifadə olunar. Fondverimi (F_v) göstəricisi aşağıdakı düsturla hesablanır:

$$F_v=V/F_{əs}$$

Burada, V-il ərzində istehsal edilən məhsulun dəyəri, manatla;

$F_{əs}$-istehsal əsas fondlarının orta illik dəyəri, manatla.

İstehsal əsas fondlarının orta illik dəyəri onların ilin əvvəlinə və axırına olan dəyərlərinin yarısı kimi müəyyən edilir.

Fondveriminin əksi olan göstərici fondtutumu adlanır və buraxılan məhsulun hər manatına düşən istehsal əsas fondlarının (dəyərə görə) miqdarından ibarətdir. Fondtutumu aşağıdakı kimi hesablanır:

$$F_t=F_{əs}/V$$

Fondverimi göstəricisi istehsal əsas fondlarından istifadə səviyyəsini səciyyələndirir. Lakin, məsələn, o, əmtəəlik məhsula görə hesablanırsa, bu halda fondverimi göstəricisi məhsul istehsalına çəkilən xərclərin nisbi qənaətini nəzərə almır.

Buna görə də fondverimi göstəricisinin xalis məhsul əsasında hesablanması daha məqsədəuyğundur. Bundan başqa, fondverimi səviyyəsinin əməyin fondla silahlılığı (istehsal heyətinin hər nəfərinə düşən əsas fondların dəyəri) və əmək məhsuldarlığının (istehsal heyətinin hər nəfərinə düşənməhsulun dəyəri) artması nisbəti, məhsulun maya dəyərinin azalması və onun keyfiyyətinin yaxşılaşması, mənfəətin və rentabelliyin artması ilə müşayət olunmalıdır.

İstehsal əsas fondlarından, daha doğrusu, onun aktiv hissəsi olan istehsal avadanlıqlarından istifadə edilməsinin səmərəliliyini xarakterizə edən xüsusi (texniki) göstəricilər müxtəlif amillərdən, məsələn, vaxtdan, gücdən (vaxt vahidinə), təzələnmə dərəcəsindən və s. asılı olaraq əsas fondlardan istifadə səviyyəsini xarakterizə edir.

Avadanlığın ekstensiv yüklənməsi əmsalı (K_{ekst}) ondan vaxta görə istifadə səviyyəsini xarakterizə edir və eynitipli avadanlığın hər bir qrupu üzrə aşağıdakı düsturla müəyyən olunur:

$$K_{ekst}=F_{f.v}/F_n$$

Burada, $F_{f.v}$-avadanlığın faktiki iş vaxtı, saatla;

F_n-avadanlıqdan mümkün istifadə vaxtıdır (rejim, plan və ya həqiqi vaxt fondu), saatla.

5. İstehsal əsas fondlarından istifadənin səmərəlilik səviyyəsi öz əksini həm də istehsal gücündən istifadədə tapır. Firmanın istehsal gücü-müəyyən dövr ərzində (məsələn, ay, rüb, il) elm və texnikanın ən yeni nailiyyətlərnin, mütərəqqi texnoloji proseslərin və qabaqcıl istehsalat təcrübəsinin geniş tətbiqi, əməyin və istehsalın təşkilinin təkmilləşdirilməsi əsasında, mövcud istehsal fondlarından tam istifadə etməklə optimal nomenklaturada, çeşiddə və keyfiyyətdə müəyyən məhsul buraxılışı üzrə maksimum imkandır. İstehsal gücü ayrı-ayrı sexlər, aqreqatlar, xətlər üzrə də müəyyən edilir.

İstehsal gücü istehsal bölmələrinin (müəssisə, sex, istehsal sahəsi, iş yeri) il ərzində məhsul buraxmaq üzrə maksimum imkanlarını xarakterizə edən, istehsal potensialını əsaslandırmaq üçün çox qiymətli və hesablama metodikası nisbətən mürəkkəb olan texniki-iqtisadi göstəricidir.

İstehsal gücü il üçün bütün məhsulun nomenklaturası üzrə hesablanır. Hər bir məhsul növü üzrə istehsal gücü-natural ölçü vahidlərində, ayrı-ayrı məhsul növləri üzrə isə-dəyər və natural ifadədə müəyyən edilir. Geniş nomenklaturalı məhsul buraxan müəssisələrdə istehsal gücü hesablanarkən mövqelərin iriləşdirilməsi, yəni konstruktiv və texnoloji cəhətdən yekcins məmulatların təmsil olunan məmulatlarla birləşdirilməsi mümkündür.

Yeni işə salınmış müəssisə, sex və aqreqatların istehsal gücü layihə gücünə bərabər qəbul edilir. İstehsal gücü əsas istehsalın aparici sexlərinin gücünə görə müəyyən edilir; çünki bu sexlərdə əsas texnoloji proseslər yerinə yetirilir və onlar hazır məhsul buraxılışının təmin olunmasında həlledici əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatda 3 növ istehsal gücünü bir-birindən fərqləndirirlər.:

a) layihə gücü-tikinti layihəsinin texniki sənədlərindəgöstərilən istehsal gücü;

b) cari istehsal gücü-mənimsənilmiş istehsal gücü;

c) ehtiyat istehsal gücü.

Fasiləsiz istehsal prosesi əsasında işləyən müəssisələr üçün istehsal gücü-ildəki təqvim günlərinin sayı və günün uzunluğu əsasında hesablanır. Əsas sexləri iki və ya bundan az növbədə işləyən müəssisələr üçün istehsal gücü-avadanlığın ikinövbəli, bəzi müəssisələr üçün isə üçnövbəli iş rejimi əsasında müəyyən edilir.

İstehsal gücünü hesablayarkən yalnız onun həcminə təsiredici deyil, müəyyənedici və həlledici rol oynayan amillər nəzərə alınır. Həmin amillər aşağıdakılardır:

1. İl ərzində, istismara daxil edilən və istehsaldan götürülənləri nəzərə almaqla, qurulmuş avadanlıqların sayı;

2. İl ərzindəki dəyişikliklər nəzərə alınmaqla, istehsal meydançalarının sajhəsi;

3. Avadanlığın vaxt fondu;

4. Avadanlığın qabaqcıl, texniki cəhətdən əsaslandırılmış məhsuldarlıq norması və məhsulun əməktutumluğu.

6. İstehsal əsas fondlarından istifadənin yaxşılaşdırılmasının iqtisadi əhəmiyyəti olduqca böyükdür. Onlardan səmərəli istifadə olunduqda məhsul buraxılışı artır və beləliklə, məhsul vahidi istehsalına sərf edilən maddiləşmiş əməyin miqdarı (konkret olaraq istehsal əsas fondlarını təmsil edən amortizasiyanın məbləği) azalır. Məlumdur ki, istehsal əsas fondlarına hesablanan

amortizasiya ayırmaları istehsal həcmindən asılı deyil və istehsal əsas fondlarının ömür müddətinə görə hesablanır.

Əsas istehsal fondlarının sabit qaldığı şəraitdə onlardan istifadəni yaxşılaşdırmaqla məhsul istehsalının artırılması yeni əsas fondlar yaratmadan (əsaslı tikinti yolu ilə) istehsalın genişləndirilməsinə bərabər hesab olunur. Buradan belə nəticə çıxır ki, əsas fondlardan istifadənin yaxşılaşdırılması yeni əsas fondların yaradılmasına tələbatı azaltdığına görə əsaslı vəsait qoyuluşlarına qənaət etməyə imkan yaranır.

Əsas fondlardan istifadənin yaxşılaşdırılması onların dövriyyəsinin sürətlənməsi deməkdir. Nəticədə, il ərzində əsas fondların vahidindən alınan məhsulun miqdarı artır ki, bu da istehsal gücünün nisbi mənada genişləndirilməsi deməkdir.

Müəssisədə əmək vasitələrindən istifadənin yaxşılaşdırılması iki yolla: ekstensiv və intensiv istifadə yolları ilə həyata keçirilir. Əmək vasitələrindən ekstensiv istifadənin əsas istiqamətləri onlara texniki xidmətin səmərəli təşkili, keyfiyyətli təmir, təmir müddətinin azaldılması, boşdayanmaların (günərzi, növbəboyu və növbədaxili) minimuma endirilməsi və s-dir. Əmək vasitələrindən intensiv istifadə isə prosesə az canlı əmək tətbiq etmək yolu ilə vaxt vahidi ərzində istehsal edilən məhsulun (görülən işin həcminin) və xidmətin miqyasca çoxaldılmasıdır. Bu halda əmək vasitəsinin texniki parametrlərindən-gücündən, sürətindən-yüksək səviyyədə istifadə olunur.

Avadanlıqlardan ekstensiv istifadə dedikdə, avadanlığın işləmə müddətinin uzadılması, onlardan vaxta görə istifadənin yaxşılaşdırılması nəzərdə tutulur. Buna aşağıdakılar aiddir:

- avadanlığa səriştəli texniki qulluq olunması, onun vaxtında və keyfiyyətlə təmir edilməsi, iş yerinin materiallarla fasiləsiz təchizi, texnoloji prosesin düzgün təşkili. Bütün bunlar boşdayanmalara, qəzalara yol verməməyə, avadanlığın işləmə vaxtını artırmağa imkan yaradır;
- müəssisələrdə ayrı-ayrı istehsal sexləri və sexlər arasında aşkar edilən uyğunsuzluqların aradan qaldırılması;
- hazırlıq-tamamlama işlərinə və köməkçi əməliyyatlara vaxt sərfinin azaldılması.

Avadanlıqlardan gücə görə istifadə avadanlığın iş intensivliyinin artırılmasına əsaslanır. Avadanlıqdan istifadənin intensivlik göstəricisi vaxt vahidində hər bir avadanlıq üzrə istehsal olunan məhsulun miqdarı, başqa sözlə, yerinə yetirilən işin kəmiyyətidir.

İstehsal firmasının dövriyyə fondları və dövriyyə vəsaitləri

1. Dövriyyə fondlarının iqtisadi mahiyyəti və onların tərkibi
2. Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri

1. Əmək predmetləri istehsal vasitələrinin tərkib hissələrindən biri olmaqla dəyər formasında **dövriyyə fondları** adlanır. Dövriyyə istehsal fondları istehsal vasitələrinin elə ünsürlərindən ibarətdir ki, onlar əmək prosesinə daxil olmaqla hər bir istehsal tsiklində tamamilə istehlak olunur, həmin tsikldə öz dəyərlərini bütünlüklə yaradılan məhsulun üzərinə keçirir və özlərinin natural formalarını dəyişirlər.

Dövriyyə istehsal fondları, əsas fondlardan fərqli olaraq, istehsal olunan məhsul üzərinə öz dəyərlərini bir dəfəyə və tamamilə-yanacaq, enerji və köməkçi materialların bir qismi istisna olmaqla-özlərinin maddi-əşya formalarına xas olan fiziki-kimyəvi xüsusiyyətlərini də keçirirlər.

İstehsal firması və ya sənaye müəssisənin dövriyyə fondları özlərinin təyinatına, yaradılma zəruriliyini müəyyən edən şərait və amillərin müxtəlifliyinə görə üç hissəyə bölünür və bunlar aşağıdakılardır:

1. **İstehsal ehtiyatları**-bu, istehsalçı müəssisə tərəfindən alınmış, özünün əmlakı kimi istehsal prosesi üçün hazırlanmış və onun (istehsalın) fasiləsizliyini təmin etmək məqsədilə həmin prosesə daxil olmağı gözləyən xammal, material, yanacaq və s.-dən ibarətdir.
2. **Bitməmiş istehsal və özünün istehsalı olan yarımfabrikatlar**-bu, artıq texnoloji prosesə buraxılmış və emalın müəyyən mərhələsində olan material, istehsalı hələ başa çatdırılmamış hissə, bağlama və məmulatlar və habelə özünün istehsalı olan yarımfabrikatlardır.
3. **Gələcək dövrün xərcləri**-bu, dövriyyə fondlarının qeyri-maddi ünsürləri kimi, məsələn yeni məhsulun layihələndirilməsi və nümunəsinin yaradılması, onun istehsalı üçün yeni texnologiyanın işlənməsi və tətbiqi və s. ilə əlaqədar xərclərdir ki, cari dövrdə çəkilsələr də, gələcəkdə istehsal olunacaq məhsulun maya dəyərinə daxil edilməklə geri qaytarılır.

İctimai əmək bölgüsü nəticəsində bir müəssisənin istehsal etdiyi məhsulun digər müəssisə üçün istehsal vasitəsinə çevrildiyi şəraitdə istehsalın vaxtı, məkanı və həcmi istehlakın uyğun göstəricilərindən fərqlənir. Belə bir vəziyyətdə istehsal prosesinin fasiləsizliyi yalnız dövriyyə fondlarının müəyyən hissəsinin onların hərəkətinin müxtəlif mərhələlərində yığımı ilə təmin edilə bilər.

İstehsal-texniki təyinatlı əmək məhsullarının istehlakçı müəssisələrdə bu cür yığımı istehsal vasitələrindən ehtiyatlar və ya **istehsal ehtiyatları** adlanır.

Ehtiyatların həcmi həm mütləq, həm dəyər və həm də nisbi ölçülərlə hesablana bilər. Ehtiyatın mütləq ölçüsü natural şəkildə ton, sentner, metr, ədədlə, başqa

sözlə, materialın ölçülə biləcəyi fiziki vahidlərlə müəyyən edilir. İstehsal ehtiyatları həcminin mütləq ölçülərdə öyrənilməsinin əhəmiyyəti ondadır ki, bunun vasitəsilə anbar təsərrüfatının səmərəli təşkilinə, xüsusilə maddi-texniki təchizatın planlaşdırılmasının həyata keçirilməsinə, başqa sözlə, materiala tələbatın hesablanmasına nail olmaq mümkün olur.

İstehsal ehtiyatlarının həcmi dəyər ölçüsü ilə də qiymətləndirilir. Ehtiyatın mütləq həcminin, onu təşkil edən material vahidinin qiymətinə vurulması yolu ilə ehtiyatın dəyər ölçüsündə miqdarı tapılır. Ehtiyatın həcminin qiymət ölçüsündə tapılması, istehsalın dəyər göstəricilərinin planlaşdırılmasında, maliyyə planının tərtibində, istehsalın rentabelliyinin hesablanmasında və s.-də böyük əhəmiyyət kəsb edir.

İstehsal ehtiyatları həm də nisbi ölçülərlə müəyyən olunur. Bu halda ehtiyatın kütləsi (çəkisi)və dəyəri heç bir rol oynamır.

Bitməmiş istehsal, artıq qeyd olunduğu kimi, bir sıra əməliyyatlara məruz qalmış, lakin bəzilərindən hələ keçməmiş, istehsal prosesinin bütün mərhələlərindəki bitirilməmiş, tamamlanmamış "məhsulların" dəyəridir. Müəssisənin özünün istehsalı olan yarımfabrikatların dəyəri də bitməmiş istehsalın dəyərinə daxil edilir.

Gələcək dövrün xərcləri isə, cari xərclər kimi nəzərdə tutulmuş və müasir dövrdə sərf olunan, lakin gələcəkdə xərc kimi məhsulun maya dəyərinə daxil edilməklə geri qaytarılan xərclərdir. Başqa sölə, gələcək dövrün xərcləri dövriyyə fondlarının əşya formasında olmayan-qeyri-maddi ünsürü olmaqla-yeni texnoloji istehsal üsulunun işlənib hazırlanması, yeni növ məhsulun mənimsənilməsi, ilə bağlı çəkilən, lakin gələcəkdə məhsulun maya dəyəri vasitəsilə istehsal xərci kimi uçota alınan pul vəsaitidir. Müəssisənin dövriyyə fondları tərkibinə görə istehsal ehtiyatları, bitməmiş istehsal və özünün istehsalı olan yarımfabrikatlar və bir də qeyri-maddi ünsürü olan gələcək dövrün xərclərindən ibarətdir.

Dövriyyə fondları istehsal prosesində istehlak olunmaqla hazır məhsula, sonuncu isə realizə edilərək müəssisənin pul vəsaitinə çevrilir. Məhsul satışından əldə olunan pul vəsaiti müəssisənin əvvəlki mərhələdə dövriyyə fondlarına sərf etdiyi pul vəsaitindən mənfəətin kütləsi qədər çox olur. Bu prosesin ahəngdar getməsi üçün yeni tədavül və istehsal mərhələlərinin ardıcıllıqla birindən-digərinə "keçidi" tədavil fondları vasitəsilə mümkün olur.

Tədavül fondları tədavül sferasına xidmət etməklə müəssisənin anbardakı hazır məhsuldan, yola salınmış, lakin haqqı ödənilməmiş əmtəələrin dəyərindən, hesablaşmalardakı və bankların cari hesablarda olan pul vəsaitlərindən və debitor borclarından ibarət olur. Tədavül və istehsal dövriyyə fondlarının cəmi dövriyyə vəsaitləri adlanır. Dövriyyə vəsaitlərinin dövriyyə

fondları bilavasitə istehsalla, məhsul istehsalı ilə bağlıdırsa, tədavül fondları isə istehsal olunmuş məhsulun istehlakçıya çatdırılması ilə bağlı xərclərdir.

Dövriyyə vəsaitləri normalaşdırılan və normalaşdırılmayan qruplara bölünür. Normalaşdırılan dövriyyə vəsaitlərinə dövriyyə fondları və tədavül fondlarının tərkib hissəsi olan anbardakı hazır məhsul daxildir. Tədavül fondlarının qalan ünsürlərini normalaşdırmaq imkan xaricində olur.

2. Dövriyyə vəsaitlərindən istifadə səviyyəsini öyrənmək üçün **iqtisadi və texniki-iqtisadi göstəricilər sistemindən** istifadə olunur. Material vəsaitlərindən və dövriyyə vəsaitlərinin digər ünsürlərindən səmərəli istifadə edilməsi, nəticədə ümumiləşdirici bir göstərici olan dövriyyə vəsaitlərinin dövr sürətini artırır. Dövriyyə fondlarından istifadənin yaxşılaşdırılması iqtisadi cəhətdən böyük səmərə verir. Məhsul vahidinin hazırlanmasına maddi-enerji ehtiyatları sərfinin azaldılması, eyni miqdarda istehsal ehtiyatlarından daha çox məhsul istehsal etməyə, onun maya dəyərini və materialtutumunu aşağı salmağa, müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırmağa və s. imkan verir.

Ayrı-ayrı ünsürlərin deyil, dövriyyə vəsaitlərindən bütünlükdə istifadə səmərəliliyi üç əsas göstərici ilə-**dövretmə əmsalı (dövretmələrin sayı), dövriyyə vəsaitlərinin yüklənmə əmsalı və bir dövriyyənin uzunluğu ilə** (günlərlə)-xarakterizə olunur.

Dövriyyə vəsaitlərinin **dövretmə əmsalı** realizə olunmuş məhsulun həcminin (əlavə edilmiş dəyərin satılmış hissəsi) dövriyyə vəsaitlərinin orta qalığına (illik, rüblük) nisbəti kimi hesablanır və bunun üçün aşağıdakı düsturdan istifadə olunur:

$$\square_{d\square} = \frac{\mathbf{R}}{\mathbf{D_{or}}}$$

Burada, $\square_{d\square}$ - dövriyyə vəsaitlərinin dövretmə əmsalı-il (rüb, ay) ərzində dövretmələrin sayıdır;

R-topsdansatış qiymətində realizə olunmuş məhsulun həcmidir, manatla;

D_{or}- dövriyyə vəsaitlərininorta illik (rüblük, aylıq) qalığıdır, manatla.

Dövriyyə vəsaitlərinin **orta illik qalığını** hesablamaq üçün onların ilin əvvəlinə və axırına olan qalıqlarının yarısının üzərinə ilin aylarının (ilin I ayı istisna olmaqla) əvvəlinə olan qalıqları əlavə edilib, nəticəni ildəki ayların sayına bölürlər.

Dövriyyə vəsaitlərinin **yüklənmə əmsalı** dövretmə əmsalının tərsi kimi hesablanır və o 1 manatlıq realizə olunmuş məhsula sərf edilmiş dövriyyə vəsaitlərinin həcmini səciyyələndirir. Bunun üçün aşağıdakı düsturdan istifadə olunur:

$$\square_{y} = \frac{D_{or}}{R}$$

Burada, $\square_{y}$ − dövriyyə vəsaitlərinin yüklənmə əmsalıdır.

Dövriyyə vəsaitlərinin bir dövriyyəsinin gün hesabı ilə uzunluğu göstəricisi (il, rüb,ay) günlərin sayının dövretmə əmsalına bölünməsi yolu ilə hesablanır və aşağıdakı düsturdan istifadə olunur:

$$\mathbf{Y_k} = \frac{\mathbf{T}}{\mathbf{d}}$$

Burada, Y_k - dövriyyə vəsaitlərinin bir dövriyyəsinin gün hesabı ilə uzunluğudur;

T-dövrdəki günlərin sayıdır (il-360 gün, rüb-90 gün və ay-30 gün).

Firmanın idarəetmə mexanizmi və onun təşkilati quruluşu

1. İdarəetmənin mahiyyəti və prinsipləri

2. İdarəetmənin funksiyaları və onların təsnifatı

3. İdarəetmənin metodları və onların tətbiqi istiqamətləri

4. Firmanın idarəetmə mexanizminin təşkilati quruluşu

1. İdarəetmə insanların şüurlu şəkildə ətraf mühitə, canlı və cansız təbiətə, texnika və texnologiyaya, istehsal heyətinə təsir etməklə hadisə və prosesləri öz axarına yönəltmək yolu ilə zəruri olan, ehtiyac duyulan nəticələrə nail olmaqdır. İdarəetmə qarşıda qoyulan məqsədlərə lazimi müddətdə-müəyyən vaxt intervalında-minimum maddi və əmək resurslarının sərfi ilə nail olmağa yönəldilmiş idarəetmə subyekti ilə istehsal heyətinin birgə həyata keçirdikləri tədbirlər sistemidir. İdarəetmədə qarşıya qoyulan məqsədlər bir sıra tələblərə cavab verməlidir ki, bunlara da aşağıdakılar daxildir:

- məqsədlərin uzlaşması, vəhdətdə olması və bir-birinə zidd olmaması;
- real olması (yerinə yetirilməsinin mümkün olması);
- icraçılar üçün aydın olması;
- çevik olması.

Müasir dövrdə istehsal və idarəetmə sisteminin dəyişən şəraitə uyğunlaşması üçün xarici mühitin dəyişməsinə dair proqnozlar əldə olunmalı və məqsədlər bu proqnozlara uyğun dəqiqləşdirilməlidir. Bu, strateji idarəetmə prinsiplərinə əsaslanır və onların vasitəsilə həyata keçirilir. **Strategiya**-kifayət qədər uzun müddət üçün müəyyən edilmiş, rəqabət üstünlüklərinin və səmərəliliyin artırılması əsasında stabil iqtisadi göstəricilərə və bu göstəricilərin artımına nail olmağa imkan verən istiqamətlərin, fəaliyyət qaydaları və normalarının məcmusudur. Qeyd edək ki, insanlarla, predmetlərlə və informasiyalarla işləmək idarəetmənin bilavasitə vəzifələridir.

Firma və müəssisənin məqsədlərinə gəlincə, onlar idarəetmənin bütün elementləri ilə əlaqəlidir və qarşılıqlı asılılıqdadırlar.

İdarəetmənin məqsədlərinin onun elementləri ilə qarşılıqlı əlaqəsi



Firmanın idarə olunması müəyyən prinsiplərə əsaslanır və bu prinsiplərdə firmaya rəhbərliyin əsas qaydaları, idarəetmə orqanlarının təşkilati quruluşu və onların iş üslubu qarşısında qoyulan tələblər, inzibati idarəetmə orqanlarının əmək kollektivləri ilə qarşılıqlı əlaqələri, firmanın müxtəlif idarəetmə oillələri arasındakı münasibətlərin forma və üsulları öz əksini tapır. Fransız iqtisadçı A.Fayol idarəetmənin aşağıdakı prinsiplərini irəli sürmüşdür:

1. İdarəetmədə əmək bölgüsü; 2. Səlahiyyət və məsuliyyət; 3. İntizam; 4. Təkbaşınaçılıq; 5. İstiqamətlərin vəhdəti; 6. Şəxsi mənafelərin ümumi mənafeyə tabe olması; 7. Heyətin mükafatlandırılması; 8. Mərkəzləşdirmə; 9. Qayda; 10. Ədalət prinsipi; 11. Heyət üçün iş yerinin stabilliyi; 12. Təşəbbüskarlıq; 13. Korporativ (müttəfiqlik) əhval-ruhiyyəsi.

Vəzifə həvalə olunmuş fərdin-rəhbər işçinin məsuliyyətinin reallığı ona verilmiş səlahiyyətlərdən birbaşa asılıdır. Səlahiyyət dedikdə, firma əməkdaşının resurslardan istifadənin hüquq məhdudluğu şəraitində onun qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsinə təhrik olunması başa düşülür. Səlahiyyət fərdin özünə deyil, onun icra etdiyi (tutduğu) vəzifəyə aiddir. Hər hansı bir işin yerinə yetirilməsinin səmərəli idarə edilməsi və arzu olunan nəticənin alınması üçün səlahiyyətlə məsuliyyətin optimal nisbətləri düzgün müəyyən edilməlidir.

2. İdarəetmə funksiyası firma və müəssisənin qarşıya qoyulmuş məqsədlərinin reallaşdırılması üçün həyata keçirdiyi fəaliyyətinin özünəməxsus növüdür və funksional əmək bölgüsündən irəli gəlir.**Planlaşdırma** idarəetmənin əsas funksiyası kimi, məqsədlərin müəyyən edilməsi, problemin təhlili, proqnozlaşdırma, alternativ variantların müəyyən olunması, qəbul edilmiş qərarların qiymətləndirilməsi mərhələlərini əhatə edir. Planlaşdırma firmanın gələcək inkişafını müəyyən edir, onun qarşısında qoyulmuş sosial-iqtisadi məqsədlərə nail olmanın yolları və metodlarını müəyyənləşdirir, nəzərdə tutulmuş

tədbirlərin həyata keçirilməsinin nəticələrini əvvəlcədən qiymətləndirməyə imkan verir. İdarəetmənin funksiyalarından biri **təşkiletmə funsiyası**dır. Bu funksiya istehsal proseslərinin həyata keçirilməsi istiqamətlərinin təşkilində mühüm rol oynayır. Təşkiletmənin vəzifəsi müəssisədə ayrı-ayrı fəaliyyət növlərinə, şəxslərə və maddi vasitələrə münasibətləri elə formalaşdırmaqdan ibarətdir ki, qarşıya qoyulmiş məqsədlərə çatmaq ən az xərclə mümkün olsun. Bunun təmin olunması üçün isə təşkilati forma və modellərdən istifadə edilir və onların seçilməsi zamanı qarşıya qoyulmuş məqsədlər əsas götürülür. Müəssisədə planlaşdırmadan sonra planların yerinə yetirilməsi mərhələsi gəlir. Sonrakı mərhələ **nəzarət və plandan** kənarlaşmaların təhlilidir. Nəzarət plan göstəriciləri ilə faktiki göstəricilər arasındakı kənarlaşmaları aşkar edir, təhlil isə bu kənarlaşmaların səbəblərini müəyyənləşdirir. Nəzarət və təhlilin nəticələri planlaşdırma üçün informasiya verir, bu baxımdan informasiyanın uçota alınması vacib məsələdir.

Uçot-müəssisənin idarə olunması üçün informasiyanı təqdim edən sistemi əks etdirir. **Mühasibat uçotu**-müəssisənin informasiya sisteminin əsasını təşkil edir. Əldə edilən informasiyanın keyfiyyəti uçotun dəqiq təşkil olunmasından, xüsusilə də təsərrüfat əməliyyatlarının kəmiyyət tərəfinin düzgün və dolğun əks etdirilməsindən asılıdır. Müəssisədə qarşılıqlı mühitlə qarşılıqlı əlaqələr maliyyə uçotunda (kapital, əmlak, xərclər və mədaxil üzrə məlumatlar) əks olunur, illik balans, mənfəət və zərər hesabatlarında ümumiləşdirilir.

Planlaşdırma və təşkiletmə funksiyaları ilə yanaşı idarəetmənin **koordinasiya** funksiyası da ən vacib funksiyalardan biridir. **Koordinasiya** funksiyası idarəetmənin planlaşdırma funksiyası ilə daha çox əlaqəsi olan funksiyadır. Bu funksiya bütöv bir tamın ayrı-ayrı komponentlərinin əlaqəli fəaliyyəti, qarşılıqlı təsiri və onun bir sistem kimi dinamik, tarazlı inkişafını təmin etməyə xidmət göstərir. Bu funksiya hadisə və proseslərə sistemli təhlil mövqeyindən yanaşmağı zəruri edir.

İdarəetmənin funksiyaları içərisində **tənzimləmə** mühüm əhəmiyyətə malikdir. **Tənzimləmə** idarəetmə sisteminin müəyyən qaydalı və ahəngdar inkişafının təmin olunması ilə əlaqədardır. Başlıca məsələ idarəetmə proseslərinin, idarəetmə fəaliyyətinin verilmiş normativlərdən kənarlaşma hallarının aradan qaldırılmasıdır. Burada etolon səciyyəli norma və normativlər nəzərə alınmalıdır. Həmin normativlərlə faktiki vəziyyətin müqayisəsi qeyri-bərabər, yaxud bərabər inkişafı müəyyən etməyə əsas verir. Ona görə də istehsal, iqtisadi sistemdə planauyğun fəaliyyətlə yanaşı, bəzi hallarda tənzimləmə tədbirlərindən də istifadə olunmasına ehtiyac yaranır.

3. İdarəetmənin metodları istehsal-təsərrüfat fəaliyyətinin həyata keçirilməsinə xidmət edir və idarəetmə funksiyalarının icrası ilə bilavasitə bağlı

olur. Bütövlükdə, idarəetmə metodları üç qrupa: **iqtisadi, inzibati və sosial-psixoloji** metodlara bölünürlər.

İdarəetmənin iqtisadi metodları istehsal münasibətlərinin, obyektiv iqtisadi qanunların dərindən dərk olunması, onlardan geniş istifadə edilməsi əsasında həyata keçirilir. Təsərrüfatçılığın iqtisadi vasitələri olan əmək haqqı, qiymət, kredit, gəlir və mənfəət, vergi və s. iqtisadi metodun mexanizminə daxildirlər Bir metod kimi əmək haqqı işçini daha yaxşı, mümkün qədər səmərəli işləməyə, özünün ixtisas səviyyəsini yüksəltməyə və peşəsini təkmilləşdirməyə sövq edir. Mənfəət və ya gəlir müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin ümumiləşdirici yekun göstəriciləridir.

Firma və müəssisənin idarə edilməsinin **inzibati metodlarının** mahiyyəti idarə olunan obyektə birbaşa təsir göstərmək, onun üçün təsərrüfat tapşırıqları və bunların yerinə yetirilməsi vaxtını müəyyən etmək və resurslar ayırmaq; icraçı üçün yerinə yetirilməsi hökmən məcburi olan birmənalı qərarlar vermək; sərəncam, göstəriş və qərarların inzibati xarakter daşıması və onların yerinə yetirilməməsinin intizamsızlıq kimi qiymətləndirilməsindən ibarətdir. İnzibati metodlardan dövlətin qanunları, sahibkara verilən səlahiyyətə, hüquqa, əmək qanunvericiliyinə və başqa qaydalara əsasən istifadə edilir. Bu metodun təsir vasitələri qərar, əmr, qayda, təlimat, normativlər və s.-dən ibarətdir. Bu vasitələr idarəetmənin daha çevik təsir vasitəsi olub, idarəedən və idarə olunan sistemlərin qarşılıqlı əlaqələrini, onların tənzimlənməsi qaydalarını müəyyən edir.

İdarəetmənin sosial-psixoloji metodları öz məzmununa görə işçilərin əməyə maraqlarının və yaradıcılıq təşəbbüslərinin artırılması, müəssisədə istehsal mədəniyyətinin yüksəldilməsi, işçi heyətinin təsərrüfat fəaliyyətinə və onun təşkilinə təsirindən və başqa bu kimi aspektlərdən ibarətdir; sosial-psixoloji metodlarda, habelə əxlaq normaları və tərbiyəvi motivlərin də payı vardır. İstehsalın texniki səviyyəsi yüksəldikcə, iş şəraiti yaxşılaşdıqca, işçilərin xüsusi peşə təhsili artdıqca, dünyagörüşləri genişləndikcə, onların sosial fəallığı artır, işlədikləri müəssisənin idarə olunmasında daha yaxından iştirak edirlər. İdarəetmə prosesində işçilərin hərəkətini elmi cəhətdən izah etmək, bu davranışın proqnozunu vermək çox önəmli bir məsələdir. Müəssisənin rəhbərliyi qeyd olunan cəhətləri bilməklə tabeçiliyində olan işçilərin hər birində daha səmərəli işləmək üçün ən yaxşı psixoloji keyfiyyətləri aşılamaqla inkişaf etdirə bilməsi istehsalın səmərəliliyinin artırılmasında böyük rol oynayır. Müəssidə qarşılıqlı anlaşma və sağlam münasibətlərin tənzim edilməsində ictimai davranış normaları, əxlaq normaları və ictimai rəyin formalaşdırılması mühüm rol oynayır. Həmin normalar və ictimai rəy sosial-psixooji amillərlə birlikdə qarşlıqlı münasibətlərə əhəmiyyətli dərəcədə təsir göstərir, bu münasibətləri bir növ özü-özünə idarə olunan prosesə çevirir və beləliklə də, idarəetmə sisteminin daha da demokratikləşməsinə səbəb

olur. Bu vasitələrdən birinə misal olaraq müəssisədə əmək kollektivinin konüllü qəbul etdiyi **etika kodeksini** göstərmək olar. **Etika kodeksi** kollektiv daxilində qarşılıqlı münasibətlərin ictimai tənzimlənməsi vasitəsi kimi idarəetmənin sosial-psixoloji amilinin "təlimatçısı" rolunu oynayır.

4. Rəhbər kadrların və mütəxəssislərin seçilməsi və yerləşdirilməsi, onların əməyinin təşkili, əməyin iyerarxiyası və funksional bölgüsünün formalaşması, idarəetmə orqanları aparatının quruluşunun müəyyənləşdirilməsi və işçilərin sayının müəyyən olunması idarəetmənin təşkilati sisteminə daxildir. **İdarəetmə prosesi**-idarə olunan obyektin qarşısında duran vəzifələrin müəyyən edilmiş müddətə və ehtiyatlardan səmərəli istifadə etməklə yerinə yetirilməsinə yönəldilmiş idarəetmə qərarlarının əsaslandırılması, qəbul edilməsi və icrasının təşkili məqsədilə qarşılıqlı əlaqədə və müəyyən ardıcıllıqla yerinə yetirilən müxtəlif xarakterli əmək və maşın əməliyyatlarının kompleksi kimi başa düşülür.

İdarəetmənin **xətti quruluşu** obyektlər üzrə rəhbərlərin ayrılmasını göstərir ki, bunlardan hər biri bütün növ işləri yerinə yetirir, həmin obyektin idarə edilməsi ilə əlaqədar olan bütün qərarları işləyib hazırlayır və qəbul edir. Belə quruluş xalis şəkildə idarəetmənin yalnız ən aşağı pillələrində (briqada, istehsalat sahəsi) tətbiq edilir.

İdarəetmənin **funksional quruluşunda** kollektivin idarə edilməsinə dair bütün iş növləri müxtəlif funksional bölmələr arasında bölüşdürülür və bu bölmələrdən hər biri müəyyən işləri yerinə yetirir. İdarəetmə quruluşunun bu tipində idarəetmənin ixtisaslaşdırılması daha dolğun həyata keçirilir. Əmək kollektivi daha ixtisaslı və əsaslandırılmış qərarlar alır. Lakin bu halda çox vaxt kollektivə müxtəlif funksional bölmələrdən bir-birinə zidd göstərişlər gəlir, vahid rəhbərlik pozulur, əmək kollektivinin fəaliyyətinin ümumi istiqaməti itir. Bu sistem vahid rəhbərlik prinsipinə uyğun olmadığına görə bütün hallarda tətbiq edilmir.

İdarəetmənin **xətti-funksional** quruluşu daha geniş yayılmışdır. Belə quruluşda idarəetməni bütünlükdə müəyyən kollektivə başçılıq edən xətti rəhbərlər həyata keçirirlər. Ayrı-ayrı qərarları hazırlayarkən xətti rəhbərə ixtisaslaşmış funksional aparat kömək edir. Bu aparat aşağıdakı vəsilələrə aid qərarları bilavasitə özü qəbul etmir. O, xətti rəhbərin tabeliyindəki qərargah hüququnda işləyir və qərarların hazırlanması prosesində ona kömək edir.

İdarəetmənin **xətti-funksional** quruluşu

İstehsalın müasir inkişaf mərhələsində iri təşkilatlar çərçivəsində idarəetmənin qərargah sistemində qeyri-qənaətbəxşlik meydana çıxır. İşləri əlaqələndirmək və ən məhsul qərarların yerinə yetirilməsinə nəzarət etmək zərurəti

meydana çıxır. Buna idarəetmənin **matris quruluşunu** tətbiq etmək yolu ilə nail olurlar.

Matris quruluşda xətti rəhbərlərlə və funksional quruluşu aparatla yanaşı bir də aparatın predmet üzrə ixtisaslaşmış vəsilələri fəaliyyət göstərirlər. Bu vəsilələrə hər hansı bir obyektin hazırlanma prosesini və ya tədqiqat insitutunda mövzunun tədqiq edilməsini idarə etmək təhkim olunur.

İdarəetmənin təşkilati quruluşunun matris tipinin bir sıra üstünlükləri vardır: ondan istifadə etdikdə istehsal fəaliyyətinin məzmununu təşkil edən hər üç parametrə-bölmələrə, idarəetmə funksiyalarına və predmetlərə rəhbərlik təmin edilmiş olur.

Bir sıra hallarda idarəetmənin **proqramlı-məqsədli təşkilati quruluşu** da tətbiq olunur. Bu təşkilati quruluşda idarəetmə orqanlarının əsasını müəyyən məqsədli vəzifənin yerinə yetirilməsi təşkil edir. Bütün qalan bölmələrin fəaliyyəti isə həmin vəzifənin həyata keçirilməsinə yönəldilir.

Firmanın investisiya fəaliyyəti və innovativ inkişafı

1. İnvestisiyanın mahiyyəti, tərkibi, quruluşu

2. Firmanın investisiya fəaliyyəti, layihələrin qiymətləndirilməsi metodları

3. İnvestisiya səmərəliliyinin yüksəldilməsi yolları

4. İnnovasiyanın mahiyyəti və növləri

1. İnvestisiya latınca “invest” sözündən olub, tərcüməsi “geyindirirəm” mənasını verir. **İnvestisiya mənfəət, gəlir və ya müəyyən sosial iqtisadi səmərə əldə olunması məqsədilə sahibkarlıq və yaxud digər fəaliyyət növləri obyektlərinə uzun müddətə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.** Belə vəsait və sərvətlərə aşağıdakılar aid olunur:

- pul, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və başqa qiymətli kağızlar;

- daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və s.);

- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;

-bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi

təryib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu (“nou-hau”);

- torpaqdan, sudan və digər təbii ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn başqa əmlak hüquqları;

- başqa sərvətlər.

Maliyyə baxımından investisiya-mənfəət əldə edilməsi məqsədilə iqtisadi fəaliyyətə yönəldilən bütün növ aktivlərdir. İqtisadi baxımdan isə investisiya-əsas fondlarının (müəyyən hallarda hətta dövriyyə) yaradılmasına, genişləndirilməsinə, yenidən qurulmasına və rekonstruksiyasına çəkilən xərclərdir. **Firmanın investisiya fəaliyyəti** özünün istehsal-kommersiya potensialını möhkəmləndirmək və daha da inkişaf etdirməyə yönəldiləcək kapital qoyuluşunun ən sərfəli forma və variantının seçilməsi, əsaslandırılması və realizə edilməsi prosesidir. **İnvestisiyanın obyektləri**-kapital qoyuluşunun istiqamətləri bunlardır: bütün sahələrdə yeni yaradılan və təkmilləşdirilən əsas fondlar, dövriyyə vəsaitləri; qiymətli kağızlar; məqsədli pul yatırımları; elmi-texniki məhsullar, mülkiyyətin digər obyektləri; əmlak hüququ və intellektual mülkiyyət hüquqları. **İnvestisiyanın subyektləri**-investisiya prosesinin iştirakçıları: investorlar, iş icraçıları, investisiya fəaliyyətindən istifadə edənlər, əmtəələr, avadanlıq və layihə məhsullarını təqdim edənlər, banklar, sığorta şirkətləri və vasitəçi təşkilatlardır. İnvestisiya vəsaitləri müxtəlif formalarda yerləşdirilə bilər və onlar müəyyən əlamətlərə görə fərqlənirlər:

- qiymətli kağızlara (səhmlərə və opsionlara) və daşınmaz əmlaka yönəldilən investisiya;

- borc öhdəliklərinə yönəldilən investisiya;

- az və ya çox risk dərəcəsinə malik olan investisiya;

- uzun və qısamüddətli investisiya;

- birbaşa (real) və portfel investisiyalar.

Birbaşa investisiya “portfel” investisiyadan fərqli olaraq firmanın fəaliyyətinə və idarə edilməsinə birbaşa təsir etmək imkanını verir. Birbaşa investisiyalar investorun müəssisənin fəaliyyətində maraqlı olmasına gətirib çıxarır. **Portfel investisiyalar**-investisiya portfelinin formalaşdırılması üçün qiymətli kağızların alınması ilə əlaqədarlayihələrə vəsait qoyuluşudur. Portfel investisiyalar isə investor qoyulan vəsaitin gəlirliyində maraqlı edir. Bu halda investorun əsas

vəzifəsi optimal investisiya portfelinin formalaşdırılması və səmərəli idarə edilməsidir. **Real investisiyalar**-əsasən istehsal vasitələrinə, istehsal, sosial və infrastruktur obyektlərinə, istehsal prosesinə uzunmüddətli vəsait qoyuluşudur. Real investisiyaları birbaşa investisiyalar da adlandırırlar. **İnvestor dedikdə**, özünün maddi və intellectual sərvətlərinin birbaşa və yaxud dolayı şəkildə investisiya obyektlərinə qoyulması haqqında qərar çıxarmış subyektlər-hüquqi və fiziki şəxslər başa düşülür.

Firmada əsaslı vəsait qoyuluşu yeni sex və istehsal vasitələri yaratmaqla yanaşı, həm də fəaliyyət göstərənlərin genişləndirilməsi, texniki cəhətdən yenidən qurulması, rekonstruksiya olunması və habelə avadanlıqların modernləşdirilməsi, yeni texnoloji proseslərin tətbiqi işlərinə yönəldilir. Əsaslı vəsait qoyuluşunun tərkibi aşağıdakı xərclərdən ibarət olur:

- tikinti-quraşdırma işlərinə çəkilən xərclər;

- müxtəlif avadanlıqların (texnoloji, energetika, yükqaldırma və nəqliyyat) və habelə əsas fondlara aid olunan alət və inventarların alınmasına çəkilən xərclər;

- tikinti obyektinin layihələndirilməsi ilə əlaqədar olan geoloji-kəşfiyyat, axtarış və gələcək tikintinin texniki-iqtisadi əsaslandırılmasına çəkilən xərclər;

- tikinti üçün torpaq sahəsinin ayrılması, tikilən firma üçün kadrların hazırlanması və onun idarə heyətinin saxlanılmasına çəkilən xərclər. Göstərilən xərclərin hər biri əsaslı vəsait qoyuluşunun texnoloji quruluşunu əmələ gətirir. Əsaslı vəsait qoyuluşunun iqtisadi məsələləri içərisində onun texnoloji quruluşu ilə yanaşı təkrar istehsal quruluşunun da mühüm əhəmiyyəti vardır. Əsaslı vəsait qoyuluşunun təkrar istehsal quruluşu dedikdə, onun formalarına çəkilən xərclərin nisbəti başa düşülür. Bu göstərici yeni tikintiyə, mövcud güclərin genişləndirilməsinə, müəssisənin rekonstruksiya edilməsinə, texniki cəhətdən silahlandırılmasına çəkilən xərclərin əsaslı vəsait qoyuluşunun ümumi məbləğində xüsusi çəkilərinin hesablanması yolu ilə müəyyən olunur.

2. Firmanın investisiya fəaliyyətinə aşağıdakılar daxildir: investisiya strategiyasının müəyyən olunması, strateji planlaşdırmanın həyata keçirilməsi, investisiya layihələndirilməsi, layihənin və investisiyanın faktiki səmərəliliyinin təhlili. İnvestisiya strategiyası-maliyyələşmənin özünün xüsusi, habelə cəlb olunmuş və borc vəsaitlərinin əldə edilməsi şəraitində firmanın uzunmüddətli perspektiv üçün inkişaf yollarının seçilməsi, həmçinin məcmu aktivlərin həcminin və rentabelliyinin proqnozlaşdırılmasıdır. Strateji plan, investisiya layihələrinin siyahısı və investisiyanın uzunmüddətli maliyyələşdirilməsi planının tərtibi əsasında investisiya strategiyasının dəqiqləşməsini nəzərdə tutur.

Firmanın investisiya taktikası dedikdə, qısa dövr üçün investisiya strategiyasının reallaşdırılmasına səmtləşdirilmiş praktiki vasitələrin və metodların-investisiya resurslarının cəlb olunması imkanlarının nəzərə alınması şərtilə-məcmusudur.

İnvestisiya layihəsi texniki-iqtisadi əsaslandırma və ya biznes-plan formasında işlənilə bilər. İnvestisiya layihəsinin texniki-iqtisadi əsaslandırması müəyyən olunmuş rentabellik səviyyəsində investisiyanın həyata keçirilməsinin texniki, iqtisadi, ekoloji və maliyyə imkanlarının tədqiqidir. Texniki-iqtisadi əsaslandırmaya geoloji tədqiqatlar, bina və qurğuların texniki layihələri, istehsalın texniki hazırlığı, ətraf mühitə təsirin ekoloji tədqiqi, marketinq tədqiqatları, maliyyə-iqtisadi göstəricilərin hesablanması daxildir. İnvestisiya layihəsinin bznes-palnı-investisya layihəsinin bütün inkişaf etmiş ölkələrdə qəbul olunmuş təqdimat formasıdır. İnvestisiya layihələrinin planlaşdırılması metodları və iqtisadi səmərəliliyinin müəyyən olunması meyarı sahibkar, investor, banker, dövlət idarələrinin qulluqçularının və beynəlxalq maliyyə təşkilatlarının qarşılıqlı anlaşmasını təmin edən işgüzar münasibətlərin müəyyən olunması vasitələridir.

İnvestisiya layihələrinin səmərəliliyinin təhlili üç hissədən ibarətdir: **ümumiqtisadi, texniki-iqtisadi və maliyyə təhlili.**

Ümumiqtisadi təhlil ölkədə iqtisadi və bazaar konyukturasının, investisiya mühitinin əlverişli və ya əlverişsiz olmasının təsvirini əks etdirir. **Texniki-iqtisadi təhlil** bu və ya digər texniki işləmənin iqtisadi üstünlüklərinin əsaslandırılması ilə birlikdə layihənin texniki tərəfinə aiddir. İnvestisiyanın **maliyyə təhlili** kapital və cari dəyərdə pul axınının tədqiqinə əsaslanır.

Əsas kapitalın (istehsal əsas fondlarının) təkrar istehsalı işində-maddi istehsalın xüsusi forması kimi tikintinin çox böyük rolu vardır. Tikinti başqa istehsalla müqayisədə uzun müddət davam etdiyindən planlaşdırma işi həmin prosesin aramsızlığı və birqərarlığına təminat verməlidir. Əks halda, tikinti, planda nəzərdə tutulmuş müddətdən çox davam etdikcə, ahəngdarlıq pozulduqca onun dəyəri artır, tikintinin zadel (bitirilməmiş) hissəsi çoxalır. Buna görə də yeni bir müəssisənin inşası üçün əsaslı vəsait qoyuluşu üzrə proqramın tərtibi zərurəti yaranır.

İnvestisiya layihələri müxtəlif maliyyələşdirmə mənbələri və imkanları, texnoloji və təşkilati təminat, realizasiya müddəti və s. cəhətdən xarakterizə oluna bilər. Onların hər biri eyni dərəcədə vacibdir. Bu və ya digər investisiya layihəsinin məqsədəuyğun və perspektivli olub-olmamasını , onun maliyyə aspektlərini açıqlayan üç əsas məsələ: a) layihənin həyata keçirilməsi üçün zəruri olan maliyyə

vəsaitinin həcmi; b) tələb olunan həcmdə maliyyə vəsaitlərinin cəlb edilməsi mənbələri; c) investisiyanın özünün necə doğrultması və gözlənilən maliyyə nəticələrinin səviyyəsi xarakterizə edir.

3. Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatların mühüm istiqamətlərindən biri də əlverişli investisiya mühitinin yaradılmasıdır. Ölkənin sosial-iqtisadi inkişafının perspektiv istiqamətlərinə uyğun gələn iqtisadi, elmi-texniki, sosial proqramların həyata keçirilməsi məqsədilə investisiya fəallığının lazimi səviyyəsinə nail olmaq üçün təkmil hüquqi bazanın yaradılması zəruridir. İnvestisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi aşağıda qeyd olunan mexanizmlərdən istifadə edilməsini nəzərdə tutur:

- vergi sistemində potensial investorlar üçün güzəştli vergi dərəcələrindən və şərtlərindən istifadə olunması;

- aşağı faizlərlə kredit verilməsini və sürətli amortizasiya ayırmalarını özündə cəmləşdirən çevik maliyyə-kredit və əsas vəsaitlərin amortizasiyası mexanizmlərindən istifadə olunması;

- investisiya layihələrinin həyata keçirilməsi məqsədilə respublikaya gətirilən istehsal-texniki təyinatlı avadanlıqların əlavə dəyər vergisindən və gömrük rüsumundan qismən və ya tamamilə azad edilməsi və s. Həmçinin respublikamızda müxtəlif təsərrüfat subyektləri tərəfindən həyata keçirilən investisiyaların qorunmasına dövlət təminat verir. Belə bir təminat bütün investorlar üçün dövlət səviyyəsində verilir. Bütün bunlar "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında öz əksini tapmışdır.

İnvestisiya qoyuluşunun həyata keçirilməsi haqqında qərarın qəbul olunmasına həm daxili, həm də xarici amillər təsir göstərir. Həmin amillərə başlıca olaraq aşağıdakılar aid edilə bilər:

- makroiqtisadi şərait;

- tələbin səviyyəsinin dəyişməsi prosesi;

- təklifin səviyyəsinin dəyişməsi prosesi.

Müəssisə müəyyən makroiqtisadi mühitdə fəaliyyət göstərir və onun fəaliyyətinə bir çox tənzimləyici amillərlə yanaşı, dövlətin iqtisadi siyasəti də öz təsirini göstərir. Belə təsiredici amillərə: tələbin ümumi səviyyəsi, real bank faizinin dərəcəsi, iqtisadi inkişaf səviyyəsi, dövlətin büdcə və vergi siyasəti və s. Məsələn, bank faizinin dərəcəsinin yüksəldilməsi investisiya fəallığını

məhdudlaşdırır. Bunun əksi isə, investisiya proseslərini stimullaşdıraraq investisiya qoyuluşlarının həcmini artırır.

4. Firmanın kommersiya fəaliyyətinin kəmiyyət tərəfi deyil, keyfiyyət tərəfi həyata keçirilən innovasiyanın miqyasından bilavasitə asılı olur. Məhsuldar qüvvələrin ünsürlərinin təkmilləşdirilməsi yalnız elmi-texniki tərəqqinin təsiri altında baş verir. Elmi-texniki tərəqqinin müasir istiqamətləri aşağıdakılardır:

1. İstehsalın elektrikləşdirilməsi;

2. İstehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması;

3. İstehsalın kimyalaşdırılması;

4. İstehsalın elektronlaşdırılması;

5. Yeni materialların yaradılması və tətbiqi;

6. Yeni texnoloji istehsal üsullarının mənimsənilməsi.

İnnovasiya-potensial elmi-texniki tərəqqinin yeni məhsul və texnologiyalarda öz əksini tapan real (gerçəkləşmiş) elmi-texniki nailiyyətlərə çevrilməsini əks etdirir. Elmi-texniki innovasiya "elm-istehsal" tsiklinin son nəticələrini xarakterizə edir ki, buda elmi-texniki məhsul kimi çıxış edir və konkret tələbatların ödənilməsi üçün yeni elmi ideya və biliklərin, kəşflərin, ixtiraların və işləmələrin kommersiya baxımından reallaşdırılması məqsədilə maddiləşdirilməsidir. İnnovasiya üçün üç əlamət xasdır: **elmi-texniki yenilik, istehsala tətbiqiliyi, kommersiya baxımından reallaşdırılması imkanı.** Kommersiya cəhəti innovasiyanı, bazardakı tələbat vasitəsilə dərk olunmuş iqtisadi zərurət kimi müəyyən edir. İnnovasiyanın səviyyəsi həm texnoloji parametrlər baxımından, həm də bazar nöqteyi nəzərindən qiymətləndirilir. Texnoloji parametrlərdən asılı olaraq **məhsul və proses** innovasiyaları bir-birindən fərqləndirilir. **Məhsul innovasiyası-**yeni məhsul növlərinin yaradılması və mənimsənilməsini nəzərdə tutur. **Proses innovasiyalar** isə istehsalın təşkilinin yeni metodlarının yaradılması ilə əlaqədardır.

İnnovasiyalar yeniliklərin səviyyəsinə görə, prinsipcə, yeni, yəni yerli və xarici praktikada analoqu olmayana və nisbətən yeni innovasiyalara bölünür. İnnovasiya elə texniki-iqtisadi tsikldir ki, tədqiqat və işləmələr sferasının nəticələrindən istifadə texniki və iqtisadi dəyişikliklərə səbəb olur ki, bu da həmin sferanın özünün fəaliyyətinə əks təsir göstərir

İnnovasiya fəaliyyəti yeniliyin yaradılması və istehlakçıya çatdırılması və ya tətbiqi ilə əlaqədar elmi-texniki, təşkilati, maliyyə və kommersiya fəaliyyətini özündə birləşdirir.

İnnovasiya fəaliyyətinin aşağıdakı növləri vardır:

- texniki hazırlıq və istehsalın təşkili (istehsal avadanlığının və alətlərinin əldə olunması, onlarda o cümlədən yeni məhsulların hazırlanması və ya yeni texnoloji prosesin tətbiqi keyfiyyətinə nəzarətin və istehsalın prosedurasında, metodlarında və standarlarında dəyişikliklərin edilməsi);

- məhsul və texnoloji proseslərin modifikasiyalarının daxil olduğu istehsalqabağı işləmələr, yeni texnologiyanın və avadanlıqların tətbiqi üçün heyətin hazırlanması, həmçinin əgər konstruksiyanın təkmilləşdirilməsinə ehtiyac vardırsa, sınaq istehsalı və istehsalın başlanması;

- yeni məhsulların marketinqi (yeni məhsulun bazara çıxması ilə əlaqədar fəaliyyət növləri, yəni bazarın ilkin tədqiqi, məhsulun müxtəlif bazarlara uyğunlaşdırılması (adaptasiyası), reklam kompaniyası);

- kənardan texnologiyaya patentlərin, lisenziyaların alınması, "nou-hau", ticarət markası və bu kimi qeyri-maddi aktivlərin əldə olunması.

İnnovasiya fəaliyyətinin təşkili formaları müxtəlif texnopark strukturları vasitəsilə həyata keçirilir və onlar aşağıdakılardır:

Texnopark. Bu, informasiya, texnoloji, məsləhət, marketinq və tədris müəssisələrindən və habelə, sənaye yönümlü şirkətlərin birliyindən ibarət olur. Bu mərkəzlər firmalara öz profilləri üzrə xidmətlər göstərir, məsləhətlər verirlər. Texnoparkda elmi-tədqiqat sektoru texnopolisə nisbətən zəif olur.

Texnopolis. Bu, yeni, mütərəqqi məhsul istehsal etmək, elmtutumlu texnologiya yaratmaq məqsədilə iri elmi-tədqiqat institutu və mərkəzlərindən ibarət olur. Burada elmin inkişafının yeni istiqamətlərinin müəyyənləşdirilməsi və inkişaf etdirilməsi üçün zəruri şərait yaradılır; texnopolisdə elm, texnika, sahibkarlıq üzvü şəkildə birləşdirilir. Texnopolisin "çəkici qüvvəsi", əsası elmi-tədqiqat kompleksidir.

Biznes-inkubator. Bu, elə bir təşkilatdır ki, burada sahibkarlıqla məşğul olmağa başlayanlar üçün öz işlərinin yerinə yetirilməsi üzrə vərdişlər aşılamaq istiqamətində tövsiyyələr verilir, hüquqi, iqtisadi və s. məsləhətlər vasitəsilə köməkliklər göstərilir.

Qeyd etmək lazımdır ki, texnoloji yeniliketmə formalarından biri də **vençur biznesidir ki**, bu, risklə bağlı biznes kimi də başa düşülür. Biznesin bu xüsusi növü ilə vençur firmalar məşğul olurlar. Vençur firması kommersiya mahiyyətli elmi-texniki təşkilat olub, yeni və ən yeni texnologiyaların və məhsulların

layihələndirilməsi və tətbiqi işini həyata keçirir. Lakin bu halda işinin nəticəsi qeyri-müəyyən olduğundan onun əsaslı vəsait qoyuluşu həmişə risklə bağlı olur, vençur firmasını da digərlərindən fərqləndirən məhz budur. Vençur firmasının dövriyyəyə buraxdığı kapital isə vençur kapitalı adlanır.

.

Firma məhsulunun keyfiyyəti, standartlaşdırılması və sertifikasiyası

1. Məhsulun keyfiyyəti və onun göstəriciləri

2. Məhsulun keyfiyyətinin yüksəldilməsi firmanın iqtisadi inkişaf yolu kimi

3. Məhsulun rəqabət qabiliyyəti

4. Firmada məhsulun keyfiyyətinin idarə edilməsi

5. Məhsulun standarlaşdırılması və sertifikasiya

1. Məhsulun keyfiyyəti firmanın istehsal fəaliyyətinin əsas göstəricilərindən biridir. Bazar iqtisadiyyatı şəraitində firmanın bazarda qalması, rəqabətə davam gətirməsi bilməsi iki amildən asılıdır: bunlardan biri məhsulun keyfiyyəti, digəri isə qiymətdir. Məhsulun keyfiyyətli istehsalı onun istehlakçılarının həmin məhsul qarşısında qoyduqları tələblərə müvafiq olaraq istehsalçının səriştəliliyindən, onun istehsal aparatının mükəmməllik səviyyəsindən, xüsusilə, istehlak etdiyi xammal və materialın özünün keyfiyyətindən asılı olur. **Məhsulun keyfiyyəti**-onun öz təyinatına müvafiq müəyyən tələbatı ödəməyə yararlı olmasını şərtləndirən, daşıyıcı olduğu, özünəməxsus xassələrin məcmusudur. Məhsulun keyfiyyətini formalaşdıran xassələr əmək vasitələri, əmək cisimləri və istehlak şeyləri üçün çox çalarlı olsalar da, onlar aşağıdakı göstəricilər vasitəsilə ümumiləşdirilərək təsnifləşdirilir:

1. **Məhsulun təyinatı göstəriciləri.** Bu göstəricilər istehsal-texniki təyinatlı məhsulun tətbiqi sahəsinin düzgün seçilməsi şərtilə onların istismarı zamanı gətirdiyi fayda ilə xarakterizə olunur. Yəni bu göstərici maşın, mühərrik və s.-nin düzgün təyinatı əsasında onun məhsuldarlığının realizə olunmasını göstərir.

2. **Etibarlılıq göstəriciləri.** Etibarlılıq-məmulatın xidmət müddəti ərzində istismar qabiliyyətini saxlamaq şərtilə onun üçün müəyyən edilmiş funksiyaları

icra edə bilmək xassəsidir. Əsasən, maşın və avadanlıqlara xas olan etibarlılıq göstəricilərinə fasiləyə yol vermədən, dayanmadan (müntəzəm) işləyə bilmək, uzunömürlülük və təmirə yararlılıq aiddirlər.

3. **Texnolojilik göstəriciləri.** Bu qəbildən olan keyfiyyət göstəriciləri konkret olaraq hər hansı bir maşının istehsalı və təmirində konstruktor-texnoloji işləmələrin səmərəliliyini xarakterizə edir. Maşının konstruksiyası, hazırlanma texnologiyası, istismar şəraiti və təmirəyararlılığı həmin maşının texnolojiliyi adlanır. Texnolojilik göstəricilərinə, habelə maşının yığılmasının mürəkkəbliyi, material-əmək və fondtutumluğu göstəriciləri də daxildir. Konstruktor işləmələrinin mükəmməliyi, hazırlanma üzrə əmək məhsuldarlığını yüksəldir, maddi məsrəfləri qənaəti təmin edir.

4. **Standarlaşdırma və eyniləşdirmə (unifikasiya) göstəriciləri.** Texnolojilik xassəsi ilə sıx əlaqəsi olan standarlaşdırma və eyniləşdirmə maşın, avadanlıq və digər mürəkkəb texniki sistemə malik məmulatların konstruktiv mükəmmelliyi üçün həyata keçirilən tədbirlərdir. Standarlaşdırma və eyniləşdirmə vasitəsilə məmulat hissələrindən standartların, eyniləşdirilmişlərin və orijinalların say nisbətlərini müəyyən etmək mümkün olur; standart və eyniləşdirilmiş hissələrin say çoxluğu həmin məmulatın özünün və ona ehtiyat hissələrinin istehsalı səmərəliliyini yüksəldir.

5. **Erqonomik göstəricilər.** Bu qəbildən olan keyfiyyət göstəriciləri "insan-maşın-mühit" sistemini xarakterizə edir. Onlar məmulatın istismarı və ya ondan istifadə prosesində "insan amilinin" bir sıra gigiyenik, psixoloji, fizioloji, antropoloji xüsusiyyətlərini nəzərə ala bilən göstəricilərdir. Məsələn, səs, işıq, temperatura, silkələnmə, rütubət və s. üzrə mövcud olan normalar insanın fizioloji və psixoliji imkanlarını keçməməlidir; maşın və avadnlığın istismarı onun yaradıcısı olan insan üçün asan olmalıdır, gərgin olmamalıdır, lüzumsuz, artıq hərəkətləri zərurətə çevirməməlidir.

6. **Məmulatın estetik göstəriciləri.** Bu göstəricilər məmulatın orijinallığı, tamlığı, mühitə və üsluba uyğunluğu, özünü ifadəliyi, forma səlistliyi, görünüş və "gözoxşamağı" kimi xassələri özündə birləşdirir. Estetik göstəricilər məmulatın əsas xassəsinə münasib olmalı, formanın məzmununa uyğunluğu təmin edilməlidir.

7. **Məmulatın nəql olunma qabiliyyəti.** Bu qism keyfiyyət göstəricisi məmulatın bazara çıxarılması, sonda öz istehlakçısını tapması işinin asan və səmərəli icrasında mühüm xassə hesab edilir. Məmulatın nəqliyyat növlərinə uyğunlaşma qabiliyyəti, başqa sözlə, onun yüksəlməsi və böşaldılması asanlığı,

konteynerə yerləşdirilməsi və taralara qablaşdırılmasının mümkünlüyü və s. onun nəqlolunmağa münasibliyini müəyyən edir.

8. **Patent-hüquq göstəriciləri.** Məmulatın bu qəbildən olan keyfiyyət xassələrinə bazar iqtisadi sistemində işləyən ölkələrdə xüsusi əhəmiyyət verilir. Patentə layiq bilinmiş məmulat öz "sələflərindən" yeni texniki işləmələrin daşıyıcısı kimi fərqlənməlidir, onun nümunəsi həm istehsalçı ölkədə və həm də ixrac olunacaq ölkələrdə qeydiyyatdan keçməlidir.

9. **Ekoloji göstəricilər.** Bu göstəricilər hər hansı bir məmulatın istehsalı, istifadəsi və ya istismarı prosesində ətraf mühitə ziyanlı təsirini xarakterizə edir. Məmulatın istehsalı zamanı ətraf mühitə ziyanlı təsirinin gücü onun keyfiyyətini formalaşdıran digər xassələrin əhəmiyyətini neytrallaşdıra, daha doğrusu, ciddi şəkildə azalda bilər.

10. **Məmulatın təhlükəsizlik göstəriciləri.** Məmulatın keyfiyyət xassələrindən biri olan təhlükəsizliyi, öz-özlüyündə aydındır ki, istehlak prosesinə və ya istehlakçıya aid olan məsələdir. Əgər bu və ya digər texnikanın qorunub saxlanması, nəql edilməsi, quraşdırılması, istismarı həmin işlərin icraçıları üçün təhlükəsizdirsə, beləsi keyfiyyətli texnika hesab olunur.

2. Keyfiyyətsiz ərzaq məhsullarının, dərman preparatlarının istehsalı və istehlakı, hətta ölümlə nəticələnə bilən kütləvi xəstəliklərin törənməsinə səbəb olur; elektrik stansiyasında istifadə edilən bölgü sipəri öz nasazlığının ucbatından bütün bir rayonun təsərrüfatını və məişətini iflic vəziyyətinə sala bilər; qaz aparatı və ya avadanlığındakı texniki qüsur qaz partlayışı və insanların tələfatı ilə nəticələnər və s. Məhsulun keyfiyyəti və onun idarə edilməsinin iqtisadi nəticələri hər bir ölkə üçün taleyüklü problemlərdən biridir. Məhsulun keyfiyyətinin yüksəldilməsinin iqtisadi nəticələri, hər şeydən əvvəl, onun etibarlılığının artırılması və xidmət müddətinin uzadılması ilə əlaqədardır. Bu isə istismar xərclərini azaltmaqdan əlavə, həm də həmin məhsulların sayının kəmiyyətcə nisbi mənada artırılması deməkdir.

Bazar iqtisadiyyatı şəraitində firma və müəssisələrin iş nəticələrini xarakterizə edən və bir-birilə qarşılıqlı əlaqədə olan istehsalın texniki səviyyəsi və məhsulun keyfiyyəti göstəricilərinin qiymətləndirmə kursu daha da yüksələcəkdir. İstehsal vasitələri üzərində mülkiyyət formasından asılı olmayaraq istehsalın texniki səviyyəsi elmi-texniki tərəqqinin daşıyıcısı olduğundan-elmi-texniki tərəqqinin meyarı kimi çıxış etdiyindən onun yüksəldilməsi bütün iqtisadi göstəriciləri, xüsusilə məhsulun keyfiyyəti göstəricisini yaxşılaşdırır.

Məmulatlar estetik baxımdan nə qədər yaraşıqlı və göz oxşayan, etibarlı, komfortabelli olsalar da, onların qarşısında qoyulan tələblərə nə qədər layiqincə cavab versələr də, onların qiyməti həm istehsalçı və həm də istehlakçı üçün çox vacib bir amil olaraq qalır. Çünki tərəflərdən hər ikisinin son məqsədi gəlir əldə etməkdir. Məhz buna görə də həm istehsalçı və həm də istehlakçı üçün keyfiyyətlə xərcin nisbəti-iqtisadi cəhətdən optimal keyfiyyət-maddi maraq döğuran əhəmiyyətli bir göstəricidir.

3. Bazar münasibətlərinə əsaslanan iqtisadi sistemdə istehsalçı və istehlakçıların maraqlarını təmin edən, təklif olunan məhsulun bazarın şərtlərinə tam cavab verə bilən məhsulun xassələrinin istehlakçıların tələblərinə uyğunluğu onun **rəqabət qabiliyyəti** adlanır. Məhsulun rəqabət qabiliyyəti bazarın xüsusi şərtlərinitəmin etməyə imkan verən istehlak (kəmiyyət və keyfiyyət) xassələrinin məcmusu ilə müəyyən olunur. Rəqabətqabiliyyətli məhsul daha ucuz satış kanalları vasitəsilə asan və tez satılır. Məhsulun rəqabət qabiliyyəti alıcıların müəyyən qrupu üçün maraq kəsb edən və onların müəyyən tələbatlarının ödənilməsini təmin edən xassələrin məcmusu ilə müəyyən olunur. Bu zaman məhsulun digər xassə və xüsusiyyətləri nəzərə alınmır. Əgər məhsulun nəzərdə tutulduğu istehlakçılar qrupu üçün tələb olmayan xassələri hesabına onun qiyməti artarsa, onda bu cür daha yüksək keyfiyyətli məhsul nisbətən aşağı rəqabət qabiliyyətinə malik olar. Bundan başqa, eyni məhsul daxili bazarda rəqabət qabiliyyətli, xarici bazarda rəqabətə davamsız və əksinə ola bilər. Məhsulun rəqabət qabiliyyətinin yüksək olmasını şərtləndirən bir amil də onun qiymətidir. Keyfiyyətlə qiymətin müqayisəsində istehlakçı üstünlüyü, bir çox hallarda keyfiyyətə verir, keyfiyyət istifadəsi uzunmüddətli olan məhsullarda istismar və təmir xərclərini azaldır. Dünya təcrübəsi göstərir ki, bir çox məşhur firmaların (“Adidas”, “Toyota” və s.) uğurları məhsulların ucuz istehsalı ilə deyil, keyfiyyətli istehsalı ilə əlaqədardır.

Beləliklə, məhsulun keyfiyyəti dəyişmədiyi halda belə, onun rəqabət qabiliyyəti bazar konyukturası, reklamın təsiri və məhsula münasibətdə xarici və daxili amillərin yaranması hesabına geniş hədlərdə dəyişə bilər.

Rəqabət qabiliyyəti göstəricisini məmulatın tələb olunan xassələrini layihələndirərkən, məhsul istehsalının potensial imkanlarını müqayisə və qiyməti müəyyən edərkən və digər problemlərin həlli zamanı hesablamaq vacibdir.

4. Kəskin rəqabət mübarizəsi şəraitində firmaların iqtisadi inkişafının şərtlərindən biri də məhsul keyfiyyətinin elmi əsaslarla, sistemli şəkildə idarə edilməsinə nail olmaqdır. Bu, müasir dünya bazarının səciyyəvi əlamətlərindən və onun istehsalçılar qarşısında qoyduğu tələblərdən biridir. İstehsalçı firmanın keyfiyyət üzrə siyasətinə onun məhsuluna bazardakı tələbatın kəmiyyəti həlledici

təsir göstərir. Firma və müəssisələr məhsulun keyfiyyətinə təsir edə bilən həm istehsaldaxili və həm də xarici amilləri daima diqqətlə izləməli, məhsulun keyfiyyətinin idarə edilməsinə mütəmadi olaraq səy göstərməlidir.

Bazar iqtisadiyyatı şəraitində keyfiyyətin idarə edilməsi, həm də elmi əsaslarla idarə edilməsi, istehsal firmaları üçün çox vacibdir. Çünki yeni təsərrüfatçılıq şəraitində keyfiyyətin səmərəli idarə edilməsi, başqa amillərlə yanaşı, idarəetmənin də keyfiyyətindən bilavasitə asılı olur. Keyfiyyətin idarə edilməsindən son məqsəd az məsrəflə və səmərəli yolla məhsulun istismar və istehlak xassələrini istehlakçıların tələbi səviyyəsinə qaldırmaqla gəlir əldə etməkdir.

5. Məhsul keyfiyyətinin idarə edilməsinin vacib ünsürlərindən biri **standartlaşdırmadır**. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda (8 oktyabr 1996-cı il) göstərilir ki, standartlaşdırma-məhsullar (xidmətlər, işlər) üçün norma, qayda və xarakteristikaları müəyyənləşdirən fəaliyyətdir. O, məhsulların insan sağlamlığı, həyatı, ətraf mühit üçün təhlükəsizliyini, texniki, texnoloji və informasiya uyğunluğunu, bütün növ resursların qənaətini, ölçmələrin dəqiqliyini və vəhdətini, istehlakçıların məhsul nomenklaturası və keyfiyyəti haqqında tam və səhih informasiyaya malik olmalarını və s.-ni təmin etmək məqsədini daşıyır. Standartlaşdırma məhsul keyfiyyətinin idarə olunması məqsədilə normaların işlənib hazırlanması (yaradılması) üzrə fəaliyyətdir və onun nəticəsi ən səmərəli normaların tapılması və onların normativ sənədlərdə-təlimat, standart vəs.-də təsbit etməkdir. Standart-kütləvi istifadə üçün nəzərdə tutulmuş məhsulların keyfiyyətinə və təhlükəsizliyinə dair normativ sənəd olmaqla maraqlı tərəflərin razılığı əsasında işlənib hazırlanır və səlahiyyətli orqan tərəfindən təsdiq olunur. Əhəmiyyətli, tətbiq miqyası (coğrafiyası) və məsuliyyət dərəcəsinə görə standartlar-beynəlxalq, regional, dövlətlərarası, milli standartlara bölünür. Bunlardan hər hansı birinin məhsul qarşısında qoyduğu tələblər ödənilməzsə, həmin məhsulun standartın qüvvədə olduğu məkana (dünya, region və s. bazara) daxil olması qeyri-mümkündür. Yarana biləcək çətinliyin qarşısını almaq üçün istehsalı nəzərdə tutulan hər bir ölçüdən olan avadanlıq və maşınların konstruksiyasına daxil olan müvafiq komponentlərin (hissələrin) eyniləşdirilməsi, vahid standart əsasında istehsalı həyata keçirilir.

Bazar iqtisadiyyatına keçən ölkələrdə islahatların aparılması və bu prosesin sürətləndirilməsi üçün bir çox beynəlxalq qurumlar özlərinin fəaliyyət profilinə uyğun olaraq həmin ölkələri dəstəkləyir və köməkliklər göstərirlər. Bu qurumlardan biri də İSO-dur (İnternational Standart Orqanization), yəni

Beynəlxalq Standartlaşdırma Təşkilatıdır. Bu təşkilatın adından (İSO) sonra gələn rəqəmlər əsasən məhsulun keyfiyyəti ilə bağlı olan standartları özündə təsbit edir. Sonuncu belə bir seriya 2000-ci ildə təsis edilmişdir - İSO 9001:2000. Sahibkarlıqla, ümumiyyətlə iqtisadi fəaliyyətlə məşğul olacaq həm hüquqi və həm də fiziki şəxslər həmin standartlardan istifadə edə bilərlər. Bir çox ölkələr (Fransa, Böyük Britaniya, Avstriya, İsveçrə və s.) İSO-nun işləyib hazırladığı keyfiyyət standartlarını milli standartlar kimi qəbul etmişlər. İSO-nun standartları əsasında firmalar arasında kontraktlar, məhsul keyfiyyətinin təminatı şərti kimi qəbul edilərək bağlanılır. Bir sözlə, keyfiyyətin idarə edilməsində Beynəlxalq standartlar sisteminin əhəmiyyəti danılmazdır.

Qeyd etmək lazımdır ki, məhsulun keyfiyyətinin idarə edilməsi mexanizminin tərkib hissələrindən biri də məhsulların **sertifikasiyasıdır. Məhsulların sertifikasiyası** məhsul keyfiyyətinin idarə edilməsi işində standartlaşdırmanın davamıdır-standartlarda öz əksini tapmış tələblərin sınaqdan keçirilməsidir. Məhsulların sertifikasiya edilməsində məqsəd standartların onlar (məhsullar) qarşısında qoyduğu tələblərə cavab verə bildiklərini sınaq yolu ilə yoxlamaq və təsdiq etməkdir.

Bazar iqtisadiyyatı sisteminə daxil olan ölkələrdə məhsulun sertifikasiya olunmasında onun sifarişçiləri, istehsalçıları, satıcıları və bir də müstəqil ekspert kimi, dövlətin müvafiq orqanları iştirak edirlər.

Sertifikasiya sınaqlarından müvəffəqiyyətlə keçən məhsullara sertifikata uyğunluq şəhadətnaməsi verilir.

Sertifikat almış məhsulların insan həyatına və sağlamlığına, ətraf mühitin çirklənməsi və əmlak üçün təhlükəsiz olması real olaraq təsdiqlənir və bundan sonra onların istehsalı və realizə edilməsi üçün heç bir maneə qalmır.

Göstərmək lazımdır ki, başqa ölkələrdən idxal olunan məhsullarda uyğunluq şəhadətnaməsi olmayınca, təhlükəsizliyinə əminlik yaranmayınca, onların daxili bazara buraxılması yolverilməzdir; bu, dünyanın bütün sivil ölkələrində belədir.

Müəssisədə marketinq fəaliyyəti və firmada maddi-texniki təminat

1. Marketinq fəaliyyətinin mahiyyəti, bazarın seqmentləşdirilməsi

2. Firmada satış siyasəti və onun elementləri

3. Firmada maddi-texniki təminatın mahiyyəti, funksiyaları

4. Firmanın material və avadanlığa tələbatının hesablanması

1. Kökü ingiliscə "market" (bazar) sözündən gələn **"marketinq"** anlayışı bazar və satış sferalarında fəaliyyət mənasına daha uyğundur. Marketinq-ümumi-nəzəri baxımdan –müəssisənin təsərrüfatçılıq fəaliyyətinin bazar qanunları əsasında idarə edilməsi konsepsiyasıdır. **Marketinq**-bazarın doğurduğu mürəkkəb mühitdə sərfəli istehlakçıların tapılması və seçilməsi, məhsullara qiymətin müəyyən olunması, bölgü planlarının tərtibi, məhsulların alqı-satqısısnı stimullaşdıran maliyyə, servis xidməti və s. bu kimi vasitələrdən istifadəyə əsaslanan idarəetmə prosesidir. **Firmanın marketinq fəaliyyəti** istehsal olunan məhsulun satışı məqsədilə əlverişli zəmin yaratmaq üçün onun keyfiyyətini, çeşidini və istehsal həcmini bilavasitə istehlakçıların tələbatına uyğunlaşdırmaq məqsədilə bazarın kompleks təhlili və proqnozlaşdırılması prosesidir. Marketinq fəaliyyətinin ilkin mərhələsi bazarı öyrənmək olsa da, onun istehsal üçün də əhəmiyyəti böyükdür. **Marketinq fəaliyyəti**-müəssisənin bazarda olan fəaliyyətidir. Bu fəaliyyət aşağıdakıları əhatə edir:

- bazarda məhsullara olan potensial tələbatın və ehtiyacların həcminin, onun dinamikasının, şəraitinin, hadisələrin real gedişinin və onun inkişaf perspektivlərinin dəqiq nəzərə alınmasını;

- firmaların istehsal həcminin bazarın mövcud potensial tələblərinə uyğunlaşdırıla bilmə imkanlarının araşdırılması;

- məhsul bazarının yaradılmasına və formalaşdırılmasına fəal təsir göstərilməsini;

- firmada məhsulların reallaşdırılması şəraitinə, tələbatın dəyişməsinə və s. bu kimi məsələlərə çevik münasibətlərin göstərilməsinə nəzarət edilməsini və s.

Müəssisənin kommersiya müvəffəqiyyəti bazarların forma, tip və növlərinin dərin və hərtərəfli şəkildə öyrənilməsindən bilavasitə asılıdır. Bazarın öyrənilməsi nəticəsində firma və məhsula istiqamətlənmiş marketinqi, ya da istehlakçıya istiqamətlənmiş marketinqi seçir. Məhsula istiqamətlənmiş marketinq, firma yeni məhsul yaradarkən və ya istehsal edilməkdə olan məhsulu təkmilləşdirərkən tətbiq edilir. Bu zaman əsas vəzifə yeni və təkmilləşdirilmiş məhsulu alıcının almasını stimullaşdırmaq, onu buna sövq etməkdir. İstehlakçıya istiqamətlənmiş marketinq firmanın fəaliyyətinin bilavasitə bazardan gələn tələbatların ödənilməsinə yönəldiyi zaman tətbiq edilir. Burada marketinqin əsas vəzifəsi potensial tələbatların öyrənilməsi, bazar seqmentinin müəyyən edilməsidir. Marketinq, bazarla əlaqədar olaraq, hər şeydən əvvəl, seqmentləşdirmə məsələlərini öyrənir və təhlil edir. **Bazar seqmenti dedikdə,** istehlakçılar qrupu, məhsullar və habelə firmalar üçün ümumi olan əlamətlər üzrə bazarın xüsusiləşmiş hissəsi başa düşülür.

Bazarın seqmentləşdirmə vəziyyətinin öyrənilməsi ilə sonradan məhsul üçün seqmentin düzgün seçilməsi və bununla da firmanın rəqabət mübarizəsində davam gətirmək məsələsi həll edilmiş olur. Bazar seqmentinin perspektivli, dəyanətli olmasını dəqiq öyrənmək orada iştirak edəcək firma üçün ciddi və önəmli məsələdir. Perspektivi, genişlənmə imkanı olmayan seqmentə istehsal gücünü istiqamətləndirmək firmanın iflasa uğraması demək olardı. Marketinq fəaliyyəti, habelə firma üçün həyati məsələ, seçiləcək seqmentin onun üçün hansı səviyyədə səmərəli olacağının əvvəlcədən müəyyən edilməsidir. Bazar seqmentinin seçilməsi işində nəzərə alınacaq vacib amillərdən biri də həmin seqmentdə firmanın nə səviyyədə işləyəcəyinin müəyyən edilməsidir. Nəhayət, firma öz məhsulunu realizə etmək üçün seçmiş olduğu seqmentdə rəqabət mübarizəsində öz gücünü əvvəlcədən müəyyən etməlidir. Seqmentlər daha 4 əlamət üzrə öyrənilir və təhlil edilir. Bunlar: **coğrafi**-yəni seqmentin öyrənilməsində bazarın hansı regionda, şəhərdə yerləşməsini, **demoqrafik**-bazar seqmenti öyrənilərkən istehlakçıların yaş-cins tərkibi, təhsili, peşə tərkibini, **psixoqrafik**-istehlakçıların yaşayış tərzi, onların şəxsi keyfiyyətləri üzrə potensial istehlakçıların seçilməsini, **istehlakçının məhsula ehtiyacı və marağı**-istehlakçıların firmanın məhsula qarşı həssaslıq və ya etinasızlıq məsələlərini aydınlaşdırmaqdır.

Marketinqin idarə edilmısi prosesi-bazar imkanlarının təhlilindən, məqsədli bazarın seçilməsindən, marketinq kompleksinin işlənib hazırlanmasından və marketinq tədbirlərinin həyata keçirilməsindən ibarətdir. Məhsul müəssisədən istehlakçıya qədər uzun bir yol keçir: qablaşdırılır, nəql edilir, anbarlara yığılır, istehlak məntəqələrinə çatdırılır, satış yerlərində yerləşdirilir və nəhayət, alıcılara satılır. İstehsalçıdan istehlakçıya qədər əmtəənin hərəkəti ilə əlaqədar proseslərin həyata keçirilməsi müəyyən xərc tələb edir ki, buna da **tədavül xərcləri** deyilir. Qeyri-mərkəzləşdirilmiş idarəetmə strukturuna malik olan iri sənaye müəssisələrində, adətən, ticarət-satış fəaliyyətini həyata keçirmək məqsədilə xüsusi şöbə-**marketinq şöbəsi,** kiçik müəssisələrdə isə **marketinq qrupları** fəaliyyət göstərirlər. Bu şöbə və qrupların əsas vəzifəsi müəssisənin bütün istehsal bölmələri üzrə istehsal-təsərrüfat və satış fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Bu şöbənin tərkibində aşağıdakı məsələlərin öyrənilməsi üzrə müxtəlif bölmələr ola bilər: bazar konyukturasının kompleks öyrənilməsi, marketinq proqramının işlənib hazırlanması, satışın təşkili, reklamlaşdırma, texniki xidmət və s. Bu bölmələrin fəaliyyəti, əsasən, bazarda əlverişli şərait yaratmaqdan və müəssisə tərəfindən daha çox mənfəət əldə olunmasını təmin etməkdən ibarətdir.

Bazar münasibətləri şəraitində marketinq fəaliyyətinin strategiyasının hazırlanması və tətbiqi-müəssisə və ya firma menecmentinin əsas funksiyalarından biridir. Müəssisənin strateji planında onun hansı məhsulların istehsalı ilə məşğul

olması və perspektiv üçün qarşıya qoyulan vəzifələr öz əksini tapır. **Marketinq proqramı** müəssisənin marketinq konsepsiyası əsasında hazırlanır. Onun tərtib olunmasında mərkəzi yeri, istehlakçı amillərini nəzərə almaqla bazaar prioritetlərinin müəyyən olunması və bu prioritetlərə uyğun konkret məhsul istehsalını təşkil etməkdir ki, istehsal olunan məhsul istehlakçı tərəfindən alınsın və satışda heç bir problem yaranmasın. **Marketinq proqramının hazırlanması** aşağıdakı elementlərdən ibarətdir:

- marketinq məqsədlərinin müəyyən olunması;

- satış bazarının müəyyən edilməsi;

- nəticələrin qeydə alınması;

- daxili və xarici mühit amillərinin təsirinin uçota alınması ilə planların dəqiqləşdirilməsi.

2. Firmada **məhsulun satışının təşkili** istehsalın təşkilinin sonuncu mərhələsidir, mürəkkəb və çox əməktutumlu bir işin yekunudur. Məhsulun reallaşdırılması prosesini dörd mərhələyə bölmək olar. Birinci mərhələdə məhsulun göndərilməsi üçün müqavilələr bağlanır. İkinci mərhələdə məhsulun reallaşdırılması və firmanın anbarda məhsul qalığı planı tərtib olunur. Üçüncü mərhələdə istehlakçılara məhsulun yüklənib yola salınması işi həyata keçirilir. Məhsulun reallaşdırılması prosesi dördüncü mərhələdə-məhsulgöndərən müəssisənin hesablaşma hesabına pul vəsaitlərinin daxil olması ilə bitir. Firmanın bazardakı müvəffəqiyyətinin ən başlıca amillərindən biri-satış şəbəkəsinin düzgün qurulmasıdır. Belə ki, firmanın ümumi mal dövriyyəsinin həcmi və onun artım dinamikası, alınan gəlirin kütləsi bilavasitə satış şəbəkəsinin ölçülərindən və səmərəli işindən asılıdır. İstehlakçıların tələblərinin ödənilməsinin istiqamət və üsullarının seçilməsi firmanın satış siyasətinin əsasını təşkil edir. İstehsalçı firmanın satış siyasəti son istehlakçıya əmtəə axınının hərəkətini təşkil etmək üçün onun məqsəduyğun fəaliyyətini, bu fəaliyyətin prinsip və metodlarını əhatə edir. Fəaliyyətin əsas məqsədi potensial alıcının real tələbini öz məhsuluna istiqamətləndirmək üçün şəraitin yaradılmasıdır. Belə şəraitin yaradılmasına təsir edən amillərə onların həyata keçirdikləri funksiyalarla birlikdə satış siyasətinin elementləri, bölüşdürmə, satış və əmtəə hərəkətinin təmin edilməsidir. Satış siyasətinin əsas elementlərinə aşağıdakılar daxildir:

- məhsulun tamamlanması-hazır məhsulun seçilməsi, növlərə ayrılması və qruplaşdırılması-bunlar da məhsulun istehlak üçün mümkünlük və hazırlıq səviyyəsini artırır;

- məhsulun saxlanması-məhsuldan zəruri ehtiyatların yaradılması və saxlanmasının təşkili;

- istehlakçılarla əlaqələr-məhsulun təhvil verilməsi üzrə tədbirlər, sifarişlərin sənədləşdirilməsi, ödəmə-hesablaşma əməliyyatlarının təşkili, məhsula mülkiyyət hüququnun sənədləşdirilməsi, firma və onun məhsulu haqqında istehlakçıları məlumatlandırmaq, habelə bazar haqqında informasiyanın toplanması;

- məhsulların nəqli-onların istehsalçıdan istehlakçıya fiziki yerdəyişməsi.

Firmada satış sisteminin təşkilinə görə **birbaşa və dolayı satış** fərqləndirilir. **Birbaşa satış** istehsalçı tərəfindən son istehlakçıya məhsulun bilavasitə reallaşdırılmasını, **dolayı satış** isə satış kanalında müstəqil kommersiya firmalarından istifadə edilməsini nəzərdə tutur. Birbaşa satış sistemi məhsulun son istehlakçıya bilavasitə reallaşdırılmasını nəzərdə tutur. Deməli, istehsalçı və istehlakçını birbaşa satış kanalı birləşdirir. Bu sistemin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, firma-istehsalçı məhsulun son istehlakçıya qədər hərəkəti yoluna, həmçinin onun reallaşdırılması şərtlərinə nəzarət edir, kommersiya firması kimi də fəaliyyət göstərir.

Firma əmtəələrin hərəkətini paylaşdırma (satış) kanalları ilə təmin edir. **Paylaşdırma kanalları**-əmtəələrin satış yerlərinə çatdırılmasını təmin edən sistemdir. İstehsalçı ilə istehlakçı arasında kommersiya firmalarını nəzərdə tutan satış kanalları **dolayı kanallar** hesab edilir. Belə kanallar vasitəçilərin təcrübələrindən istifadəyə və ticarət şəbəkəsi ilə əməkdaşlığın müxtəlif formalarına əsaslanır. **Əmtəələrin hərəkəti** onların müəyyən olunmuş vaxtda satış yerlərinə çatdırılması və alıcılara maksimum yüksək səviyyəli xidmət sistemidir.

Hazır məhsulun reallaşdırılması üzrə kommersiya fəaliyyətinin təşkili üçün müəssisədə satış xidməti yaradılır. Məhsulun satışının təşkili marketinq tədqiqatlarına əsaslanır. Müəssisədə satış xidmətinin strukturu marketinq strategiyasına uyğun olmalıdır. Satış xidmətinin strukturuna həm idarəetmə, həm də istehsal bölmələri daxildir. İdarəetmə bölmələrinə satış şöbələri (qrupları, büroları) aiddir.

Satış xidmətinin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş formaları fərqləndirilir. Mərkəzləşdirilmiş formada anbar təsərrüfatı bilavasitə satış şöbəsinin rəhbərinə tabe olur, qeyri-mərkəzləşdirilmiş formada isə anbar təsərrüfatı satış şöbəsindən əlahiddə şəkildə olur.

3. Firmada istehsalın-onun ehtiyacları müqabilində material resursları və texniki vasitələrlə (maşın, avadanlıq, nəqliyyat vasitəsi, ehtiyat hissəsi) keyfiyyətli

dərəcədə təmin edilməsi **“maddi-texniki təminat”** adlanan bir prosesin mütəşəkkillik səviyyəsi ilə müəyyən olunur. Firma və müəssisələrin çoxunda maddi-texniki təminat xidməti materiallara tələbatın hesablanması və uçotu, materialların alınmasının təşkili, materialların qəbulu, material ehtiyatlarına nəzarət, istehsalın materiallarla təmin edilməsi, alışın dəyərinin təhlili, xammal bazarında müşahidələr, təminatın təşkilinin təkmilləşdirilməsi və s. bu kimi işləri həyata keçirir. **Maddi-texniki təminat** marketinq, maliyyə, anbar təsərüfatı, nəqliyyat təsərrüfatı və s. xidmətlərlə sıx əməkdaşlıq şəraitində həyata keçirilir. Maddi-texniki təminatın əsas vəzifəsi az məsrəflə müəssisəni lazım olan yüksək keyfiyyətli material resursları ilə vaxtlı-vaxtında və dəst halında təmin etməkdir. Bu vəzifəni yerinə yetirmək üçün müəssisənin təminat xidməti konkret olaraq bir sıra məsul funksiyaları yerinə yetirir. Bunlar aşağıdakılardır:

- istehsal bölmələrində məhsul istehsalına lazım olan xammal və materiallara tələbatın-sifarişlərin müəyyən edilməsi;

- material resurslarına sifarişləri yoxlamaq üçün ümumləşdirici hesablamalaraparılması və yekun sifarişlərin tərtibi;

- müəssisəyə lazım olacaq materialların müfəssəl siyahısını tərtib edib, onların seçilmiş və kontrakt imzalanacaq firmalar üzrə yerləşdirilməsi;

- səmərəli təminat formasının seçilməsi və onun iqtisadi cəhətdən əsaslandırılması;

- məhsulgöndərənlər tərəfindən kontrakt şərtlərinin yerinə yetirilməsinə nəzarət;

- material resurslarının müəssisəyə gətirilməsi, qəbulu və qorunub saxlanması işləri üzrə nəzarətin təşkil edilməsi;

- istehsal ehtiyatlarının normativinə nəzarət, materialların istehsal istehlakı üçün hazırlanması və onların əsas istehsal sexlərinə verilməsi işlərinin təşkili.

Göstərilən funksiyaların **ən əsası material resurslarının alınmasıdır**. Çünki materialların alınması maddi-texniki təminat işinin əsas və ən məsuliyyətli tərəfidir. Sonrakı funksiyaların keyfiyyətli, səmərəli icrası istehsal vasitələrinin alınmasındakı uğurlarından asılı olur. Məhz bu səbəbdəndir ki, firmaların əksəriyyətində material resurslarının alınması ilə məşğul olan xüsusi şöbələr fəaliyyət göstərir.

4. Müəssisənin istər material resurslarına və istərsə də istehsal avadanlıqlarına tələbatı dəqiq müəyyən edilməlidir. Əks halda o, ya aldığı sifarişlərin öhdəsindən

gələ bilməz, ya da lazım olduğundan artıq istehsal vasitələri tədarük edə bilər. Tələbatların hesablanmasında iki məlumat-qəbul edilmiş sifarişlər portfeli, daha dəqiq desək, təsdiq olunmuş istehsal proqramı və materialın məsrəf norması həlledici rol oynayır. **Materiala tələbatın hesablanması qaydası** onun istehlakı xüsusiyyətlərindən və hesablama üçün zəruri məlumatların mövcudluğundan asılı olaraq müəyyən edilir. Hesablama metodlarından ən geniş yayılanı birbaşa hesablama metodlarıdır və onlar aşağıdakılardır:

a) məmulat üzrə hesablama metodu;

b) hissə (detal) üzrə hesablama metodu;

c) oxşarlğa görə hesablama metodu (anoloji metod);

d) nümunəvi təmsilçiyə (tipik nümayəndəyə) görə hesablama metodu. Bu metodlar ayrı-ayrı məhsullar üzrə istehsal proqramı və materialdan məsrəf norması bu və ya digər şəkildə məlum olduğu təqdirdə tətbiq edilir.

Ehtiyat norması firmada toplanılan material resurslarının elə minimum həddidir ki, o, istehsal prosesininn normal getməsini təmin edə bilir. İstehsal ehtiyatlarının bir hissəsi olan **cari ehtiyat** iki məhsulgöndərmə arasındakı vaxt intervalında müəssisənin ahəngdar işləməsini təmin etmək üçündür və dəyişkəndir. **Cari ehtiyat** müəssisəyə material daxil olan anda özünün maksimum həddində, yeni partiya material qəbulu anında isə minimum (sıfır) həddində olur. **Hazırlıq ehtiyatı** istehlakçının ünvanına göndərilmiş materialın qəbulu, istehsal istehlakı üçün hazırlanması və bilavasitə iş yerinə gətirilməsi ilə əlaqədar olan vaxt ərzində istehsalın fasiləsizliyinin təmin edilməsi məqsədilə yaradılır. **Sığorta ehtiyatı** cari ehtiyatın hesablanmasında nəzərdə tutulmuş məhsulgöndərmələrdə ya gətirilən məhsulun miqdarı, ya da vaxtaşarı kənarlaşmalar baş verən zaman istehsalın fasiləsizliyinin təmin etmək məqsədilə yaradılır. **Mövsümi ehtiyat** isə xammal və materialın istehsalı və ya tədarükünün mövsümi olması, xammal və materialın mövsümi istehlakı (məsələn, binaların qızdırılması üçün yanacaq məhsulları) ilə əlaqədar yaradılır. Firmanın maddi-texniki təminatı şəraitdən asılı olaraq 2 formada həyata keçirilir:

a) Tranzit forması;

b) Anbar forması.

Maddi-texniki təminatın **tranzit** başqa sözlə, məhsulgöndərmənin tranzit formasında hazır məhsul istehsalçıdan bilavasitə istehlakçıya vasitəçi və aralıq anbarlara verilmədən göndərilir. Bu halda hazır məhsul nəqliyyat vasitəsinə 1 dəfə istehsalçı firmanın anbarından yüklənir və 1 dəfə də istehlakçı firmanın anbarına

böşaldılır; bu səbəbdən də yükün istehsalçıdan istehlakçıya doğru hərəkəti sürətlənir, nəqliyyat-tədarükat xərclərinin məbləği azalır və. Maddi-texniki təchizatın formalarından biri də təchizatın **qeyri-tranzit formasıdır-anbar formasıdır.** Təchizatın anbar formasında istehlakçı firma istehsal-texniki təyinatlı məhsulları ya bilavasitə onun istehsalçısı olan firmadan onunla bağlamış olduğu müqavilələr əsasında, ya da vasitəçilərdən ala bilir.

Anbar təchizat formasından istifadə istehlakçı firmanın materiala tələbatı tranzit normasından az olduğu və coğrafi şəraitin əlverişli olmadığı hallarda daha məqsədəuyğun hesab edilir.

Təchizatın qeyri-tirazit formasının səmərəli təşkilini nizama salan **"sifariş norması" deyilən normadır.**

Sifariş norması- məhsulgöndərən firmanın bir istehlakçı firmaya göndərəcəyi- istehsal üçün öhdəsinə götürdüyü-materialın minimum miqdarıdır. İstehlakçı firmadan sifariş normasından az miqdarda material istehsal etmək onun üçün iqtisadi baxımdan sərfəli olmadığından o həmin sifarişi qəbul etmir.

Firmanın istehsal xərcləri və məhsulun maya dəyəri

1. İstehsal xərcləri və məhsulun maya dəyərinin mahiyyəti

2. İstehsal xərclərinin təsnifləşdirilməsi

3. Məhsulun maya dəyərinin aşağı salınması yolları

1. Bazar iqtisadiyyatı şəraitində firmanın fəaliyyətinin əsas məqsədi, onun gəlirli olması və rentabelli işləməsidir. Bu isə əsasən iki amildən-xərclərin səviyyəsindən və məhsulun qiymətindən asılıdır. Bazarda azad və mükəmməl rəqabətin mövcudluğu şəraitində qiymətin səviyyəsi istehsalçıların (satıcıların) və istehlakçıların (alıcıların) istək və iradəsindən asılı olmayaraq tələblə təklif arasında nisbət əsasında müəyyən edilir. Deməli, belə bir şəraitdə firmanın mənfəətinin artırılmasına yalnız istehsal xərclərini azaltmaq yolu ilə nail olmaq olar. İstehsal xərclərinin məcmusu istehsal edilən məhsulun firmaya neçəyə başa gəldiyini, yəni məhsulun istehsal maya dəyərini ifadə edir. Firma həmçinin məhsulun realizasiyasına (satışına) müəyyən həcmdə xərclər-kommersiya xərcləri-çəkməli olur. Məhsulun istehsal maya dəyəri ilə onun realizasiyasına çəkilən kommersiya xərclərinin cəmi onun (məhsulun) **tam maya dəyərini** əmələ gətirir.

Məhsulun maya dəyəri onun istehsalına sərf edilmiş xammal, material, yanacaq-enerji resurslarının və kənardan alınmış yarımfabrikatların, həmçinin

əməyin ödənilməsi xərclərinin və əsas fondların amortizasiya ayırmalarının dəyər ifadəsində cəmini əks etdirir. Xərclərin formalaşma mərhələsinə görə məhsulun texnoloji, sex, istehsal və tam (kommersiya) maya dəyərlərini bir-birlərindən fərqləndirirlər. **Məhsulun texnoloji maya dəyəri** bilavasitə texnoloji əməliyyatların yerinə yetirilməsi ilə əlaqədar olaraq sex məsrəflərinin, xərclərinin cəmi kimi müəyyən edilir. **Məhsulun sex maya dəyərinə** müəyyən bir məhsulun istehsalına sexdə sərf edilən bütün növ məsrəflər, yəni xammal və materiallar (əsas və köməkçi), yanacaq və enerji məsrəfləri, sexdə çalışan istehsal fəhlələrinin əmək haqqı, avadanlıqların istismarı və sexin idarə edilməsi ilə əlaqədar olan xərclər və sexdə sərf olunan və mühasibat uçotu haqqında əsasnamə ilə məhsulun maya dəyərinə daxil edilən digər xərclər aid edilir. Məhsulun istehsal maya dəyəri hər bir məhsulun istehsalına firmanın sərf etdiyi məsrəflərin ümumi məbləğini əks etdirir və o, məhsulun sex maya dəyəri ilə ümumzavod xərclərinin cəminə bərabər olur. **Məhsulun tam (kommersiya) maya dəyəri** məhsulun istehsalı və satışı ilə əlaqədar olan bütün xərcləri (mühasibat uçotu haqqında əsasnaməyə uyğun olaraq maya dəyərinə daxil edilən) əks etdirir və o, məhsulun istehsal maya dəyəri ilə firmanın istehsaldan kənar çəkdiyi xərclərin cəmi kimi hesablanır.

Maya dəyərlərinin formalaşması və tərkibi aşağıdakı kimidir:

Məhsulun tam (kommersiya) maya dəyəri						
İstehsal maya dəyəri						
Sex maya dəyəri						
Birbaşa xərclər		Dolayı xərclər				
Xammal, material, yarımfabrikat və dəstləşdirici məmulatlara çəkilən xərclər	İstehsal fəhlələrinin əmək haqqı	Avadanlıqların işi ilə əlaqədar xərclər	Ümumi sex xərcləri	Ümumzavod xərcləri	İstehsalın hazırlığına sərf edilən xərclər	Məhsuun satılması ilə əlaqədar olan xərclər

Məhsulun maya dəyəri- məhsul istehsalı prosesində istehlak edilmiş istehsal vasitələrinin və sərf edilmiş canlı əmək məsrəflərinin dəyəri kimi-məhsulun dəyərinin bir hissəsidir.

2. Müəssisə səviyyədə istehsal xərcləri, hər şeydən əvvəl, aşağıdakı üç qrupa bölünür:

1. Məhsulun istehsalı və satışı ilə əlaqədar olan xərclər, başqa sözlə, uyğun olaraq məhsulun istehsal maya dəyəri və tam maya dəyəri; həmin xərclər cari məsrəflərdir və məhsul satışından əldə edilən gəlirlər hesabına ödənilir.

2. İstehsalın genişləndirilməsi və yeniləşdirilməsi ilə əlaqədar olan xərclər. Bu xərclər yeni məhsulun yaradılması və mövcud məhsulun modernləşdirilməsinə sərf olunan birdəfəlik xərclərdir. İqtisadi mahiyyətinə görə bu xərclər əsaslı vəsait qoyuluşlarına aid edilirlər.

3. Firmanın sosial-mədəni, mənzil-kommunal, məişət və qeyri-istehsal ehtiyaclarına sərf edilən xərclərdir. Bu xərclər istehsalla birbaşa əlaqədar olmadıqlarından məhsulun maya dəyərinə daxil edilmir və onlar, əsasən müəssisənin mənfəəti hesabına maliyyələşdirilir. **Xərclərin iki əsas**: a) istehsal məsrəflərinin iqtisadi elementlərinə (xərclər smetası) görə və b) xərc maddələrinə (kalkulyasiya) görə təsnifləşdirmə sistemi mövcuddur. Məhsulun istehsal məsrəflərinin iqtisadi elementlərinə-bu, xərclər smetası da adlandırılır – məhsulun maya dəyərinə daxil edilən müxtəlif resursların məsrəfləri iqtisadi mahiyyətinə görə qruplaşdırılır. Buraya daxildir: 1. Material xərcləri (geri qaytarılan, istifadəsi mümkün olan tullantıların dəyərini çıxmaqla; 2. Əmək haqqı xərcləri; 3. Sosial sığorta ayırmaları; 4. Əsas fondların amortizasiyası; 5. Sair xərclər. Bu cür təsnnifləşdirmə bütün firma və müəssisələr üçün nümunəvi və məcburidir. **Material xərcləri qrupuna** istehsal planının yerinə yetirilməsi üçün zəruri olan xammal və materialların, texnoliji məqsədlər və cari təmir üçün istifadə edilən materialların, avadanlığın təmir edilməsi üçün istifadə edilən ehtiyat hissələrinin və aşınma nəticəsində sıradan çıxan alətlərin, tərtibatların və azqiymətli tezköhnələn əşyaların dəyəri, həmçinin müəssisənin təsərrüfat ehtiyacları üçün istifadə edilən bütün növ yanacağın və enerjinin satınalınmasına çəkilən xərclər aiddir. **Əmək haqqı xərcləri elementinə** firmanın bütün işçi heyətinin əmək haqqının ödənilməsi ilə əlaqədar məcmu xərclər: əsas və köməkçi fəhlələrin, mühəndis-texniki işçilərin, qulluqçu və qalan digər kateqoriya işçilərin bütün əmək haqqı (əsas və əlavə) aid edilir. **Sosial sığorta ayırmaları xərc elementinə** ölkə qanunvericiliyinə uyğun olaraq işçilərə ödənilən bütün növ əmək haqqının ümumi məbləğinə mütənasib olaraq Dövlət Sosial Sığorta Fonduna məcburi ayırmalar daxildir. **Əsas fondların amortizasiyası xərc elementinə** əsas fondların balans dəyərinə görə ölkə qanunvericilik aktlarında nəzərdə tutulandan yüksək olmayan normalarla hesablanmış amortizasiya (köhnəlmə) ayırmaları uçota alınır. **Məhsulun maya dəyərinin "sair xərclər" elementində** istehsalın hazırlanması və mənimsənilməsi xərcləri, istehsalın təşkili və texnologiyasının təkmilləşdirilməsinə, məhsulun keyfiyyətinin yüksəldilməsi tədbirlərinə sərf edilən cari məsrəflər, ixtiralar və səmərələşdirici təkliflərlə əlaqədar məsrəflər əks

etdirilir. İstehsal məsrəflərinin iqtisadi mahiyyətinə görə qruplaşdırılmasının firmanın təsərrüfat maliyyə fəaliyyətinin nəticələrinin təhlil edilməsində və mühasibat uçotunun təşkilində mühüm əhəmiyyəti vardır. Lakin xərclər iqtisadi mahiyyətinə görə təsnifləşdirildikdə onun hansı məhsula sərf edildiyi məlum olmadığından bu cür təsnifləşdirmədən müəssisədə istehsal edilən hər bir növ məhsul vahidinin maya dəyərinin hesablanmasında istifadə olunması mümkün deyildir. Buna görə də məhsul vahidinin maya dəyərinin hesablanmasında məsrəflərin **kalkulyasiya maddələri üzrə təsnifləşdirilməsi** sistemindən istifadə edilir. **Kalkulyasiya** (latın sözü olub, hesablama, hesab mənalarına uyğun gəlir) xərclərin daşıyıcısının məhsulun hər vahidinin istehsalı və satışına məsrəflərin hesablanmasıdır. Kalkulyasiyanın xərc maddələri aşağıdakılardır: 1) xammal və materiallar; 2) satın alınmış dəstləşdirici məmulatlar, yarımfabrikatlar, müəssisəyə kooperasiyalaşma yolu ilə göstərilən xidmətlər; 3) qaytarılan tullantılar; 4) texnoloji ehtiyaclar üçün sərf edilən yanacaq və enerji; 5) istehsal fəhlələrinin əsas əmək haqqı; 6) istehsal fəhlələrinin əlavə əmək haqqı; 7) sosial sığorta ayırmaları; 8) yeni istehsalın hazırlanması və mənimsənilməsi xərcləri; 9) xüsusi təyinatlı alətlər və tərtibatların alınması xərcləri və sair xüsusi xərclər; 10) avadanlıqların istismara yararlı vəziyyətdə saxlanılması və istismarı xərcləri; 11) sex xərcləri; 12) ümumzavod xərcləri; 13) zay məhsul hesabına yaranan itkilər; 14) sair istehsal xərcləri; 15) istehsaldankənar xərclər. Qeyd olunan bu xərc maddələrinin 1-11-ci maddələrinə aid edilənlərin cəmi məhsulun **sex maya dəyərini**, 1-14-cü maddələrinə aid olunanların məcmusu **məhsulun istehsal maya dəyərini ifadə edir.**

İstehsal xərcləri tərkibinə görə **sadə və kompleks xərc** maddələrinə bölünür. **Sadə xərc maddələrinə** yalnız bir xərc elementindən ibarət olan xərc maddələri aid edilir. Məsələn, xammal və material, satın alınmış dəstləşdirici məmulatlar, yarımfabrikatlar, istehsal fəhlələrinin əsas və əlavə əmək haqqı, texnoloji ehtiyaclar üçün sərf edilən yanacaq və enerji məsrəfləri sadə xərc maddələrinə aiddir. **Kompleks xərc maddələrinə** isə bir neçə xərc elementindən ibarət oan, yəni tərkibinə müxtəlif növ məsrəflərin daxil olduğu xərc maddələri aid edilir. Bura avadanlıqların saxlanması və istismarı xərcləri, ümumsex xərcləri, ümumzavod xərcləri, zay məhsul istehsalı nəticəsində yaranan itkilər aiddir.

Məhsul istehsalının həcmindən asılılıq dərəcəsinə görə xərclər a) **şərti-dəyişən və ya birbaşa xərclərə, b) şərti-sabit və ya dolayı xərclərə** bölünürlər. **Şərti-dəyişən xərclərə** ümumi məbləği məhsul istehsalının həcminin dəyişməsinə (artması və ya azalmasına) uyğun olaraq dəyişən (müvafiq olaraq artan və azalan) xərclər aiddir. Belə ki, məhsul vahidinin istehsalına sərf edilən xammal və material, yanacaq və enerji məsrəfləri, işəmuzd işləyən istehsal fəhlələrinin əmək

haqqı və s. aiddir. Şərti-sabit və ya dolayı xərclərə həcmi istehsalın həcminin dəyişməsindən asılı olmayan, istehsal dövrü ərzində həcmi sabit qalan xərclər aid edilir. Bu xərclərə əsas fondların amortizasiya ayırmaları, vaxtamuzd işləyən fəhlələrin və müəssisənin rəhbərliyinin, mühəndis-texniki və kiçik xidmət heyətinin əmək haqqı xərcləri və s. aiddir. Məhsulun maya dəyərinin tərkibi və quruluşunun təhlili müəssisənin texniki-iqtisadi göstəricilərinin ümumi təsvirini yaratmağa və məhsulun maya dəyərinin aşağı salınmasının əsas istiqamət və mənbələrini müəyyənləşdirməyə imkan verir.

3.Məhsulun maya dəyəri hər bir təsərrüfat subyektinin fəaliyyətinin qiymətləndirilməsi göstəricisidir. Məhsulun maya dəyərini onu təşkil edən bütün xərc maddələrinə qənaət etməklə aşağı salmaq mümkündür və elmi-texniki tərəqqinin inkişafı sayəsində bunların hər biri üzrə maya dəyərinin aşağı salınması ehtiyatları, təkrar-təkrar yarandığından demək olar ki, həmişə mövcuddur. Müəyyən mənada burada yalnız maya dəyərinin "Əmək haqqı xərcləri" maddəsi müstəsnalıq təşkil edə bilər.İqtisadi baxımdan məhsulun maya dəyərinin aşağı salınmasının mühüm istiqamətlərindən biri istehsalın intensive yolla genişləndirilməsidir. Bu proses əlavə kapital qoyuluşu tələb edir, ya da ümumiyyətlə əlavə kapital qoyuluşu tələb etmir. Məhsulun maya dəyərinin aşağı salınmasının ən əhəmiyyətli ehtiyat mənbələrindən biri müəssisədə əmək məhsuldarlığının yüksəldilməsidir. Bu, yeni, daha mütərəqqi texnika və texnologiyanın tətbiqinə və bunun əsasında istehsalın təşkilinin daha səmərəli formalarına keçilməsinə şərait yaratmaqla bir istehsal işçisinə düşən məhsulun həcmini artırır.

Müəssisədə məhsulun maya dəyərinin aşağı salınmasının ən böyük ehtiyat mənbəyi məhsul vahidinə sərf edilən xammal, material, yanacaq və enerji məsrəflərinin-maddi məsrəflərin-azaldılmasıdır. Onu da qeyd etmək lazımdır ki, material xərclərinin aşağı salınmasına yalnız istehsal prosesində yox, həm də tədavül sferasında-məhsulların anbarlarda saxlanmasını və istehsalçıdan istehlakçıya çatdırılmasını düzgün təşkil etməklə, məhsulların daşınmasında daha sərfəli nəqliyyat vasitələrindən istifadə etməklə, yükləmə-boşaltma əməliyyatlarını mexanikləşdirməklə və s. mümkündür. Fondtutumlu sənaye sahələrində məhsulun maya dəyərinin aşağı salınmasının əsas istiqamətlərindən biri istehsal güclərindən, o cümlədən əsas fondlardan istifadənin yaxşılaşdırılmasına, mövcud texnoloji və digər avadanlıqların boşdayanmalarını azaltmaqla və ya tamamilə aradan qaldırmaqla onların maksimum yüklənməsi yolu ilə nail olmaqdır.

Müəssisədə qeyri-məhsuldar xərclərin-cərimələrin, dəbbələmə xərclərinin və s. həcminin aşağı salınması onun gəlirlərini artırmaqla yanaşı, məhsulun maya

dəyərinin aşağı salınmasına imkan verir. Qeyri-məhsuldar xərclərin azaldılmasının ən başlıca amillərindən biri zay məhsul istehsalının aradan qaldırılması, saxlama və daşıma zamanı normadan artıq itkilərə yol verilməməsidir.

Məhsulun maya dəyərinin aşağı salınması amilləri dedikdə, bir qayda olaraq onun aşağı salınmasını təmin edən texniki-təşkilati tədbirlər nəzərdə tutulur. Bu amillərə aşağıdakılar daxildir:

1. İstehsal edilən məhsulların miqdarının və strukturunun dəyişdirilməsi;

2. İstehsalın texniki səviyyəsinin yüksəldilməsi;

3. İstehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi.

Müasir şəraitdə istənilən təsərrüfat sisteminin inkişafı elmi-texkini tərəqqinin nailiyyətlərinə əsaslanır.

Firmanın maliyyəsi, gəlirləri və vergi ödənişləri

1. Firmanın maliyyəsi və maliyyə resursları
2. Firmada maliyyənin təşkili və planlaşdırılması
3. Firmanın gəlirləri və mənfəəti
4. Firmanın vergi ödənişləri

1. Bazar münasibətləri şəraitində pulun fasiləsiz hərəkəti baş verir, bütün ödənişlər pul vasitəsilə həyata keçirilir. “Maliyyə” anlayışı latın sözü olan “finansia” (pul tədiyəsi, pul ödənişi) sözündən əmələ gəlmişdir. Pulun hərəkəti zamanı tərəflər-firma, idarə, təşkilatlar və dövlət arasında, yəni pulu ödəyənlər və onu alanlar arasında ictimai-iqtisadi münasibətlər əmələ gəlir. Maliyyə münasibətlərinin ümumi məcmusunda bir-birilə sıx qarşılqlı bağlı olan aşağıdakı sahələri-təsərrüfat subyektlərinin maliyyəsi, sığorta və dövlət maliyyəsi-bir-birindən fərqləndirilir. İdarəetmənin bütün səviyyələrində (strateji, taktiki, operativ) maliyyə resurslarının rolu bu və digər dərəcədə vacibdir, lakin firmanın inkişaf planında bunlar xüsusilə mühüm əhəmiyyət kəsb edirlər. İstehsal firmasının maliyyəsi aşağıdakı funksiyaları yerinə yetirir:

- firmanın istehsal potensialının formalaşdırılması və artırılması, onun optimal strukturunun təmin edilməsi;
- cari maliyyə-təsərrüfat və kommersiya fəaliyyətinin təmin edilməsi;
- sosial siyasətin həyata keçirilməsində və əhalinin rifah halının yüksəldilməində təsərrüfat subyektinin iştirakının təmin edilməsi.

Firma və müəssisənin maliyyə xidmətinin başlıca vəzifələri aşağıdakılardır:

a) ümumi maliyyə təhlili və qiymətləndirilməsi;

b) firma və ya müəssisənin maliyyə resursları ilə təmin edilməsi (başqa sözlə, vəsait mənbələrinin idarə edilməsi);

c) maliyyə resurslarının bölgüsü (firmanın investisiya siyasəti və maliyyə aktivlərinin idarə edilməsi).

Birinci funksiya çərçivəsində firma və ya müəssisənin maliyyə xidməti aşağıdakı vəzifələri yerinə yetirir: firmanın aktivlərinin və bunların maliyyələşdirilməsi mənbələrinin ümumi şəkildə qiymətləndirilməsi; firmanın əldə olunmuş iqtisadi imkanlarının saxlanması və onun fəaliyyətinin genişləndirilməsi üçün zəruri olan resurslarının tərkibinin və həcmlərinin qiymətləndirilməsi; əlavə maliyyələşdirmə mənbələrinin ümumi şəkildə təhlili və qiymətləndirilməsi; maliyyə resurslarının vəziyyətinə və səmərəli istifadəsinə nəzarət sisteminin qiymətləndirilməsi.

İkinçi funksiya çərçivəsində firmaların maliyyə xidməti aşağıdakı məsələlərin dəqiq qiymətləndirilməsini həyata keçirirlər: tələb olunan maliyyə resurslarının həcmi; həmin maliyyə resurslarının əldə edilməsi formaları (uzunmüddətli yaxud qısamüddətli kredit, nağd vəsaitlər); resursların əldə oluna bilmə dərəcəsi və verilməsi müddətləri.

Firma və müəssisənin maliyyə xidmətinin üçüncü funksiyası investisiya xarakterli uzunmüddətli və qısamüddətli qərarların təhlilini və qiymətləndirilməsini nəzərdə tutur.

Firmanın maliyyə resursları dedikdə, onun maliyyə öhdəliklərini yerinə yetirməsi, cari xərcləri və öz istehsalının genişləndirilməsi ilə əlaqədar olan özünün pul vəsaitləri və borc alınmış vəsaitlərin məcmusu nəzərdə tutulur. Firmanın maliyyə resursları yaranma mənbəyinə və mənşəyinə görə xüsusi və cəlb edilmiş (borc) vəsaitlərinə bölünürlər. Müəssisələrin **xüsusi vəsaitləri** əsasən aşağıdakı mənbələrdən formalaşır:

1. Mülkiyyətçi tərəfindən verilən capital-onun əsas hissəsini təşkil edən nizamnamə fondu (səhmlərin satışından gələn vəsaitlər, mülkiyyətçi və təsisçilərin pay vəsaitləri);

2. Hüquqi və fiziki şəxslərin sair vəsaitləri (məqsədli maliyyələşdirmə, ianələr, xeyriyyə vəsaitləri);

3. Müəssisənin yaratdığı ehtiyatlar (ehtiyat kapitalı, əlavə kapital, yığılmış mənfəət).

Cəlb edilmiş vəsaitlərin əsas mənbələri isə aşağıdakılardır:

a) Bank kreditləri;

b) borc vəsaitləri;

c) istiqrazların və başqa qiymətli kağızların satışından daxil olan vəsaitlər;

d) kreditor borcları;

e) hesablanması ilə köçürülməsi vaxtı arasında müddətdə əmələ gələn büdcəyə olan öhdəliklər;

f) firma və ya müəssisənin əmək haqqı üzrə borc öhdəlikləri.

Hər bir firmanın fəaliyyətinin başlıca maliyyələşdirmə mənbəyi onun xüsusi vəsaitləri hesab olunur. Xüsusi vəsaitlərin ilkin mənbəyi isə müəssisənin nizamnamə kapitalıdır (yaxud fondudur). **Nizamnamə kapitalı** müəssisənin fəaliyyətini təşkil və təmin etmək üçün mülkiyyətçilər (təsisçilər) tərəfindən verilən vəsaitlərin məbləğini əks etdirir.

2. Firma bazara daxil olduqda mühasibat informasiyalarının (maliyyə) hesabatlarının) istifadəçiləri artır. Bu istifadəçilərin birinci qrupuna-firmanın istehsal-kommersiya fəaliyyətinin idarə ediməsi ilə əlaqədar şəxslər, ikinci qrupuna-firmada işləməyən, lakin firmada birbaşa maliyyə marağı olan şəxslər – səhmdarlar, investorlar, müxtəlif kreditorlar, məhsul və xidmətlərin alıcıları və təchizatçılar və s., üçüncü qrupa-firmada dolayı marağı olanlar – müxtəlif maliyyə institutları, Vergi Nazirliyi, statistika orqanları, həmkarlar ittifaqları və s. daxildir. Müəssisənin maliyyə vəziyyətinin təhlili üçün informasiyaların mənbəyinə illik mühasibat uçotunun "Mühasibat balansı" (forma №1), "Mənfəət və zərərlər haqqında hesabat" (forma №2), "Kapitalın hərəkəti haqqında hesabat" (forma №3), "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" (forma №4), "Mühasibat balansına əlavə" (forma №5) aiddirlər. Müəssisənin balansı onun əmlakının tərkibini və bu əmlakın yaranma mənbəyini göstərir. Balans iki hissədən ibarət olur: aktiv və passiv. Aktiv hissədə müəssisənin əmlakı (aktivləri), passiv hissədə onun yaranma mənbəyi göstərilir. Aydındır ki, aktivlərin cəmi passiv hissənin cəminə bərabər olmalıdır. Müəssisənin xalis aktivləri onun ümumi aktivləri ilə ümumi öhdəliklərinin fərqi kimi müəyyən olunur. Müəssisənin maliyyə vəziyyətini əks etdirən göstəricilərindən biri onun **ödəmə qabiliyyətidir. Ödəmə qabiliyyəti** göstəricisi müəssisənin öz öhdəlikləri ilə hesablaşa bilmək qabiliyyətini göstərir və aşağıdakı kimi müəyyən olunur:

$$K_{öd} = \frac{\text{dövriyyə vəsaitlərinin cəmi}}{\text{qısamüddətli və uzunmüddətli öhdəliklərin cəmi}}$$

$K_{öd}$- əmsalı vahiddən böyükdürsə, deməli, müəssisə öz öhdəliklərini yerinə yetirmək imkanına malik olur.

Firmanın özünün qısamüddətli öhdəliklərini yerinə yetirə bimək qabiliyyəti onun **likvidliyi** adlanır. Firma o vaxt **likvid** hesab olunur ki, o, öz dövriyyə vəsaitlərini reallaşdıraraq qısamüddətli öhdəlikləri ilə hesablaşa bilsin. Sonradan satılmaq üçün əldə olunmuş maşın və avadanlıqlar istisna olmaqla, əsas vəsaitlər əsasən müəssisənin qısamüddətli öhdəliklərinin ödənməsi üçün mənbə hesab edilə bilməz. **Cari likvidlik əmsalı** təsərrüfat fəaliyyətini aparmaq üçün müəssisənin

dövriyyə vəsaitləri ilə ümumi təminatını və öhdəliklərini və təcili öhdəliklərinin vaxtında ödənilməsini xarakterizə edir

3. Firmanın gəlirləri-il ərzində pul vəsaitləri və digər əmlak şəklində aktivlərin daxil olması, öz öhdəliklərini yerinə yetirməklə kapitalının həcmcə çoxalması nəticəsində təşkilatın (müəssisə və ya firmanın) əldə etdiyi məcmu (ümumi) iqtisadi fayda, götürdüyü xeyirdir. Daxilolmalar dedidə, hesablaşma mərhələsi kimi pul vəsaitlərinin nağd və nağd olmayan formalarda firmanın hesablaşma hesabına daxil edilməsi aktlarıdır. Əgər firma tərəfdən istehlakçıya göndərilmiş məhsulların haqqının ödənilməsi sonraya saxlanırsa, və ya gecikdirilirsə, bu, daxilolmalar deyil, debitor borclar adlanır. Firmanın ümumi gəliri-istehsal-kommersiya fəaliyyətinin yekun nəticəsini xarakterizə edən göstəricidir. O, satışdan vəsaitin və satışla bağlı olmayan əməliyyatlardan daxil olan vəsaitlərin cəmindən-əmək haqqı xərc maddəsi istisna olmaqla – kommersiya (tam) maya dəyərini çıxmaqla hesablayırlar. Firmanın gəlirləri onların xarakteri, istiqamətləri, alınma şərtlərinə və özünün yaranma mənşəyinə görə aşağıdakı göstərilən fəaliyyət növləri ilə bağlı olurlar:

1. Firmanın adi (əsas) fəaliyyətindən daxil olan gəlirlər.
2. Firmanın icra etdiyi əməliyyatlardan gəlirlər.
3. Məhsulların, göstərilən xidmətlərin və görülən işlərin satılması ilə bağlı olmayan gəlirlər.
4. Fövqəladə hallarla əlaqədar daxil olan gəlirlər.

Bunlardan ancaq birincisi firmanın əsas (adi) fəaliyyətilə, qalanları isə sair daxilolmalardan əldə edilən gəlirlər hesab edilir. Gəlir növlərinin təsnifləşdirilməsində onların 2 əlaməti əsas götürülür. 1) Gəlirlərin əldə olunmasının daimiliyi-mütəmadi və təsadüfi; Gəlirlərin daimiliyi, fasiləsizliyi baxımından istisna təşkil edən "fövqəladə hallarla bağlı" gəlirlərdir. Bunlar gözləniləndir, lakin zəruri, arzuolunan deyildirlər, bu gəlirlər təsadüf mahiyyətli, olsa-olsa, vaxtaşırı mahiyyət daşıyan gəlirlərdir. 2) hesabat dövrünə aidiyyatına görə-cari gəlirlər və gələcək dövrün gəlirləri.

Firmanın adi fəaliyyətindən daxil olan gəlirlərə istehsal edimiş məhsulun, göstərilmiş xidmətlərin və görülmüş işin satılmasından əldə edilən gəlirlər aid olunurlar. Satışdan gələn pul vəsaitinin məbləğini müəyyən etmək üçün satılan hər bir növ məhsulun bazar qiyməti onun sayına vurularaq cəmlənir. **Firmanın icra etdiyi əməliyyatlardan gəlirlərə daxildir**: firmanın kənar təşkilata müvəqqəti istifadə üçün verdiyi aktivlərə görə ödəniş haqqı kimi daxil olan gəlirlər; kəşflərə görə patent, sənaye məhsulu nümunələri, digər intellektual mülkiyyət növlərindən istifadə hüququna görə daxil olan gəlirlər; başqa təşkilatların nizamnamə kapitalında iştirak etməkdən daxil olan gəlirlər; firmanın başqa təşkilatlarla müştərək işgüzar əməkdaşlığından əldə olunan gəlirlər; banklar tərəfindən firmaya

mənsub pul vəsaitlərindən istifadəyə görə faizlər aiddirlər. **Məhsulların, göstərilən xidmətlərin və görülən işlərin satılması ilə bağlı olmayan gəlirlərə** müqavilə şərtlərini pozduqlarına görə "müqabil tərəflərin" ödədikləri cərimələr, dəbbələmə pulu, peniyalar, təmənnasız, o cümlədən müqavilə əsasında bəxşiş kimi verilmiş aktivlər, iddia vaxtı keçmiş kreditor və deponent borcların qaytarılmasından gələn gəlirlər aid olunurlar. **Fövqəladə hallarla əlaqədar daxil olan gəlirlərə** onun təsərrüfatçılıq fəaliyyətində baş verən fövqəladə hadisələrlə bağlı daxil olan gəlirlərdir. Buraya yanğın, daşqın, qəza və digər təbii fəlakət halları üçün ödənilən sığorta ayırmaları, bərpası və istifadəsi mümkünsüz olan aktivlərin satılmasından əldə olunan pul vəsaitləri aiddir.

Bazar iqtisadiyyatı şəraitində **mənfəətin əldə olunması** müəssisənin yaradılması və fəaliyyətinin əsas məqsədidir. Bazarda firma xüsusiləşmiş əmtəə istehsalçısı kimi çıxış edir. Firma məhsula qiymət müəyyən edərək onu istehlakçılara satır və müəssisəyə pul mədaxili baş verir. Bu zaman mənfəət əldə olunur. Maliyyə nəticəsini müəyyən etmək üçün mədaxillə məhsulun maya dəyərini müqayisə etmək lazımdır. Əgər mədaxil maya dəyərindən çoxdursa, bu mənfəətin alınmasını göstərir. Müəssisə həmişə çalışır ki, mənfəət əldə etsin. Əgər mədaxil maya dəyərindən az olursa, müəssisə zərərə düşür, iflasa uğrayır. **Mənfəətin funksiyaları:** firmanın fəaliyyəti nəticəsində əldə edilmiş iqtisadi səmərəni xarakterizə edir; firmanın maliyyə resurslarının əsas elementidir; müxtəlif səviyyəli büdcələrin gəlir hissəsinin formalaşması mənbəyidir. Müəssisə və istehsal firmalarında mənfəətin öz kəmiyyətinə, iqtisadi məzmununa və funksional təyinatına görə dörd göstəricisi formalaşır. Müəssisənin istehsal-təsərrüfat və ya firmanın istehsal-kommersiya fəaliyyətinin əsas göstəricisi olan balans mənfəətidir. Verginin hesablanması üçün xüsusi göstərici-ümumi mənfəət, bunun əsasında isə vergi tutulan və vergiyə cəlb edilməyən mənfəət hesablanır. Vergilər və büdcəyə digər ödəmələr edildikdən sonra balans mənfəətinin qalan hissəsi xalis mənfəət adlanır. O, müəssisənin fəaliyyətinin son maliyyə nəticəsini xarakterizə edir. Balans mənfəətinə üç elementi: a) məhsulun reallaşdırılmasından, işlərin yerinə yetirilməsindən, xidmətlərin göstərilməsindən mənfəət (zərər), b) müəssisənin əsas vəsaitlərinin və digər əmlakının reallaşdırılmasından daxil olan mənfəət (zərər), və c) reallaşdırmadan (satışdan) kənar əməliyyatların maliyyə nəticələri daxildir. **Məhsulun (iş və xidmətlərin) reallaşdırılmasından mənfəət** firmanın əsas fəaliyyətinin maliyyə nəticəsidir. Reallaşdırmadan mənfəət-reallaşdırmadan mədaxillə (ƏDV-siz və aksizsiz) istehsal və reallaşdırma xərclərinin fərqi kimi müəyyən olunur. **Firmanın əsas vəsaitlərinin və digər əmlakının reallaşdırılmasından daxil olan mənfəət (zərər)** özünün balansında olan əmlakın satışından əldə olunur. Reallaşdırmadan kənar maliyyə nəticələrinə alınmış və ödənilmiş cərimə, peniya və digər sanksiya növlərinin saldosu,

həmçinin hesabat ilində aşkar olunmuş keçmiş illərin mənfəəti, keçmiş illərdə silinmiş debitor borclarının ödənməsindən daxil olan məbləğ, müəssisənin hesablarında olan pul vəsaitlərinə görə ödənilən faizlər, digər müəssisələrin nizamnamə kapitalında pay iştirakından gəlirlər, qiymətli kağızlar üzrə gəlirlər və s. daxildir. Büdcəyə vergilər və digər ödənişlər köçürüldükdən sonra xalis mənfəət müəssisənin sərəncamına keçir. Müəssisə həmin mənfəətdən öz nizamnaməsinə uyğun istifadə edir.

4. Hər bir ölkənin vergi siyasətinin səmərəlilyi öonun öz funksiyalarını lazımınca yerinə yetirdiyi təqdirdə təmin oluna bilər. Bunlar: a) büdcəyə daxilolmalar dövlətin öz iqtisadi və sosial vəzifələrini relalaşdırmaq üçün kifayət məbləğdə olsun; b) geniş təkrar istehsalın fasiləsizliyi üçün yetərli olsun. Firmanın maliyyə siyasətinin mühüm istiqamətlərindən biri uçot işinin mötəbərliyi və vergi işinin düzgün planlaşdırılmasının təşkilidir. Vergi planlaşdırılmasının təşkilində məqsəd müəssisənin büdcə ilə qarşılıqlı münasibətlərinin səmərəli, həm də qanunvericiliyin tələblərinə müvafiq qurulmasıdır. Vergi planlaşdırılması işi vergi qanunları (Vergi Məcəlləsi və s.) əsasında aparılır. Hazırda Azərbaycan Respublikasında firma və müəssisələr dövlət büdcəsinə və büdcədənkənar fondlara aşağıdakı vergi və ayırmaları ödəyirlər:

1) **Əlavə edilən dəyərdən vergi (əlavə dəyər vergisi-ƏDV)**-məhsulların, işlərin, xidmətlərin istehsalı prosesində yaranan və onlar satıldıqca reallaşan dəyər artımının bir hissəsinin büdcəyə alınması formasıdır. Əvvəla, əlavə dəyər vergisi birbaşa deyil, dolayısı ilə alınan vergi növüdür; əmtəənin, görülən işin və göstərilən xidmətlərin qiymətlərinə əlavə formasıdır. İkincisi, bu vergi növü istehsalçı müəssisələrin mənafelərinə toxunmur, O, məhsulların istehlakçılarına tətbiq edilən, daha doğrusu, onlardan alınan vergidir. İstehsalçı müəssisə və yaxud sahibkar, sadəcə olaraq, bu işdə vergi toplayan qismində çıxış edir. Hal-hazırda Azərbaycan Respublikasında əlavə dəyər vergisi 18% dərəcəsi ilə ödənilir. ƏDV məhsul istehsalının və göndərilməsinin, işlər görülməsinin bütün mərhələlərində ödənilir. Vergi tutulan dövriyyədən ödənilməli olan ƏDV-nin məbləği bu cür dövriyyədən hesablanan verginin məbləği ilə verilən hesab-fakturalara müvafiq surətdə əvəzləndirilməli olan verginin məbləği arasındakı fərq kimi müəyyən edilir. Məhsul satılarkən onun qiyməti əlavə dəyər vergisinin məbləği qədər artırılmalıdır.

2) **Aksiz vergisi**-müəyyən qrup kütləvi istehsal məhsullarının, zinət əşyalarının, habelə xidmətlərin (məsələn, alkoqollu içkilər, tütün məmulatları, neft məhsulları və s.)qiymətlərinə daxil edilən və alıcı tərəfindən ödənilən vergidir. Aksiz tutulmalı məhsulların siyahısı və onların aksiz dərəcələri respublika hökumətinin müvafiq qərarları ilə təsdiq edilir.

3) **Mənfəət vergisi**-müəssisə və təşkilatların mənfəətindən qanunla müəyyənləşdirilmiş dərəcə ilə hesablanaraq dövlət büdcəsinə köçürülür. 1 yanvar 2010-cu ildən mənfəət vergisinin dərəcəsi 20 faiz səviyyəsində müəyyən edilmişdir.

4) **Mədən vergisi**-ölkə ərazisindəki yeraltı sərvətlərdən səmərəli istifadə etmək və onlar çıxarılarkən ayrı-ayrı sahələr arasında rentabellik səviyyəsiilə əlaqədar rəqabət münasibətlərini tənzimləmək məqsədilə ödənilir. Mədən vergisini yalnız yerin təkindən faydalı qazıntıların çıxarılması ilə məşğul olan müəssisələr ödəyir. Bu vergiyə cəlb olunan faydalı qazıntı növlərini və vergi dərəcələrini hökumət təsdiq edir.

5) **Əmlak vergisi**-müəssisələrin balansında olan əsas vəsaitlərin məbləğindən 1 faiz dərəcəsi ilə ödənilir.

6) **Torpaq vergisi**- müəssisə və təşkilatların mülkiyyətində və istifadəsində olan torpaqlardan səmərəli istifadəni təmin etmək üçün hər il torpaq vergisi tutulur. Verginin dərəcəsi torpağın təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir və təsdiq edilir.

7) **Xarici iqtisadi fəaliyyətdən vergilər**- firma, müəssisə və təşkilatların idxal-ixrac əməliyyatları həyata keçirməsinə görə büdcəyə ödədiyi gömrük vergi və rüsumlarıdır.

8) **Məcburi dövlət sosial sığorta haqqı**- müəssisələr məcburi dövlət sosial sığorta haqqını hesablanmış əməyin ödənişi fondunun 22 faizi və işçiyə verilən əmək haqqının 3 faizi məbləğində Dövlət Sosial Müdafiə Fonduna ödəyirlər.

9) **Yol vergisi**- ölkə ərazisinə daxil olan və avtomobil nəqliyyatı vasitələrinə malik bütün fiziki və hüquqi şəxslərdən yollardan istifadəyə görə tutulur.

Firmada qiymətin əmələ gəlməsi

1. Qiymətin əmələgəlmə qanunauyğunluqları
2. Qiymətin funksiyaları və növləri
3. Firmanın qiymət siyasəti

1. Firmanın istehsal etdiyi məhsulun qiyməti həlledici dərəcədə məhsulun maya dəyərindən asılı olur. Firma miqyasında məhsulun maya dəyəri-həm də tam, kommersiya maya dəyəri-qiymətin əmələ gəlməsində baza rolunu oynayır. Rəqabət mübarizəsində məhsulun qiyməti firmanın öz fəaliyyətinin davam etdirə bilməsi üçün ən önəmlo iqtisadi vasitə hesab olunur. Qiymət əmtəənin (məhsulun) dəyərinin pulla ifadəsidir. Firmanın öz məhsuluna qiymət müəyyən edərkən

aşağıdakı qanunauyğunluqları nəzərə almalıdır: məhsulun qiyməti onun maya dəyərindən yüksək olmalıdır; mənfəətlə işləməyin təminatçısı məhz budur; məhsulun qiymətinə alıcının münasibətiaydın olmalıdır və bu qiymətqoyma üçün vacib amildir; analoji məhsul istehsal edən rəqib firmaların bazardakı davranışları istehlakçılar üçün aydın olmalıdır. Buradan belə bir nəticə çıxır ki, maya dəyəri amilini əsas götürən firma və müəssisələrin qiymət siyasəti xərcyönümlü, bazardakı rəqiblərin davranışlarını əsas götürən firmaların qiymət siyasəti bazaryönümlü olur. Qiymətin miqyasına tələb və təklifdən əlavə istehsal və tədavül xərclərinin həcmi, istehlakçılar arasındakı rəqabət, əsas məhsulun əvəzedicilərinin mövcudluğu, məhsulun keyfiyyəti, satışın mövsümlüyü, məhsulun reklamlaşdırılması, inflyasiyanın səviyyəsi, istehsalçı və istehlakçıların davranış psixologiyaları və s. bu kimi amillər də təsir göstərir. Qiymətin müxtəlif amillərin təsiri ilə formalaşması, yaranması və dəyişməsi **qiymətin əmələ gəlməsi prosesi adlanır.** Firmanın məhsul istehsalına çəkdiyi xərclər iqtisadi cəhətdən xarici və daxili xərclərə bölünür. İş qüvvəsinə, xammal və materiallara, yanacaq və enerjiyə və s. bu kimi kənardan alınan resurslara çəkilən xərclər xarici xərclər, firmanın özünə məxsus olan və buna görə də haqqını ödəmədiyi resursların bazaar qiyməti əsasında hesablanmış dəyərinə bərabər olan xərclər isə daxili xərclər hesab edilir. Firmanın iqtisadi xərcləri sabit və dəyişən xərclər kimi təsnifləşdirilir. **Sabit xərclər** istehsalın həcminin dəyişməsindən (artıb azalmasından) asılı olmur (normal mənfəət sabit xərcin tərkib elementidir), **dəyişən xərclər** isə istehsalın həcminin dəyişməsindən asılı olaraq artıb və ya azalan xərclərdir. İstehsal prosesində istifadə olunan resursların həcmcə dəyişdirilməsinə müxtəlif vaxtlar sərf olunduğundan, qısamüddətli və uzunmüddətli dövrlər fərqləndirilir. **Qısamüddətli dövr**-müəssisənin öz istehsal güclərini dəyişməsi üçün ən qısa, lakin mövcud istehsal gucundən istifadə intensivliyini dəyişmək üçün kifayət olan zaman kəsiyidr. Firmanın mövqeyi və ya marağı baxımından **uzunmüddətli dövr**-onun özünükü olan bütün resursların, o cümlədən, istehsal gücünün dəyişdirilməsi üçün kifayət edən vaxt intervalıdır. Qısamüddətli dövrdə müəssisə sabit istehsal gücündə daha çox dəyişən xərclər sərf etməklə istehsalın həcmini artıra bilər. Lakin müəyyən andan sonra müəssisədə sərf edilən dəyişən resursun (məsələn, əmək resursunun) hər sonrakı vahidinə daha az məhsul istehsal olunur. **Bu , azalan verim qanunu adlanır.** Firmanın məhsul vahidinə orta hesabla çəkdiyi ümumi xərclər orta xərclər adlanır. Təcrübədə bir qayda olaraq, məhsul vaidinin qiyməti ilə orta xərcləri müqayisə edirlər. **Orta sabit xərclər** ümumi sabit xərclərin məhsulun miqdarına nisbəti kimi müəyyən olunur. Sabit xərclərin məbləği istehsalın həcmindən asılı olmadığı üçün, orta sabit xərclər istehsalın həcmi artdıqca azalır. **Orta dəyişən xərclər** də, eyni ilə, ümumi dəyişən xərclərin məhsulun miqdarına nisbəti kimi hesablanır. Qiymətin əmələgəlməsinin

qanunauyğunluğunun aşkar edilməsi üçün mühüm məsələlərdən biri də "xərclərin son həddi" anlayışının mahiyyətinin müəyyən olunmasıdır. Yəni, xərclərin son həddi firmanın sonrakı məhsul vahidinin istehsalı üçün çəkdiyi xərcləri, həmçinin bu məhsul qədər istehsalı azaltdıqda "qənaət edəcəyi" göstərir. Qiymətin əmələgəlməsi qanunauyğunluqlarını müəyyən etmək üçün bazaar şəraitlərini fərqləndirmək lazımdır. Bunlara xalis rəqabət, xalis inhisar, inhisarçı rəqabət və oliqopoliya aiddirlər. Bu dörd model bir-birindən sahədəki firma və müəssisələrin sayına görə fərqlənirlər.

2. Qiymət-uçot, stimullaşdırma və bölgü funksiyalarını yerinə yetirən çox önəmli iqtisadi vasitədir. **Uçot funksiyasında** qiymət, məhsul istehsalına və satışına ictimai zəruri əmək məsrəflərini əks etdirir, istehsala çəkilən xərcləri və onun nəticələrini müəyyənləşdirməkdə həlledici rol oynayır. **Qiymət** –müxtəlif təsərrüfat proseslərinin nəticələrini dəyər baxımından ölçməyə imkan verən iqtisadi vasitədir, göstəricidir. **Qiymətin stimullaşdırma funksiyası** öz əksini resurslara qənaətdə, istehsalın səmərəliliyinin və məhsulun keyfiyyətinin yüksəldilməsində tapır. Qiymətin bu funksiyası müəyyən mənada təhrikçilik gücünə malik olmaqla məhsulun istehsalına və istehlakına qarşılıqlı təsiri ilə xarakterizə olunur. Qiymət özünün tərkib hissələrindən biri olan mənfəətin səviyyəsi ilə həm istehsalçıya, həm də istehlakçıya təsir göstərir. Qiymətin bölüşdürmə funksiyası özünü müəyyən qrup məhsullar üzrə aksiz vergisinin, əlavə edilmiş dəyərdən verginin və s.-nin qiymətdə nəzərə alınmasında tapır. Bununla da, qiymət ümumi milli gəlirin dövlət büdcəsi, regionlar, sahələr, müxtəlif mülkiyyət formalı müəssisə və firmalar, istehlak və investisiya, əhalinin müxtəlif sosial qrupları arasında bölüşdürülməsinin mühüm vasitəsinə çevrilir.

İqtisadi məzmununa və təyinatına görə **qiymətlərin aşağıdakı növləri** mövcuddur: sənaye məhsuluna topdansatış qiyməti, tikinti məhsuluna qiymət, tədarük qiymətləri, yük və sərnişin nəqliyyatının tarifləri, pərakəndəsatış qiymətləri, əhaliyə göstərilən pullu xidmətlərin tarifləri, xarici ticarət dövriyyəsinə xidmət göstərən qiymətlər.

Müəssisənin topdansatış qiyməti, məhsulun istehsalına və reallaşdırılmasına sərf olunmuş xərcləri ödəyən, müəssisənin öz fəaliyyətini davam və inkişaf etdirməyə imkan verən və nəhayət, mənfəət səviyyəsini təmin edə bilən bir qiymətdir. Müəssisədə qiymətin formalaşmasına məhsulun faydalılığı, xərclərin səviyyəsi, məhsulun satış üsulları və xidmət amilləri təsir göstərirlər. Sənayenin topdansatış qiymətinə müəssisənin topdansatış qiyməti, təchizat-satış təşkilatlarının xərcləri və mənfəət, aksiz və əlavə olunmuş dəyərə vergi daxil edilir. Təsərrüfat praktikasında tikinti məhsuluna qiymətlərin üç növündən istifadə olunur: hər bir obyektin tikintisinə çəkilən xərclərin ölçüsünü əks etdirən smeta dəyəri; nümunəvi (tipik) tikinti obyektinin son məhsul vahidinin orta smeta dəyərini əks etdirən

preyskurant qiyməti ($1m^2$ yaşayış sahəsinə, $1m^2$ rəngsaz işinə və s.); sifarişçi və podratçılar arasında müqavilə əsasında müəyyən olunan müqavilə qiyməti. **Tədarük qiymətləri** vasitəsilə firma və ya müəssisə, fermer və əhali tərəfindən kənd təsərrüfatı məhsulları reallaşdırılır. Bu, adətən, tərəflərin razılaşması əsasında müəyyən olunan müqavilə qiymətidir. **Yük və sərnişin nəqliyyatının tarifləri** nəqliyyat təşkilatlarının yük göndərənlərdən və əhalidən yüklərin və sərnişinlərin daşınmasına görə alınan haqqı əks etdirir. **Pərakəndəsatış qiymətləri** ilə məhsullar ticarət şəbəkəsində əhaliyə, müəssisələrə və təşkilatlara satılır. Bu qiymət sənayenin topdansatış qiymətilə ticarət təşkilatlarının əlavəsindən ibarət olur. Müasir dövrdə əksər məhsulların qiymətləri dövlət təsirlərindən azad, tələb və təklifin təsiri nəticəsində sərbəst şəkildə bazarda formalaşır. Tənzimlənən qiymətlər də tələb və təklifin təsiri altında formalaşır, lakin bu qiymətlərə dövlətin, nizamlanma baxımından, müəyyən təsirləri olur. Bazar iqtisadiyyatı şəraitində əsasən iki növ qiymətlər: sərbəst və tənzimlənən qiymətlər fəaliyyət göstərirlər. Ticarətlə bilavasitə əlaqəli qiymətlərin xüsusi növlərinə auksion, birja və müqavilə qiymətləri aiddirlər. **Auksion (hərrac) qiyməti**-hərrac (auksion) vasitəsilə satılan məhsulların aldıqları qiymətdir. O, bazar qiymətindən əhəmiyyətli şəkildə fərqlənə bilər, çünki bu qiymət məmulatların nadir xassə və əlamətlərini əks etdirir. **Birja qiymətləri**-birjada əmtəələrin alqı-satqısı üzrə topdansatış sövdələşmələrində istifadə edilən qiymətlərdir. Bunlar sərbəst qiymətlərdir, cünkü tələb və təklifdən, sövdələşmənin həcmindən və şərtlərindən asılı olur. **Müqavilə (kontrakt) qiyməti**-bağlanmış müqavilə əsasında əmtəələrin reallaşdırıldığı qiymətdir. Müqavilə qiyməti müqavilənin qüvvədə olma müddəti ərzində sabit qala və tərəflərin razılığı ilə vaxtaşarı dəqiqləşdirilə bilər.

3. Firmanın qiymət siyasəti özünün qarşısında duran məqsədlərə nail olmaq üçün bazarda onun (firmanın) davranışı haqqında qərarların qəbulu mexanizmidir. Firmanın qiymət siyasətinin hazırlanması mərhələləri və reallaşdırılması ardıcıllığı aşağıda göstərilmişdir:

Qiymət əmələgəlmənin vəzifələrinin müəyyən edilməsi

↓

Tələbin müəyyən edilməsi

↓

Xərclərin qiymətləndirilməsi

↓

Rəqiblərin qiymət və məhsullarının təhlili

↓

Qiymətqoymanın metodlarının seçilməsi

↓

Məhsullara son qiymətlərin müəyyən olunması

Firma özünün qiymət siyasətini hazırlayarkən ilk növbədə konkret məhsulların reallaşdırılması ilə hansı məqsədlərə nail olunmasını müəyyən etməlidir. Özünün qiymət siyasətinin köməyilə firma və müəssisənin nail olmaq istədiyi məqsədlərə aşağıdakıları aid etmək olar. **1. Bazarda firmanın öz stabil mövqeyini saxlaması məqsədi.** Bu halda rəqabət mübarizəsinin kəskinləşməsinin mənfi nəticələrini aradan qaldırmaq və satışın azalmasının qarşısını almaq üçün firma tərəfindən müxtəlif tədbirlərin işlənib hazırlanması tələb olunur; firma bazarda qiymətin dinamikasını, bazara yeni məhsulların daxil olmasını, rəqiblərin davranışını öyrənməli və təhlil etməli, öz məhsuluna müəyyən etdiyi qiymətlərin bazaar qiymətlərindən kəskin kənarlaşmasının qarşısını almalı, istehsal və satış xərclərinin azaldılmasına çalışmalıdır. **2. Firmanın bazarda öz satış payını artırması məqsədi.** Firma bazarda yüksək paya malik olmaqla həm istehsal xərclərini aşağı salmağa, həm də uzun zaman kəsiyində mənfəət əldə etməyə nail olur. Firma, tələbin qiymətə görə elastic olduğu şəraitdə, məhsul vahidindən gəlirin bir qədər azaldılması yolu ilə satışın həcmini artırmaq hesabına mənfəətin ümumi məbləğini yüksəltməyi öz qarşısına məqsəd kimi qoyur. Firma bu halda hesab edir ki, reallaşdırma həcminin artırılması istehsal və satış xərclərini nisbətən azaltmağa imkan verir. **3. Firmanın öz likvidliyinin (ödəməqabiliyyətini) təmin olunması məqsədi.** Bu, satış şərtlərinin müəyyən olunması ilə bağlıdır. Əgər firma etibarlı sifarişçilərə malikdirsə, hesablaşmalarla bağlı problemlər yaranmırsa, onda bu, ona stabil ödəmə qabiliyyətinin olmasını təmin edir. 4. **Mənfəətin maksimumlaşdırılması məqsədi.** Bu halda, firma öz cari mənfəətini maksimumlaşdırmağa cəhd göstərir. O, təhlil vasitəsilə qiymətin müxtəlif səviyyələrinə uyğun tələbin və xərclərin maksimal ödəndiyi qiymət səviyyəsini seçir. Firmanın qiymət siyasətinin qeyd edilən uzunmüddətli məqsədləri ilə yanaşı qısamüddətli məqsədləri də olur. Bunlara aşağıdakılar daxildir: bazar vəziyyətinin sabitləşdirilməsi; qiymət dəyişməsinin tələbə təsirinin azaldılması; potensial rəqabətin məhdudlaşdırılması; firmanın və ya məhsulun imicinin artırılması. İstehsala edilən məhsula tələbin formalaşması qanunauyğunluqlarının tədqiqi firmanın qiymət siyasətinin hazırlanmasında vacib mərhələdir. Tələbin həcminə məhsula tələbat, əvəzedicilərin və rəqiblərin olmaması, potensial alıcıların ödəməqabiliyyiti, onların zövqləri və s. kimi amillər təsir göstərir. Bu zaman tələbin qiymət səviyyəsinə **həssaslıq dərəcəsi-elastiklik əmsalı** müəyyən olunmalıdır. Əgər tələbin qiymətə görə elastiklik səviyyəsi aşağıdırsa, onda firmanın öz məhsullarına qiymətlərini artırması məqsəduyğun hesab edilir. Əksinə, elastiklik səviyyəsi yüksək olan məhsullara isə qiyməti azaltmaq daha məqsədəuyğundur, çünki bu, firmanın öz məhsulunun satış həcmini və gəlirlərini artırmağa səbəb olur. Tələbin qiymətə görə elastikliyini nəzərə aalmaqla

hesablanmış qiymət firmanın öz məhsuluna müəyyən etdiyi qiymətin yuxarı həddidir. Qiymətin tələblə müəyyən olunan yuxarı həddi ilə xərclərlə müəyyən olunan aşağı həddi arasındakı interval daxilində firma istehsal etdiyi məhsula qiymət müəyyən edir. Firmanın məhsula müəyyən etdiyi qiymət bazardakı analoji və ya oxşar məhsulların qiyməti və keyfiyyətinə uyğun gəlməlidir. Rəqiblərin məhsullarını, onların qiymət kataloqlarını öyrənərək, həmin firmaların bazardakı dəyişikliklərə reaksiyalarını qiymətləndirərək və nəhayət, istehlakçılar arasında sorğu apararaq firma bazarda öz mövqeyini düzgün müəyyən etməli və bunun əsasında məhsula qoyduğu qiymətləri dəqiqləşdirməlidir.